# Xalq qəzeti

Xalqın qəzeti!

№ 79 (31048) 7 may 2026-cı il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi


# İslam İnkişaf Bankı Azərbaycanın mötəbər maliyyə tərəfdaşıdır

## Prezident İlham Əliyev İslam İnkişaf Bankı Qrupunun sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 6-da İslam İnkişaf Bankı Qrupunun sədri Məhəmməd Əl-Casirin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Söhbət zamanı dövlətimizin başçısının Məhəmməd Əl-Casirlə görüşləri məmnunluqla xatırlandı, onun ölkəmizə səfərlərinin tərəfdaşlığın genişləndirilməsi işinə töhfə verdiyi bildirildi.

Azərbaycanla İslam İnkişaf Bankı arasında uzun illərdir səmərəli əməkdaşlığın qurulduğu vurğulandı.

Bankın ölkəmizdə iqtisadiyyatın müxtəlif istiqamətlərində, həmçinin enerji, o cümlədən yaşıl enerji, kənd təsərrüfatı, su və irriqasiya sistemləri, infrastruktur və sosial sahələrdə bir sıra layihələr həyata keçirdiyi qeyd edildi. Bu xüsusda vurğulandı ki, 20-yə yaxın dövlət və özəl layihənin icrası üçün bank tərəfindən 1,2 milyard ABŞ dollarından çox vəsait ayrılıb.

Görüşdə bankın bu ilin iyununda Bakıda keçiriləcək İllik toplantılarına hazırlıq məsələləri müzakirə olundu.

Qonaq Ələt Azad İqtisadi Zonası ilə tanış olacağını, həmçinin Qarabağa səfər edəcəyini bildirdi.

Söhbət zamanı ölkəmizlə bank arasında əməkdaşlığın mövcud vəziyyəti və perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

*AZƏRTAC*

## Heydər Əliyev fenomeni: siyasi portretin miqyası və şəxsiyyətin missiyası



Səhifə ⇨ 7

## Roberta Metsola və ikinci “Qatargate”in ayaq səsləri




Səhifə ⇨ 5

## Makronun ucuz populizmi və Ermənistan üçün ən doğru yol



Səhifə ⇨ 3

## Azərbaycan–Aİ münasibətlərində iqtisadi inteqrasiya mərhələsi



Səhifə ⇨ 8

## “Azercell”in icbari “paket” xidmətləri




Səhifə ⇨ 9

## Şuşa, biz səni mədəniyyət paytaxtımıza çevirmişik



Səhifə ⇨ 10

## Ortaq maraqlar Bakı ilə Brüsseli daha da yaxınlaşdırır



Səhifə ⇨ 3

## Bakıda Türk dünyası mühəndislik zirvəsi



Səhifə ⇨ 8

## Avropa Parlamentinin “seçmə” ədaləti



Səhifə ⇨ 4

## “İrəvan dialoqu”nun hədəfi sülhdürsə...



Səhifə ⇨ 4

## Berlin Vaşinqtonla anlaşmağa çalışır



Səhifə ⇨ 5

## Lənkəranda xatirə marafonu



Səhifə ⇨ 6

# "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 21 aprel tarixli 388-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 21 aprel tarixli 388-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1**. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 45-1.1-ci maddəsində, 97.4-cü maddəsinin birinci cümləsində və 150.4-cü maddəsinin üçüncü cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 45-1.1-ci maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi nəzərdə tutulur;

1.3. həmin Məcəllənin 97.4-cü maddəsinin birinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi nəzərdə tutulur;

1.4. həmin Məcəllənin 150.4-cü maddəsinin üçüncü cümləsində "orqanın (qurumun) informasiya sistemi" dedikdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin "ASAN ödəniş" informasiya sistemi nəzərdə tutulur.

**2**. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. iki ay müddətində:

2.1.1. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 388-3-cü maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan orqan barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.1.2. həmin Məcəllənin 528-3.6-cı və 528-3.7-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslər barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2026-cı il 21 aprel tarixli 388-VIIQD nömrəli Qanundan irəli gələn digər məsələləri həll etsin.

**3**. "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259 (Cild I); 2024, № 2, maddələr 151, 157, № 7, maddələr 806, 812, 814, 815, № 8, maddələr 937, 948, № 12 (I kitab), maddə 1294, (II kitab), maddələr 1359, 1378, 1384; 2025, № 2, maddə 127, № 3, maddə 231, № 4 (I kitab), maddələr 325, 338, № 5, maddə 463, № 6, maddələr 541, 561, № 7, maddə 649, № 8, maddələr 746, 754, № 9, maddə 820, № 11, maddə 1018; 2026, № 1, maddələr 36, 41, № 2, maddələr 117, 123; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 12 mart tarixli 617 nömrəli, 13 mart tarixli 619 nömrəli, 16 mart tarixli 622 nömrəli və 14 aprel tarixli 642 nömrəli fərmanları) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 4-cü hissə üzrə:

3.1.1. 4.1-ci bəndə "97.5" rəqəmlərindən əvvəl "97.4-cü maddəsinin birinci cümləsində," sözləri əlavə olunsun və həmin bənddə "127-4.3" rəqəmləri "127-4.3-cü maddələrində, 150.4-cü maddəsinin üçüncü cümləsində" sözləri ilə əvəz edilsin;

3.1.2. 4.9-cu bənddən "97.4," rəqəmləri çıxarılsın;

3.1.3. 4.14-1-ci bəndə ikinci halda "maddələrində" sözündən sonra "və 150.4-cü maddəsinin üçüncü cümləsində" sözləri əlavə edilsin;

3.1.4. 4.53-cü bəndə "cümlələrində" sözündən sonra ", 97.4-cü maddəsinin birinci cümləsində" sözləri əlavə edilsin;

3.2. 5-ci hissə üzrə:

3.2.1. 5.1-ci bəndə "157," rəqəmlərindən sonra "189-4, 189-5," rəqəmləri əlavə olunsun və həmin bənddə "524" rəqəmləri "523-1, 524, 525-1" rəqəmləri ilə əvəz edilsin;

3.2.2. 5.42-ci bənddə "410" rəqəmləri "410.1" rəqəmləri ilə əvəz edilsin;

3.2.3. 5.44-cü bəndə "445," rəqəmlərindən sonra "445-1 (bu Fərmanın 5.50-3-cü bəndi nəzərə alınmaqla)," sözləri əlavə edilsin;

3.2.4. aşağıdakı məzmunda 5.50-3-cü bənd əlavə edilsin:

"5.50-3. həmin Məcəllənin 445-1.1-ci, 445-1.2-ci, 445-1.4-cü və 445-1.6-cı maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə, həmin inzibati xətalar dövlət maliyyə nəzarəti tədbirləri nəticəsində aşkar edildikdə, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi baxır;";

3.2.5. 5.64-cü bənd aşağıdakı redaksiyada verilsin:

"5.64. həmin Məcəllənin 391-1-ci, 432-1.1-ci, 432-1.2-ci, 528-3.1-ci, 528-3.3 – 528-3.5-ci, 562.3-cü və 579 – 582-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi baxır;";

3.2.6. 5.68-ci bənd ləğv edilsin.

**4**. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 200 (Cild I); 2024, № 2, maddə 157, № 6 (I kitab), maddə 649, № 7, maddələr 806, 812, 814, № 8, maddə 948, № 12 (I kitab), maddələr 1294, 1295, (II kitab), maddə 1378; 2025, № 2, maddə 127, № 4 (I kitab), maddə 325, № 5, maddə 463, № 8, maddə 746, № 9, maddə 820; 2026, № 1, maddə 41, № 2, maddə 117; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 13 mart tarixli 619 nömrəli və 16 mart tarixli 622 nömrəli fərmanları) ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

4.1. 2.1-ci və 2.5-ci bəndlərə "157," rəqəmlərindən sonra "189-4, 189-5," rəqəmləri əlavə olunsun və həmin bəndlərdə "524" rəqəmləri "523-1, 524, 525-1" rəqəmləri ilə əvəz edilsin;

4.2. 3.4-cü bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda 3.5-ci bənd əlavə edilsin:

"3.5. Məcəllənin 528-3.1-ci və 528-3.3 – 528-3.5-ci maddələrində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlərə – ədliyyə naziri, onun müavinləri, Nazirliyin Aparatının İcra xidmətinin rəisi, onun müavinləri, Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri, onun müavini, Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Aparatının icra üzrə müvafiq səlahiyyətli struktur qurumunun rəhbəri.".

**5**. Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 5, maddə 765 (Cild I); 2024, № 4, maddə 381, № 6 (I kitab), maddə 649, № 7, maddələr 812, 814, 815, № 12 (I kitab), maddə 1294, (II kitab), maddə 1367; 2025, № 2, maddə 127, № 3, maddə 232, № 4 (I kitab), maddə 325, № 5, maddə 463, № 6, maddələr 541, 561, № 8, maddələr 756, 763, № 9, maddə 820, № 10, maddə 898, № 11, maddələr 1018, 1036; 2026, № 1, maddə 36, № 2, maddə 123; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 16 mart tarixli 622 nömrəli və 15 aprel tarixli 643 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin və hərbi məhkəmələrin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 1-ci hissədən "181.0.2," rəqəmləri çıxarılsın və həmin hissəyə "525," rəqəmlərindən sonra "528-3.2," rəqəmləri əlavə edilsin;

5.2. aşağıdakı məzmunda 58-4-cü hissə əlavə edilsin:

"58-4. Məcəllənin 528-3.2-ci maddəsində nəzərdə tutulmuş inzibati xətalar haqqında işlər üzrə protokol – ədliyyə naziri, onun müavinləri, Nazirliyin Aparatının İcra xidmətinin rəisi, onun müavinləri, Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri, onun müavini, Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyi Aparatının icra üzrə müvafiq səlahiyyətli struktur qurumunun rəhbəri, yerli icra qurumlarının rəisləri, onların müavinləri.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 6 may 2026-cı il**

# "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Media haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 21 aprel tarixli 387-VIIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Media haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 21 aprel tarixli 387-VIIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1**. "Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 610 (Cild I); 2024, № 1, maddələr 24, 33, № 4, maddə 387, № 8, maddə 945; 2025, № 4 (I kitab), maddə 340, № 6, maddə 561, № 7, maddə 633, № 11, maddələr 1036, 1038; 2026, № 1, maddələr 24, 41; Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 19 mart tarixli 633 nömrəli Fərmanı) 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. ikinci abzasda "242-244" rəqəmləri "242, 243, 244" rəqəmləri ilə əvəz edilsin;

1.2. on üçüncü abzasda "Məcəllənin" sözündən sonra "148-2," rəqəmləri, "216" rəqəmlərindən sonra ", 242-1" rəqəmləri əlavə edilsin.

**2**. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində, "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" və "Media haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 21 aprel tarixli 387-VIIQD nömrəli Qanundan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 6 may 2026-cı il**

# Azərbaycan və Ukrayna prezidentlərinin telefon danışığı



**Mayın 6-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ukrayna Prezidenti Volodimir Zelenski arasında telefon danışığı olub.**

Bu barədə Azərbaycan Prezidenti X sosial media hesabında paylaşım edib.

Paylaşımda deyilir: "Bu gün Ukrayna Prezidenti Volodimir Zelenski mənə zəng edib. Telefon söhbəti zamanı ölkələrimiz arasında münasibətlərin inkişafında müsbət dinamikadan məmnunluq ifadə olunub. Biz, həmçinin Qəbələdə keçirilən görüşdə müzakirə edilən məsələlərin ikitərəfli gündəlik çərçivəsində reallaşdırılması ilə bağlı fikir mübadiləsi apardıq".

# Cenevrədə MAMA "Ana təbiət" beynəlxalq incəsənət sərgisi



**Mayın 6-da BMT-nin Cenevrə bölməsində MAMA "Ana təbiət" beynəlxalq incəsənət layihəsi təqdim olunub.**

Sərginin açılışında Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov, BMT-nin Cenevrə Ofisinin baş direktoru Tatyana Valovaya, BMT-nin Cenevrədəki bölməsi və digər beynəlxalq təşkilatların rəsmiləri, yerli ictimaiyyətin nümayəndələri və sənətsevərlər iştirak ediblər.



Heydər Əliyev Fondu, IDEA İctimai Birliyi və Azərbaycanın BMT-nin Cenevrədəki bölməsi və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəliyinin birgə təşkil etdiyi sərginin açılış mərasimi Millətlər Sarayı kompleksinin ən simvolik məkanlarından biri olan və qlobal dialoq üçün yüksək rəmzi əhəmiyyət daşıyan möhtəşəm qəbul zalında keçirilib.

Azərbaycanın BMT-nin Cenevrədəki bölməsi və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəsi səfir Qalib İsrafilov bildirib ki, MAMA "Ana təbiət" layihəsi incəsənət və insanlıq arasındakı dərin əlaqələri araşdıran beynəlxalq bədii təşəbbüsdür. Bu layihə müxtəlif mədəni mühitlərdən olan sənətkarları bir araya gətirir və müasir dövrdə mövcud olan ekoloji çağırışların aktuallığını əks etdirir.

Sərginin BMT-nin Cenevrə bölməsində təşkilinə görə ideya müəllifi Leyla Əliyevaya təşəkkür bildirilib. Sərginin tamaşaçılara bədii zövq təlqin etməklə yanaşı, eyni zamanda Ana Təbiətə daha diqqət və qayğı ilə yanaşmağı təbliğ edəcəyindən əminlik ifadə edilib.

BMT-nin Cenevrədəki Ofisinin baş direktoru Tatyana Valovaya Heydər Əliyev Fondu, Heydər Əliyev Mərkəzi, IDEA İctimai Birliyi və Azərbaycanın BMT-dəki daimi nümayəndəliyinə sərginin təşkilinə verilən töhfəyə görə minnətdarlığını ifadə edib. O bildirib ki, bu sərgi xüsusi və fərqli xarakter daşıyır, çünki o, insanın, bəşəriyyətin və təbiətin vəhdətindən bəhs edir.

T.Valovaya, vurğulayıb ki, sərginin məğzini təşkil edən mövzular eyni zamanda BMT-nin prioritetləri sırasındadır. Baş katib Antonio Quterreş 2026-cı il üçün prioritetləri təqdim edərkən əsas istiqamətlərdən biri məhz ətraf mühit və təbiətin qorunması olduğunu bildirib. Qeyd edilib ki, davamlı inkişafdan danışarkən, BMT-nin gələcək illər üçün hədəflərini müzakirə edərkən təbiətlə harmoniyada yaşamaq xüsusi əhəmiyyət kəsb edir. Bu mövzu ilə bağlı ictimai maarifləndirmənin artırılması vacibdir və bunu həyata keçirmək üçün incəsənətdən daha yaxşı vasitə təsəvvür etmək çətindir.

Bu sərgi ilə ilk dəfə 2024-cü ildə Bakıda tanış olduğunu qeyd edən baş direktor bu gün onun Cenevrədə təqdim edilməsindən məmnunluq ifadə edib.

Layihə əvvəlcə 2024-cü ildə Bakıda, Heydər Əliyev Mərkəzində COP29 iqlim konfransı çərçivəsində təqdim olunub. Daha sonra Manama, Roma, London, Tbilisi, Berlin və Tirana kimi şəhərlərdə nümayiş etdirilərək beynəlxalq səyyar platformaya çevrilib. Bu müddət ərzində 28 ölkədən 50-dən çox rəssam planetimizin gələcəyi ilə bağlı qlobal müzakirəyə öz töhfəsini verib.

Millətlər Sarayında keçirilən təqdimat xüsusi simvolik əhəmiyyət daşıyır. Diplomatiya və beynəlxalq əməkdaşlığın mərkəzində baş tutan sərgi ekoloji məsuliyyətin yalnız siyasi deyil, həm də mədəni və ictimai düşüncə müstəvisində dərk edilməsinin vacibliyini önə çıxarır.

Millətlər Sarayının qəbul zalında nümayiş olunan əsərlər təbiəti canlı və daim inkişaf edən bir varlıq kimi təqdim edir. Bu yanaşma insanın planetar ekosistemdəki roluna yenidən baxmağa və müasir ekoloji problemlərə daha həssas münasibət formalaşdırmağa çağırır.

MAMA "Ana təbiət" sərgisi Cenevrədə incəsənət, diplomatiya və ekologiya şüurun qovuşduğu mühüm beynəlxalq platforma kimi çıxış edir.

***XQ***

# Ortaq maraqlar Bakı ilə Brüsseli daha da yaxınlaşdırır

## *Siyasi dialoq iqtisadi layihələrə meydan açır*

**Azərbaycanla Avropa İttifaqı (Aİ) arasında münasibətlər son illərdə dinamik inkişaf mərhələsinə qədəm qoyub. Bu əlaqələr qarşılıqlı maraqlar və ortaq dəyərlər əsasında formalaşaraq strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Siyasi dialoqun intensivləşməsi qarşılıqlı etimadın artmasına müsbət təsir göstərir. Eyni zamanda, Azərbaycan və Aİ arasında həyata keçirilən birgə layihələr əməkdaşlığın praktiki nəticələrini nümayiş etdirir. Humanitar və mədəni sahələrdə əlaqələrin inkişafı ölkəmizlə "qoca qitə" arasında yaxınlaşmanı gücləndirir. Bütün bu amillər Azərbaycan–Aİ münasibətlərinin gələcəkdə daha da dərinləşəcəyini göstərir.**



Bu baxımdan Aİ-nin hazırkı siyasi isteblişmenti ilə dövlətimizin başçısının son bir il ərzində keçirilmiş görüşlərinin xronologiyasına nəzər salmaq yerinə düşər. Çünki görüşlərin intensivliyi əlaqələrin də yüksək səviyyədə olduğuna dəlalət edir. Beləliklə, Prezident İlham Əliyev 2025-ci il aprelin 25-də Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallası qəbul edib. 20 gün sonra – mayın 16-da Azərbaycan Prezidentinin Tiranada Aİ Şurasının Prezidenti Antonio Koşta və Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen ilə görüşü olub. Dövlətimizin başçısı 2025-ci il sentyabrın 18-də Aİ-nin Genişlənmə üzrə komissarı Marta Kosu qəbul edib. Oktyabrın 2-də Prezident İlham Əliyevin Kopenhagendə A.Koşta və Ursula Fon der Lyayen ilə görüşü baş tutub.

2026-cı il fevralın 14-də Prezident İlham Əliyev Münxendə Kaya Kallasla görüşüb. Martın 11-də Aİ Şurasının Prezidenti A.Koşta Bakıya gəlib. Paytaxtımızda keçirilən yüksək səviyyəli təkbətək görüşdən sonra A.Koşta və Prezident İlham Əliyev mətbuata birgə bəyanatlarla çıxış ediblər. Birgə bəyanatın ilk cümləsində prezidentlərin Azərbaycan–Aİ tərəfdaşlığının strateji əhəmiyyətini vurğulayaraq, təhlükəsizlik, enerji və nəqliyyat sahələri də daxil olmaqla, son dövrdə keçirilmiş yüksək səviyyəli görüşlərin müsbət dinamikasına əsaslanaraq siyasi dialoqun və praktiki əməkdaşlığın daha da dərinləşdirilməsinə sadiqliklərini ifadə etdikləri qeyd olunub. Bildirilib ki, bu əməkdaşlıq hər iki tərəfin ortaq maraqlarını əks etdirir, bütün Qara dəniz, Cənubi Qafqaz və Mərkəzi Asiya regionlarında sülhün, sabitliyin, daşımaların və davamlı inkişafın təşviqinə töhfə verir. Eyni zamanda, ötən müddət ərzində tərəflər arasında baş tutan telefon danışıqları, Prezident İlham Əliyevin 2025-ci il oktyabrın 16-da Aİ-nin ölkəmizdəki nümayəndəliyinin yeni təyin olunmuş rəhbəri Mariyana Kuyundziçin etimadnaməsini qəbul etməsi də nəzərdən qaçmamalıdır.

Bütün bu görüşlər, qarşılıqlı səfərlər göstərir ki, Azərbaycanla Aİ arasında münasibətlər ardıcıl və məqsədyönlü şəkildə inkişaf etdirilir. Bu dinamika tərəflərin strateji tərəfdaşlığa verdiyi önəmin aydın göstəricisidir və əməkdaşlığın yeni istiqamətlər üzrə genişlənməsi üçün əlverişli zəmin yaradır. Eyni zamanda, yüksək səviyyəli təmasların intensivliyi qarşılıqlı etimadın möhkəmlənməsinə və ortaq maraqların daha effektiv şəkildə reallaşdırılmasına xidmət edir. Beləliklə, Azərbaycan–Aİ əlaqələrinin yaxın perspektivdə daha da dərinləşəcəyi və çoxtərəfli əməkdaşlıq platformasında yeni uğurların əldə olunacağı gözlənilir.

* * *

Bu müstəvidən yanaşdıqda Prezident İlham Əliyevin 2026-cı il mayın 5-də Kaya Kallasın başçılıq etdiyi nümayəndə heyətini qəbul etməsi xüsusi önəm daşıyır. Söhbət zamanı digər məsələlərlə yanaşı, Azərbaycan–Ermənistan sülh prosesinə toxunulub, ölkəmizin sülh gündəliyinin gücləndirilməsi istiqamətində atdığı addımlar vurğulanıb. Azərbaycanla Ermənistan arasında artıq iqtisadi-ticari münasibətlərin yaradıldığı qeyd edilərək, bu xüsusda ölkəmizin Ermənistana gedən tranzit yüklərlə bağlı məhdudiyyəti birtərəfli qaydada aradan qaldırdığı bildirilib. Mayın 4-də İrəvanda keçirilmiş "Avropa Siyasi Birliyi"nin VIII zirvə toplantısında Azərbaycan Prezidentinin videobağlantı formatında iştirakı tarixi hadisə kimi dəyərləndirilib.

Sözsüz ki, bu görüş regionda formalaşmaqda olan yeni reallıqlar fonunda xüsusi məna kəsb edir və tərəflər arasında siyasi dialoqun dərinliyini bir daha göstərir. Avropa ilə münasibətlərin yalnız enerji və iqtisadi sahələrlə məhdudlaşmadığı, təhlükəsizlik və sabitlik məsələlərinə də sirayət etdiyi açıq görünür. Bu mənada, sülh prosesi ətrafında aparılan fikir mübadiləsi təsadüfi deyil, əksinə, tərəflərin ortaq maraqlarının kəsişdiyi əsas nöqtələrdən birini təşkil edir.

Rəsmi Bakının son illərdə irəli sürdüyü təşəbbüslər göstərir ki, ölkəmiz regionda uzunmüddətli sabitliyin təmin olunmasında maraqlıdır və bunu yalnız bəyanat səviyyəsində deyil, praktik addımlarla sübut etməyə çalışır. Ermənistanla sərhədlərin delimitasiya və demarkasiya olunması, kommunikasiyaların açılması və qarşılıqlı etimadın bərpası istiqamətində atılan addımlar bu siyasətin əsas tərkib hissəsidir. Bu yanaşma regionun gələcəyi ilə bağlı daha praqmatik və nəticəyönümlü baxışın formalaşdığını göstərir.

Avropa tərəfinin bu prosesə artan diqqəti isə onu deməyə əsas verir ki, Cənubi Qafqaz artıq təkcə coğrafi məkan deyil, həm də geosiyasi əhəmiyyət kəsb edən platformaya çevrilib. Qarşılıqlı təmasların intensivləşməsi tərəflər arasında anlaşmanın daha da möhkəmlənməsinə xidmət edir. Bu isə öz növbəsində həm regional, həm də daha geniş miqyasda sabitlik üçün yeni imkanlar yaradır.

Görüş zamanı Bakı ilə İrəvan arasında iqtisadi-ticari münasibətlərin yaradılmasına, bu çərçivədə Azərbaycanın Ermənistana gedən tranzit yüklərlə bağlı məhdudiyyəti birtərəfli qaydada aradan qaldırdığını bildirməsinə dair verilən mesaj regionda yeni mərhələnin başlanğıcına işarə kimi qiymətləndirilə bilər. Xüsusilə tranzit yüklərlə bağlı məhdudiyyətlərin birtərəfli qaydada aradan qaldırılması praktik və siyasi baxımdan əhəmiyyətli addımdır. Bu qərar göstərir ki, rəsmi Bakı münasibətlərin normallaşmasına yalnız siyasi bəyanatlarla deyil, konkret iqtisadi mexanizmlər vasitəsilə də töhfə verməyə çalışır.

Belə addımlar qarşı tərəf üçün də müəyyən siqnal rolunu oynayır və əməkdaşlıq üçün real imkanların mövcud olduğunu nümayiş etdirir. İqtisadi əlaqələrin qurulması uzunmüddətli sülhün ən möhkəm dayaqlarından biri hesab olunur, çünki qarşılıqlı maraqların yaranması gərginliyin azalmasına xidmət edir. Tranzit imkanlarının genişlənməsi isə regionun ümumi logistika xəritəsində yeni marşrutların formalaşmasına gətirib çıxara bilər.

Digər tərəfdən, bu qərar Azərbaycanın daha geniş regional inteqrasiya baxışının tərkib hissəsi kimi də dəyərləndirilə bilər. Açıq və praqmatik yanaşma iqtisadi aktivliyin artmasına, ticarət dövriyyəsinin genişlənməsinə və nəqliyyat əlaqələrinin canlanmasına zəmin yaradır. Nəticə etibarilə, bu kimi addımlar yalnız iki ölkə arasında deyil, bütövlükdə regionda sabitlik və əməkdaşlıq mühitinin güclənməsinə xidmət edir.

Mayın 4-də İrəvanda keçirilən "ASB" zirvə görüşündə Azərbaycan Prezidentinin videobağlantı vasitəsilə iştirakı isə regionun siyasi tarixində yeni səhifə kimi qiymətləndirilə bilər. Bu addım uzun illər qarşıdurma ilə yadda qalan münasibətlər fonunda dialoqa açıq yanaşmanın göstəricisidir. Fiziki iştirakın olmamasına baxmayaraq, belə formatın seçilməsi həm siyasi həssaslıqları nəzərə almağa, həm də prosesdən kənarda qalmamağa xidmət edir. Bu iştirak, eyni zamanda, Azərbaycanın regional gündəlikdə aktiv rol oynadığını və çoxtərəfli platformalarda mövqeyini qoruduğunu nümayiş etdirir. Verilən mesaj ondan ibarətdir ki, sülhə aparan yol təkcə ikitərəfli danışıqlardan deyil, daha geniş siyasi mühitdə aparılan müzakirələrdən də keçir. Bu baxımdan hadisə gələcək təmaslar üçün yeni imkanlar açan əlamətdar addım kimi yadda qalır.

***Səxavət HƏMİD***
***XQ***

# Pakistana növbəti humanitar yardım



**2025-ci ildə Pakistanın Pəncab əyalətində baş vermiş güclü daşqınların fəsadlarının aradan qaldırılması məqsədilə Azərbaycan Beynəlxalq İnkişafa Yardım Agentliyinin (AIDA) dəstəyi ilə humanitar yardım təşəbbüsü həyata keçirilib.**

Azərbaycanın Pakistandakı səfirliyindən bildiriblər ki, səfirlik vasitəsilə həyata keçirilən layihə çərçivəsində daşqınlardan zərər çəkmiş 400 ailəyə əsas ərzaq məhsulları və gündəlik tələbat mallarından ibarət yardım paketləri təqdim olunub.

Bu aksiya Azərbaycan ilə Pakistan arasında dostluq və qardaşlıq münasibətlərinin növbəti təzahürü olmaqla, qarşılıqlı dəstəyin və həmrəyliyin əhəmiyyətini bir daha nümayiş etdirib.

***XQ***




# Makronun ucuz populizmi və Ermənistan üçün ən doğru yol

## *Fransa Prezidentinin dedikləri, demək istəmədikləri və deyə bilmədikləri*

**Fransa Prezidenti Emmanuel Makronun Ermənistandakı nitqi hay elektoratına ünvanlanmış və onu qarşıdan gələn parlament seçkilərində Baş nazir Nikol Paşinyan iqtidarına etimad göstərməyə çağıran təntənəli manifestdir. Bu manifestin "artıq" və əskik tərəflərindən söz açacağıq.**



Aydındır ki, Makronun çağırışında sadə erməniləri "Rusiya imperializminin cəngindən" xilas yolunu müəyyənləşdirməyə səsləyən motiv var. Maraqlı məqam mövcud xüsusda bəzi reallıqların diqqətə çatdırılmasıdır. Bəzi məqamlar da var ki, Fransa prezidentinin həmin məqamların üzərindən keçməsi qeyri-müəyyənlik yaradır və bu, istər-istəməz, onun dediklərinin səmimiyyət yükünü azaldır.

Məsələn, Makron 2020-ci ilin 44 günlük müharibəsindən söz açarkən bildirir ki, Rusiya savaşda erməniləri tək qoydu. Sən demə, Fransa əlindən gələni edibmiş, amma yekunda bir nəticə hasil olmayıbmış. Doğrudur, Paris Ermənistanın işğal olunmuş torpaqları əldən verməməsi, ümumən, Qarabağı itirməməsi naminə hər yola, hətta, hər cür həyasızlığa əl atdı. Yenə Avropa Parlamentinin timsalında "köhnə qitə"nin bir sıra təsisatlarının Qarabağ ermənilərinin geri qayıdışı hüququndan dəm vurduqlarını görürük və bütün bunlar avantüra keçmişinin xiffətindən qaynaqlanır.

Yəni Fransanın imkanı olsa, Qarabağ münaqişəsinə rəvac verər. Amma baxın ki, Makron hazırda İrəvanda sülhdən və barış içərisində yaşamaqdan danışır. Halbuki bu məqama o, daha əvvəldən gəlsəydi, səmimi görünərdi. İndiki mənzərə isə Fransa dövlət başçısının miskinlik və acizlik səhnəsindən başqa bir şey deyil.

Əslində, məsələyə mövcud kontekstdən yanaşsaq, erməni elektoratı üçün Makronun sülh manifesti qıcıq doğurmalıdır. Axı, səmimiyyət yükü olmayan hər şeydə qıcıq təmayülü var. Ümid edirik ki, Fransa Prezidentinin dedikləri sadə ermənilərdə əks-effekt yaratmayacaq. Həm də ona görə ümid edirik ki, hazırda Bakı-İrəvan sülhü də böyük ölçüdə, hansısa kənar qüvvənin deyil, Ermənistan iqtidarının öz iradəsinin məhsulu, nəhayət, reallıqları görmək qabliyyətinin nəticəsidir. Makronların ümidinə qalsaydı, reallıqlar hələ də məchulluq girdabında boğulurdu.

Deməli, Makronun Ermənistanda bildirdikləri onsuz da gedilən sülh yoluna, bir növ, ortaqlıqdır. Onun dilə gətirdiyi fikirlər ölkəsini Ermənistan vasitəsilə Cənubi Qafqaz siyasi coğrafiyasına pərçimləməkdir. Baxın, iş o yerə çatıb ki, Fransa kimi böyük ölkənin rəhbəri bu məqsədlə, loru dildə desək, Ermənistana yaltaqlanır. Hər halda, Paşinyanın seçki qalibinə çevrilməsindən Makronun da gələcəyinin asılılığını bildirməliyik. Amma olsun, buna bir sözümüz yoxdur. Çünki bəzən siyasət rolları dəyişdirir.

Hazırda İrəvanın, böyük anlamda, Parisə heç ehtiyacı yoxdur. Ermənistanın ehtiyac duyduğu öz qonşularıdır: Azərbaycan, Türkiyə, Gürcüstan, İran və müəyyən mənada Rusiya. O ölkələr ki, tarixən regionla bağlıdırlar. Qalır erməni ictimai rəyinin bu bağlılığı səmimi-qəlbdən qəbul edib adekvat davranması, konkret desək, ermənilərin yaxın qonşuları ilə sülh və əmin-amanlıq şəraitində yaşamağı öyrənmələri. O şərait ki, həm də böyük və davamlı rifah vəd edir.

Əlbəttə, Fransa Prezidentinin fikirlərində ancaq qeyri-səmimi çalarlar axtarmaq məramından uzağıq. Bəlkə, o, ermənilərə fransızca olsada, başa düşdükləri qaydada nələrisə anlatdı. Məsələn, Makron, faktiki olaraq, Azərbaycanın güclü dövlət olduğunu etiraf etdi. Ancaq Azərbaycan həm də o səbəbdən güclüdür ki, onun rəhbərliyinin illərdir səsləndirdiyi fikirlər bu gün gerçəyə çevrilməkdədir.

Makron bildirir ki, Ermənistan seçdiyi sülh yolunun doğru olduğunu və bu yolla çiçəklənən ölkə quruculuğunun mümkünlüyünü sübuta yetirdi. Bu kimi pafos dolu deyimlərdən, eləcə də Fransa Prezidentinin digər oxşar fikirlərindən gəlinən növbəti qənaət budur ki, Paris Ermənistanı Qərbin Cənubi Qafqazdakı anti-Rusiya qalası kimi təsəvvürə gətirir. Makron məhz bunun təbliğatını aparır. Halbuki belə yanaşma zərərlidir. Axı Ermənistanın Rusiya ilə tarixi bağlılığı da var və Kremldə qıcıq yaratmaq cəhdi yolverilməzdir. Elə təəssürat formalaşmamalıdır ki, əvvəllər Rusiyanın forpostu olan Ermənistan hazırda Qərbin boyunduruğu altındadır. Ermənistan və erməni xalqı keçmişin təzahürlərindən xilas olmağı düşünürsə, məsələnin bu cür qoyuluşu ilə də razılaşmamalıdır.

Fikrimiz ifadə baxımından nə qədər qəribə səslənsə də, İrəvanın Bakının illər əvvəl start verdiyi yolla getməli olduğunu deməliyik. Bu gün Ermənistana təriflər yağdıran Makron bilməlidir ki, Cənubi Qafqaz regionunda müstəqil, bərabərtərəfli, keçmişin müstəmləkəçilik meyillərindən uzaq siyasətin əsasını qoyan Azərbaycandır. Məhz Azərbaycan Heydər Əliyevin müdrikliyinin sayəsində ilk dəfə bu coğrafiyanı dünya üçün açıq qapıya çevirdi. Halbuki tarixin heç bir dövründə belə bir durum yaşanmamışdı. Ulu öndərin diplomatik məharətinin nəticəsi idi ki, regiona Qərb kapitalı ayaq basdı.

Bəli, Qərb dünyası Cənubi Qafqazla heç vaxt indiki qədər sıx təmas və əməkdaşlıq şəraitində olmayıb. Bu durum isə Makronun dediyi kimi, heç də 2018-ci ildə Ermənistanda Baş nazir Nikol Paşinyanın hakimiyyətə gəlməsini doğuran inqilabın yox, Heydər Əliyev şəxsiyyəti tərəfindən müəyyənləşdirilmiş kursun və həmin kursun Prezident İlham Əliyev tərəfindən böyük məharətlə davam etdirilməsinin və zənginləşdirilməsinin nəticəsidir.

Bu gün Ermənistan, əslində, illər ərzində hansı böyük düzəndə təmsilçilikdən məhrum vəziyyətə düşdüyünün və nə üçün düşdüyünün, işğalçılıq siyasətinin, kinin, nifrətin və qəzəbin ölkəni inkişafdan geridə qoyduğunun fərqinə varmalıdır. Yəni, sadə ermənilər Makronun ağzını köpükləndirərək dilə gətirdiklərini deyil, vurğuladığımız məqamı əsas götürməlidirlər. Əsas götürülməli, sülh yolunda irəliləməli, barış mühitinin qərarlaşmasına çalışan qüvvəni – hazırkı Paşinyan iqtidarını dəstəkləməli, onu seçki qalibinə çevirməlidirlər. Erməni xalqı Fransa Prezidentinin alayarımçıq diqqətə çatdırdığı reallıqları deyil, məhz bu düşüncəni rəhbər tutub revanşist və şovinistlərin yenidən hakimiyyət kürsüsünə qalxmasına yol verməməli, onlara "yox" deməlidir.

***Ə.RÜSTƏMOV***
***XQ***

# “İrəvan dialoqu”nun hədəfi sülhdürsə...

**Son bir həftədə Ermənistan paytaxtının regional və qlobal əhəmiyyətli məclislərə ev sahibliyi etməsi təqdirəlayiq hal kimi qiymətləndirilə bilər. Bu tədbirlərin sülhə və əməkdaşlığa töhfə verəcəyinə ümid edilməsi baxımından rəsmi Bakının da məmnunluqla müşayiət olunan reaksiyası xüsusi qeyd olunmalıdır.**



“Avropa Siyasi Birliyi”nin VIII Zirvə görüşünün, Aİ–Ermənistan sammitinin ardınca “İrəvan dialoqu – 2026” beynəlxalq konfransın keçirilməsini iki ölkə arasında sülhə doğru atılan addım kimi qəbul etmək istərdik. Bu istəyimizə kölgə sala biləcək tək məqam sadaladığımız tədbirlərin Nikol Paşinyan hakimiyyətinin seçkiqabağı təbliğat kampaniyası kimi daxili bazara hesablanmış taktiki gediş ola biləcəyi ilə bağlı əndişəmizdir. Əslində, beynəlxalq miqyaslı ilk iki tədbirdə avropalı təşkilatçıların və yüksək çinli rəsmilərin dilindən Ermənistanın indiki iqtidarına 7 iyun parlament seçkilərini şəffaf, demokratik, kənar müdaxilə və təhdidlərə yol vermədən keçirilməsində dəstək nidalı çıxışları bu əndişəmizin əsassız olmadığına dəlalət edir. Yəni Qərbin aparıcı siyasi institutlarının yetkililərinin İrəvandakı çıxışlarında sülhdən daha çox seçkilərdən və proksi təhdidlərdən söz açmaları niyyətin hara yönəldiyi, əsas məqsədin nədən ibarət olduğu barədə müəyyən qənaət formalaşdırır.

Dünən Ermənistan paytaxtındakı “Dvin” kompleksində öz işinə başlayan “İrəvan dialoqu - 2026” ikinci beynəlxalq konfransın gündəliyi də bölgədə və dünyada sülhə, təhlükəsizliyə və əməkdaşlığa çağırış motivləri üzərində tərtib olunmuşdu. Konfransın gündəliyinə əsasən, “İrəvan dialoqu”nda azərbaycanlı politoloqlar Fərhad Məmmədov, Rusif Hüseynov və Zaur Şiriyev qonaq qismində iştirak ediblər. Oxuculara xatırladaq ki, onlar iki ölkənin hökumətlərinin təşəbbüsü ilə həyata keçirilən “Sülh körpüsü” təşəbbüsünün üzvləridir. Tədbir çərçivəsində regional təhlükəsizlik, əməkdaşlıq perspektivləri və sülh quruculuğu prosesləri ətrafında müzakirələr aparılıb.

“Azərbaycan və Ermənistan arasındakı sülh prosesi Cənubi Qafqaz üçün yeni imkanlar açır”. Ermənistan mediası **“Sülh körpüsü” təşəbbüsünün koordinatoru, Cənubi Qafqaz Araşdırmalar Mərkəzinin direktoru Fərhad Məmmədovun** konfransdakı çıxışında dilə gətirdiyi bu sözləri iqtibas kimi verib. F.Məmmədov, həmçinin qeyd edib ki, 2025-ci ilin avqustunda Vaşinqtonda iki ölkə arasında sülh gündəliyi və sülhə doğru addımların ardıcıllığı razılaşdırılıb: “Bu, Azərbaycan və Ermənistan arasında sülh sazişinin imzalanması, Ermənistan və Türkiyə arasında münasibətlərin normallaşması və kommunikasiyaların açılması üçün şərait yaradır. Beləliklə, Cənubi Qafqaz üçün yeni imkanlar açılır və eyni zamanda, region ölkələri özləri dəyişikliklərin əsas aparıcı qüvvələri kimi çıxış edirlər”. Azərbaycanlı politoloqun sözlərinə görə, Cənubi Qafqaz bir çox beynəlxalq və regional layihələrə cəlb edilib və Yaxın Şərqin, xüsusən “Bir kəmər, bir yol” təşəbbüsünün quru marşrutunun bir hissəsi kimi nəzərdən keçirilir”.



F.Məmmədov çıxışında onu da konfrans iştirakçılarının nəzərinə çatdırıb ki, Azərbaycan və Ermənistan üçüncü tərəfin müdaxiləsi olmadan ikitərəfli formatda danışıqlar aparır. Onun sözlərinə görə, bu, mürəkkəb məsələləri həll etməyə imkan yaradan, digər aktorların kənardan manipulyasiyasına yol verməyən irəliləyişdir: “Yalnız Bakı ilə İrəvanın razılığı ilə üçüncü ölkələr danışıqlar prosesinin müxtəlif istiqamətlərində iştirak edə bilər. Bu, yeni formuldur və mürəkkəb məsələlərin həllinə imkan verir, eyni zamanda, xarici oyunçuların manipulyasiya imkanlarını minimuma endirir”.

* * *

Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın konfransdakı çıxışında dünyada dəyişən geosiyasət və blokların vacibliyi, bir çox ölkələrin özünümüdafiə imkanlarına daha çox diqqət yetirmələri barədə söylədikləri təbii qəbul olunmalıdır. Onun “İrəvan dialoqu”nun “Avropa güc və dominantlığın yeni təzahürləri arasında” adlı panel müzakirəsində dediyinə diqqət yetirək: “Mən deməzdim ki, bloklar işləmir. Bloklar hələ də vacibdir, amma diqqəti öz imkanlarımıza yönəltmək də vacibdir. Hazırda dövlətlərin üzləşdiyi problemlərin həllində daxili imkanlar və tərəfdaşlıq çox vacibdir”. “Armenpress”in yaydığı məlumatda o da qeyd olunur ki, A.Qriqoryan çıxışında Ermənistanın son illər mümkün qədər çox alternativə malik olmaq üçün diversifikasiyaya böyük önəm verməsindən, geosiyasi inhisarın problem yaratmasından danışıb. “Alternativlər həmişə olmalıdır. Bu, müasir dünyanın əsas mesajıdır”, – deyən Təhlükəsizlik Şurasının katibi bu kontekstdə qlobal ÜDM-in 110 trilyon dollarının bir boğazdan necə asılı ola biləcəyini maraqlı hesab edib: “Bu, bütün enerji təhlükəsizliyi konsepsiyasını sual altına qoya, onu yenidən nəzərdən keçirməyə və alternativ tapmağa məcbur edə bilər”.

Aydın məsələdir ki, A.Qriqoryan bu sözləri deyərkən Yaxın Şərqdə münaqişə başlayandan sonra gəmiçiliyin ciddi şəkildə məhdudlaşdırıldığı və enerji təchizatı zəncirini pozan Hörmüz boğazındakı durumu nəzərdə tuturdu. Onun fikrincə, indiki geosiyasətdə, beynəlxalq münasibətlərdə, yaxud dövlətlərin üzləşdiyi problemlərdə nəyisə proqnozlaşdırmaq çətindir, fəqət Ermənistan üçün ən vacibi dövlətin problemlərini həll etmək üçün kifayət qədər imkanın olmasıdır.

* * *

Xarici işlər naziri Ararat Mirzoyan əvvəlki praqmatik tonlu çıxışında Ermənistanla Azərbaycan arasında sülh sazişi hələ imzalanmasa da, artıq sülhün bərqərar olduğunu bildirib. Erməni mediasının məlumatına görə, A.Mirzoyan “İrəvan dialoqu” beynəlxalq konfransı çərçivəsində keçirilən müzakirələrdə birmənalı şəkildə bəyan edib ki, son bir ildə Azərbaycanla sərhəddə heç bir insident baş verməyib, sərhəd atəşindən heç bir insan tələfatı olmayıb: “Üstəlik, Azərbaycan öz ərazisindən Ermənistana yüklərin daşınmasına qoyulan məhdudiyyətləri aradan qaldırıb. Bu, artıq sülhə doğru böyük addımdır. Biz Azərbaycanla ikitərəfli ticarətə də başlamışıq, Azərbaycandan neft məhsulları alırıq və bəzi malları Azərbaycan şirkətlərinə satacağıq”.

Hayların baş diplomatının “bu, həqiqətən sülhün sübutudur. Mən deyə bilmərəm ki, bütün məsələlər həll olunub. Bizim çox qanlı münaqişəmiz olub, yaralar hələ təzədir və hər iki xalqın həqiqi barışığa ehtiyacı var” sözləri sülhün uzaqda olmadığına ümidləri nə qədər artırırsa, onun həll olunmamış problemlər qismində “Bakıda saxlanılanlar var. Amma bu yol çox nikbindir” kimi açıqlaması rəsmi İrəvanın hələ də Ermənistan–Azərbaycan normallaşmasına axıra qədər sadiqliyinə müəyyən şübhələrin yaranmasına rəvac verir. Bu ritorikanın təkcə Bakıya deyil, beynəlxalq konfrans iştirakçılarının təmsil etdikləri ölkələrə də ünvanlandığını nəzərə alsaq, cavab çox kəskin və birmənalı olmalıdır. Əslində, Mirzoyanı bu sözləri deməyə cürətləndirən Avropa Parlamentinin Azərbaycana qarşı qərəzli qətnaməsi və xaricdəki erməni lobbisinin anti-sülh fəaliyyətidir desək, səhvə yol vermərik. Onların cavabını isə Prezident İlham Əliyev “Avropa Siyasi Birliyi”nin VIII Zirvə görüşünün iştitakçılarına videobağlantı formatında müraciətində qəti şəkildə verdi.

Ardınca Mirzoyan çıxışında utanmadan deyib ki, Ermənistanla Türkiyə arasında dialoq əlverişli nəticələr verə biləcək səviyyəyə çatıb: “Türkiyə ilə əla dialoqumuz var. Əməkdaşlıq üçün çoxlu imkanlar yaranıb. Elə dünən bizim nümayəndələrimiz Ermənistan və Türkiyə sərhədində yerləşən tarixi Ani körpüsünün birgə bərpasına dair memorandum imzaladılar”. Bu isə İrəvanın sübuta ehtiyac duyulmayan ikibaşlı, riyakar siyasətinin parlaq nümunəsidir.

Son bir həftədə baş verənlərə, xüsusilə “İrəvan dialoqu – 2026” beynəlxalq konfransında səslənən fikirlərə yekun dəyərləndirmə kimi, yazımıza müdriklərimizin köpək və çomaq barədə kəlamı ilə nöqtə qoymağımız yerinə düşər.

***İ.HƏSƏNQALA***
***XQ***

# Ulu öndər müstəqillik Konstitusiyasının memarıdır

**Mayın 6-da Konstitusiya Məhkəməsində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr edilmiş “İnsan hüquq və azadlıqlarının qorunması üçün milli mexanizmlərin effektivliyi: Konstitusiya hüquq sisteminin əsası kimi” mövzusunda dəyirmi masa keçirilib. Mərasimdə insan hüquqları üzrə müvəkkil (ombudsman) Səbinə Əliyeva, Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin icraçı direktoru Samir Mahmudov, Hüquq və İnsan Haqları İnstitutu İdarə Heyətinin sədri Məhəmməd Quluzadə iştirak ediblər.**



Açılış nitqi ilə çıxış edən Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev müasir Azərbaycan dövlətinin qurucusu, dahi şəxsiyyət ulu öndər Heydər Əliyevin əvəzsiz tarixi xidmətlərindən, böyük xilaskarlıq missiyasından bəhs edib. Ümummilli liderin müstəqilliyin bərpasından sonra xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtmasının dövlətçiliyimizi ciddi təhlükələrdən xilas etdiyini, ölkənin ictimai-siyasi, sosial-iqtisadi və elmi-mədəni həyatında əsaslı dönüşün yarandığını, həyata keçirdiyi strateji siyasətin bu gün də respublikamızın inkişaf istiqamətlərinin müəyyənləşdirilməsində mühüm rol oynadığını bildirib.

Dahi şəxsiyyət Heydər Əliyevin zəngin dövlətçilik təcrübəsinin, siyasi irsinin əhəmiyyətindən bəhs edən Fərhad Abdullayev qeyd edib ki, 1995-ci ildə ulu öndərin rəhbərliyi ilə hazırlanan və ümumxalq səsverməsi yolu ilə qəbul edilən Konstitusiya ölkəmizdə dövlətçiliyin inkişafına, demokratik, hüquqi dövlətin, vətəndaş cəmiyyətinin yaradılmasına və hüquq sisteminin müasir tələblərə uyğun formalaşdırılmasına geniş imkanlar açıb.

Vurğulanıb ki, bu gün ulu öndərin xalqımızın azadlığının, müstəqilliyinin qorunmasına yönələn müqəddəs ideyaları onun layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilir.

Sədr diqqətə çatdırıb ki, ulu öndər Heydər Əliyevin layiqli davamçısı İlham Əliyevin uğurlu fəaliyyəti respublikamızı bugünkü qüdrətinə çatdırıb, Azərbaycan tarixi Zəfər nəticəsində suverenliyini və ərazi bütövlüyünü bərpa edib. Ali Baş Komandan İlham Əliyevin sərkərdəlik məharəti, strateji və diplomatik addımları, yenilməz Azərbaycan Ordusunun gücü və xalqın birliyi sayəsində əldə olunan Qələbə regionda yeni reallıqlar yaradıb, Konstitusiyanın hüquqi qüvvəsi işğaldan azad edilmiş torpaqlarımızda bərpa olunub, bununla da həmin ərazilərdə vətəndaşların konstitusiya hüquqlarının bərpası təmin edilib.

Mərasimdə insan hüquqları üzrə müvəkkil (ombudsman) Səbinə Əliyeva, Hüquqi Ekspertiza və Qanunvericilik Təşəbbüsləri Mərkəzinin icraçı direktoru Samir Mahmudov, Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin, eləcə də Hüquq və İnsan Haqları İnstitutunun nümayəndələri, Konstitusiya Məhkəməsi və Ombudsman Aparatının məsul şəxsləri müxtəlif hüquqi mövzular üzrə məruzələrlə çıxış ediblər, geniş fikir mübadiləsi aparılıb.

Dəyirmi masaya yekun vuran Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev qeyd edib ki, bu gün xalqını mürəkkəb tarixi sınaqlardan uğurla çıxaran ulu öndər Heydər Əliyevin əziz xatirəsi hər birimiz tərəfindən dərin hörmət və ehtiramla anılır.

***XQ***

**Avropa Parlamentinin Cənubi Qafqazla bağlı son qətnaməsi və Avropa İttifaqı (Aİ) institutlarının region siyasəti ətrafında yaranan mübahisələr siyasi etimadsızlığa səbəb olub. Gürcüstan və Azərbaycanla bağlı qəbul edilən sənədlər və bəyanatlar göstərir ki, Avropa institutlarının “demokratiya və dəyərlər” mesajı ilə real siyasi davranışları arasında ziddiyyət mövcuddur. Bunu Avropa Parlamentində Gürcüstanla bağlı qəbul edilən hesabat və ardınca səslənən bəyanatlar təsdiqləyir. Bu sənədlər bir tərəfdən “demokratiyanın müdafiəsi” və “Avropa inteqrasiyasının dəstəklənməsi” kimi təqdim olunur, digər tərəfdən isə Tbilisidə yanaşmanın selektiv, ziddiyyətli və siyasi motivli olduğu barədə fikirlər səsləndirilir.**

# Avropa Parlamentinin “seçmə” ədaləti

Yada salaq ki, Avropa Parlamentinin Gürcüstanla bağlı illik hesabatı 53 deputatın dəstəyi, 14 deputatın etirazı ilə qəbul edilib. Sənəddə ölkədə demokratik geriləmə, artan repressiyalar, düşmənçilik ritorikası, dezinformasiya və təhdidlər fonunda Gürcüstanın Avropa kursundan uzaqlaşdığı iddia olunur. Bundan əlavə, sənəddə ATƏT çərçivəsində 24 ölkənin



təşəbbüsü ilə “Moskva mexanizmi”nin işə salınması alqışlanır. Bu mexanizm Gürcüstanda öhdəliklərin yerinə yetirilməsini qiymətləndirmək üçün ekspert missiyasının göndərilməsinə imkan verir.

Eyni zamanda, sənəd “gürcü xalqı ilə tam həmrəylik” ifadə edir və Avropa dəyərləri uğrunda mübarizənin dəstəkləndiyini bildirir. Məhz bu nöqtədə sənədin daxili məntiqində ziddiyyətlər açıq şəkildə görünür. Çünki bir tərəfdən xalqla həmrəylik vurğulanır, digər tərəfdən isə xalqın yaşadığı ölkəyə qarşı sanksiyalar, vizasız rejimin dayandırılması ehtimalları və siyasi təcrid mexanizmləri kimi təzyiq alətləri gündəmdə saxlanılır. Bu yanaşma faktiki olaraq cəmiyyət və hakimiyyət arasında süni bölgü yaradır və regionda siyasi sabitliyə təhdid sayılı.

Beləliklə, Gürcüstan ətrafında formalaşan vəziyyət yalnız ikitərəfli münasibətlər böhranı deyil, həm də Aİ-nin öz daxilində dəyərlər siyasəti ilə realpolitik yanaşma arasındakı gərginliyin təzahürüdür. Sənədlərdə demokratiya və həmrəylik ritorikasından istifadə olunsa da, praktik nəticələr və təklif olunan mexanizmlər daha çox təzyiq və təsir alətlərinə əsaslanır. Bu, həm Gürcüstan–Aİ münasibətlərində, həm də ümumilikdə Cənubi Qafqazın geosiyasi mənzərəsində yeni qeyri-müəyyənlik mərhələsinin formalaşdığını göstərir.

Gürcüstan Xarici İşlər Nazirliyi bu yanaşmaya sərt reaksiya verərək Avropa Parlamentinin hesabatını reallıqdan tamamilə uzaq, faktların qəsdən təhrifinə və məlumatların manipulyasiyasına əsaslanan siyasi sənəd kimi qiymətləndirib. Rəsmi Tbilisinin mövqeyinə görə, bu cür yanaşma Gürcüstan cəmiyyətində radikal meyilləri qütbləşdirir, siyasi gərginliyi artırır və ictimai sabitliyə mənfi təsir göstərir. Eyni zamanda, vurğulanıb ki, Aİ-nin bu mövqeyi ikitərəfli münasibətlərə zərər vurur və ortaq strateji maraqları zəiflədir.

Yaranmış ziddiyyətli mənzərə Aİ-nin Cənubi Qafqaz siyasətində daha geniş sistem probleminin tərkib hissəsidir. Bir tərəfdən Gürcüstan Avropa üçün strateji əhəmiyyətli ölkə kimi təqdim olunur, xüsusilə nəqliyyat dəhlizləri və enerji marşrutları baxımından onun rolu vurğulanır. Digər tərəfdən, eyni ölkəyə qarşı sərt siyasi qiymətləndirmələr və kollektiv məsuliyyətə yaxın yanaşmalar tətbiq edilir. Bu ikili yanaşma Avropa institutlarının regiona münasibətində normativ dəyərlərlə geosiyasi maraqların paralel, lakin çox vaxt ziddiyyətli şəkildə işlədiyini göstərir.

Avropa Parlamentinin sənədində həmçinin Gürcüstanın Aİ-yə namizəd ölkə kimi “ikinci illik hesabatı”nın təqdim olunduğu qeyd edilir və siyasi vəziyyətlə bağlı narahatlıqlar geniş şəkildə əks olunur. Lakin sənəddə istifadə olunan ritorika “dəstək” və “tənqid” arasındakı sərhədi bulandırır. Bir tərəfdən demokratik dəyərlərin qorunması çağırışları edilir, digər tərəfdən isə bu prosesə görə məsuliyyət daşıyan siyasi qüvvələrə qarşı sərt sanksiya mexanizmləri təşviq olunur.

Gürcüstan hakimiyyəti bu yanaşmanı ölkənin suveren siyasi kursuna birbaşa müdaxilə kimi qiymətləndirir və Avropa institutlarının obyektivliyini sual altına alır. Parlament sədri və hökumət rəsmiləri dəfələrlə bildiriblər ki, Aİ-nin bəzi strukturları artıq beynəlxalq siyasətdə əvvəlki təsir gücünü itirib və daha çox daxili siyasi gündəmlərin təsiri altında fəaliyyət göstərir. Bu isə Gürcüstan kimi ölkələrlə münasibətlərdə etimad böhranını daha da dərinləşdirir. Gürcüstanın Baş naziri İrakli Kobaxidze bildirib ki, Gürcüstan əhalisini şantaj etməyə çalışırlar: “Konkret bürokratlar, daha doğrusu, onların arxasında duran qeyri-rəsmi idarəçilər gürcü xalqını “kollektiv Milli Hərəkatı” hakimiyyətə qaytarmadığı üçün bağışlaya bilmir. Buna görə də cəmiyyətimizi daimi şantaj altında saxlamağa çalışırlar ki, bu da sadəcə, ədalətsiz yanaşmadır və bu yanaşma təsirli də deyil. Kimsə belə siyasətlə nəyəsə nail olacağını düşünürsə, bu, alınmayacaq”.

Bu selektiv yanaşma və etimad böhranı Azərbaycanla bağlı müzakirələrdə də özünü göstərir. Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsi ilə yaranmış yeni status-kvo artıq beynəlxalq hüquqi reallıq olsa da, Avropa Parlamentinin 2026-cı il 30 aprel tarixli qətnaməsi bu faktı nəzərə almadan obyektivlikdən və beynəlxalq hüququn fundamental prinsiplərindən uzaq mövqe sərgiləyib. Almaniyada fəaliyyət göstərən Avropa Azərbaycan Mərkəzi kimi qurumların bəyanatlarında qeyd olunduğu kimi, həmin sənəd Cənubi Qafqazdakı mövcud reallıqları təhrif, Azərbaycanın suveren hüquqlarına isə hörmətsizlik nümayiş etdirir. Xüsusilə “Dağlıq Qarabağ” ifadəsindən istifadə Azərbaycanın hüquqi-inzibati reallıqlarının təhrif edilməsidir. Eyni zamanda, Qarabağ ermənilərinin “qayıdış hüququ” ilə bağlı müddəaların birtərəfli təqdim olunması Azərbaycanın daxili işlərinə müdaxilədir. Bununla yanaşı, Avroparlamentin Ermənistanın işğalı nəticəsində öz yurdlarından didərgin düşmüş yüz minlərlə azərbaycanlının qayıdış hüququnu nəzərə almaması ədalətsizlik və selektiv yanaşma nümunəsidir.

Bundan başqa, Aİ-nin Ermənistandakı missiyasının birtərəfli şəkildə yalnız “sabitləşdirici faktor” kimi təqdim olunması regiondakı mürəkkəb təhlükəsizlik reallıqlarının nəzərə alınmamasıdır. Ümumiyyətlə, hesabat reallıqdan tamamilə uzaqdır, faktlar qəsdən təhrif edilir, absurd ittihamlar irəli sürülür və dezinformasiya yaymaq üçün məlumatları manipulyasiya etmək metodlarından istifadə olunur. Aİ institutunun bu cür ədalətsiz münasibəti Azərbaycanla Aİ arasındakı münasibətləri sarsıdır və ortaq maraqlarımıza zərər verir. Mövcud geosiyasi reallıqların düzgün qiymətləndirilməsi isə yalnız prinsipial və selektivlikdən uzaq yanaşma ilə mümkündür.

Mövzu ilə bağlı fikirlərini XQ ilə bölüşən **gürcüstanlı siyasətçi Vüqar İsayev**



vurğuladı ki, Avropa Parlamentinin həm Gürcüstan, həm də Azərbaycanla bağlı sərgilədiyi son mövqe bu institutların daxilindəki dəyərlər siyasəti ilə "realpolitik" yanaşma arasındakı gərginliyin təzahürüdür: “Regionda davamlı sülh və sabitlik deklarativ bəyanatlarla deyil, yalnız dövlətlərin suverenliyinə və hüquqi obyektivlik prinsiplərinə sadiqlik nümayiş etdirildiyi təqdirdə mümkündür. Əks təqdirdə, Avropa institutlarının bu cür siyasi seçiciliyə əsaslanan fəaliyyəti onları regionun gələcək arxitekturasında həlledici aktor olmaqdan çıxararaq, sadəcə, gərginliyi artıran tərəfə çevirə bilər.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***



# Heydər Əliyev irsində ənənə və müasirlik



**Mayın 6-da Nəsimi Rayon İcra Hakimiyyəti, Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatı və Bakı Xoreoqrafiya Akademiyasının birgə təşkilatçılığı ilə ulu öndər Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr olunmuş "Heydər Əliyev irsinin konseptual əsasları: ənənə ilə müasirliyin vəhdəti" mövzusunda konfrans keçirilib.**

YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov deyib ki, ümummilli lider Heydər Əliyevin xidmətləri misilsizdir və fəaliyyəti həm SSRİ dövrünü, həm də müstəqillik illərini əhatə edib. O, bütün mərhələlərdə Azərbaycanın inkişafına, milli həmrəyliyə və dövlətçilik ənənələrinin qorunmasına töhfə verib. Müstəqillik illərində ölkədə sabitlik və inkişaf təmin edilib, müasir dövlət quruculuğuna nail olunub. Azərbaycanın beynəlxalq mövqeyi möhkəmləndirilib, strateji hədəflər gerçəkləşdirilib. O qeyd edib ki, Ulu öndər mədəni irsin qorunmasını prioritet hesab edib, incəsənət və mədəniyyətin inkişafına xüsusi önəm verib. Bu siyasət hazırda Prezident İlham Əliyev tərəfindən davam etdirilir, birinci xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu isə mühüm layihələrlə milli-mədəni irsin qorunmasına və tanıdılmasına töhfə verir.

Bakı Xoreoqrafiya Akademiyasının prorektoru, rektor vəzifəsini icra edən Nailə Məmməd-zadə bildirib ki, ümummilli lider Heydər Əliyev incəsənətə daim önəm verib, xoreoqrafiya isə xüsusi diqqətində olub. Akademiyanın binası da onun təşəbbüsü ilə tikilib.

Milli Məclisin deputatı Ziyad Səmədzadə, Nəsimi Rayon Ağsaqqallar Şurasının sədri, professor Vaqif Şadlinski ulu öndərin Azərbaycanın inkişafında misilsiz rolundan danışıblar.

Məclis konsert proqramı ilə davam edib.

***XQ***

# Berlin Vaşinqtonla anlaşmağa çalışır

## *Almaniya Kanslerinin şəraitə uyğunlaşma manevri*

**Ötən yazımızda Almaniya Kansleri Fridrix Merts və ABŞ lideri Donald Tramp arasında əsən soyuq küləklərdən kifayət qədər bəhs etmişdik. Merts Trampın siyasətini kəskin şəkildə tənqid edərək, Yaxın Şərqdə davam edən vəziyyət fonunda onu "uğursuz" adlandırmışdı. Amma Trampın Almaniyanın avtomobil sənayesinə yönəlmiş yeni rüsum qərarı və paralel şəkildə ABŞ qoşunlarının Avropadan çıxarıla biləcəyi ilə bağlı hədələri qlobal siyasətin köhnə, amma heç vaxt aktuallığını itirməyən həqiqətini yenidən xatırlatdı.**

Söhbət təhlükəsizlik və iqtisadiyyatın bir-birini şərtləndirən iki aparıcı sütun olmasından gedir. Məhz bu səbəbdən Almaniya Kansleri siyasi ritorikasına dəyişiklik etməyə məcbur qaldı, yumşaq və hətta müəyyən mənada "Tramp haqlıdır" kimi fikirlər irəli sürdü. Amma Mertsin davranışını nə emosional impulsun nəticəsi, nə də prinsipial xəttin qəfil dəyişməsi kimi qiymətləndirmək düzgün olmaz. Proses daha çox geosiyasi reallıqların diktə etdiyi uyğunlaşma nümunəsi kimi dəyərləndirilməlidir.

Bəli, kanslerin Ağ Evin ünvanına kəskin tənqidlərindən sonra yumşaq ritorikaya keçməsi onun mövqeyinin çoxqatlı olduğunu göstərir. Siyasətdə sərt bəyanatlar bəzən strateji mövqenin təcəssümü kimi görünsə də, əslində, onlar çox zaman daxili auditoriyaya hesablanmış mesajlar olur. Mertsin Tramp administrasiyasının siyasətini tənqid etməsi də bu kontekstdə başa düşülməlidir. Çünki Almaniyanın ictimai rəyi, xüsusilə də müharibə risklərinə qarşı həssas seçici bazası belə çıxışları tələb edirdi.

Oxuculara xatırladaq ki, Almaniya iqtisadiyyatının onurğa sütunu olan avtomobil sənayesi qlobal ticarət sisteminə dərindən inteqrasiya olunub. ABŞ bazarı isə sözügedən sektorun strateji dayaq nöqtəsidir. Yəni Vaşinqtonun tətbiq etdiyi rüsumlar Almaniyanın sənaye modelinə zərbə vurmaq potensialına malikdir. Belə olan halda Mertsin qarşıdurma xəttini davam etdirməsi ağılsızlıq olardı. O, "Tramp haqlıdır" deyərkən konkret olaraq ABŞ-ın öz sənayesini qoruma instinktinə işarə edir. Bundan başqa, ABŞ qoşunlarının geri çəkilməsi ilə bağlı hədələr Almaniya üçün daha dərin təhlükəsizlik dilemması yaradır. "Soyuq müharibə"dən sonra formalaşmış təhlükəsizlik arxitekturasında ABŞ Avropanın əsas təminatçısı olaraq qalır. Almaniyanın hərbi potensialı son illərdə artırılsa da, hələ tam müstəqil müdafiə modelinə keçid edə biləcək səviyyədə deyil. Bu səbəbdən Vaşinqtonla münasibətlərin gərginləşməsi nəinki iqtisadi, həmçinin strateji risklər yarada bilər. Mertsin ehtiyatlı davranışı məhz riskin qarşısını almağa hesablanıb.

Digər mühüm məqam Almaniyanın Avropa daxilində oynadığı roldur. Berlin öz milli maraqları ilə yanaşı, Avropa İttifaqının bütövlükdə sabitliyini nəzərə almaq məcburiyyətindədir.



Çünki ABŞ-la açıq qarşıdurma Aİ daxilində parçalanma riskini artıra bilər. Xüsusilə Şərqi Avropa ölkələri üçün ABŞ təhlükəsizlik çətiri hələ də həyati əhəmiyyətini saxlayır. Həmin ölkələr Vaşinqtonla münasibətlərin pisləşməsinə Şübhə ilə yanaşır və Berlinin sərt xəttini dəstəkləməyə meyilli deyillər. Merts bunu nəzərə alaraq daha balanslı ritorika seçir.

Mertsin davranışını izah edən başqa bir amil onun siyasi kimliyidir. Nəzərə alınmalıdır ki, o, iqtisadi rasionalizmə yaxın fiqur kimi tanınır və siyasi üslubu kompromis və balans üzərində qurulub. Bu baxımdan Tramp kimi tez-tez təzyiq alətlərindən istifadə edən liderlə münasibətlərdə açıq qarşıdurmadan yayınmaq Merts üçün daha məntiqli strategiyadır. O, problemin daha çox idarə olunmasını hədəfləyir. Bununla yanaşı, Mertsin açıqlamasında gizli bir mesaj da var ki, o, Trampın arqumentlərini qismən qəbul etməklə ABŞ-ın təzyiqini yumşaltmağa çalışır. Diplomatiyada tez-tez istifadə olunan gərginliyi azaltma texnikası burada işə keçir. Qarşı tərəfin mövqeyini tam rədd etmək əvəzinə, onun müəyyən elementlərini legitim saymaq dialoq üçün qapını açıq saxlayır. Eyni zamanda, bu situasiya transatlantik münasibətlərin transformasiya mərhələsində olduğunu göstərir. ABŞ artıq əvvəlki kimi qeyd-şərtsiz müttəfiq rolunda çıxış etmir, daha çox öz milli maraqlarını ön plana çəkən praqmatik güc kimi davranır. Avropa isə hələ bu yeni reallığa tam uyğunlaşa bilməyib. Mertsin ehtiyatlı mövqeyi də həmin keçid dövrünün tipik əlamətidir. Görünür, köhnə ittifaq modelindən tam imtina edilməyib, amma onun dəyişdiyi qəbullanıb.

Hadisə bir daha göstərir ki, müasir siyasətdə prinsipiallıq dəyişən şərtlər daxilində strateji elastiklik nümayiş etdirmək bacarığında üzə çıxır. Siyasətdə maraqların toqquşması ilə yanaşı, onların kəsişmə nöqtələrini tapmaq eyni dərəcədə əhəmiyyətlidir. Ən çətin qərarlar məhz bu mərhələdə verilir. Mertsin seçdiyi xətt, bu mənada, yeni dövrün siyasi davranış modelinə uyğundur. O, açıq qarşıdurmanın gətirə biləcəyi domino effektini – iqtisadi zərbələri, təhlükəsizlik boşluqlarını və siyasi parçalanmanı əvvəlcədən hesablayaraq, gərginliyi idarəolunan çərçivədə saxlamağa çalışır. Belə vəziyyətdə tərəflər bir-birinə təzyiq göstərmək imkanını saxlayır, eyni zamanda, körpüləri tam yandırmamaqla gələcək əməkdaşlıq üçün kanalları açıq qoyurlar.

***Nəzrin ELDARQIZI***
***XQ***

# Roberta Metsola və ikinci "Qatargate"in ayaq səsləri

## *Avropa Parlamenti sədrinin sərsəmləməsinə sözardı*

**Prezident İlham Əliyev mayın 4-də "Avropa Siyasi Birliyi"nin 8-ci Zirvə toplantısındakı videoçıxışında Avropa Parlamentini sərt tənqid etdi. Bəri başdan deyək ki, sərsəm fikirlərin müəllifi AP sədri Roberta Metsoladır. Bu maltalı xanımın nəyə görə tez-tələsik ortaya düşməsinin səbəbi barədə isə sonda söz açacağıq.**

Bəli, Prezident İlham Əliyev AP-nin timsalında ümumən "köhnə qitə"nin bir sıra təsisatlarının Azərbaycana münasibətdəki qərəzli mövqeyini ifşa etdi, ikili standartlar siyasətinin məkrli tərəflərini açıqladı. Dövlətimizin başçısı, həmçinin sözügedən qurumun Cənubi Qafqazda barışa – Azərbaycan-Ermənistan sülhünə zidd fəaliyyət mahiyyətini vurğuladı: "Bu qurum sülh prosesinə dəstək vermək əvəzinə, ona qarşı sabotajla məşğul olur. İkinci Qarabağ müharibəsi bitdikdən cəmi altı ay sonra - 2021-ci ilin mayından 2026-cı ilin aprelin 30-na qədər Avropa Parlamenti Azərbaycanla bağlı təhqir və yalanlarla dolu 14 qətnamə qəbul edib. Sadəcə, təsəvvür edin: beş il ərzində 14 qətnamə aludəçilikdir. Ən sonuncusu cəmi dörd gün əvvəl - bilərəkdən Zirvə görüşü ərəfəsində qəbul edildi. Avropa Parlamenti ksenofobiya, islamofobiya, antisemitizm, miqrasiya, rəqabətçilik, evsiz insanların məsələsi kimi fundamental problemləri həll etmək əvəzinə, böhtan və yalan yayaraq Azərbaycanı hədəfə alır. Səbəb isə odur ki, Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini bərpa edib, separatçılığa son qoyub və müharibə cinayətkarlarını ədalət mühakiməsinə cəlb edib".

Deməli, "Avropa Siyasi Birliyi"nin 8-ci Zirvə toplantısı gedişində AP-nin sərsəm mahiyyətli yanaşmasının bundan sonra da davamlı olacağının, bir növ, anonsu səsləndi. Anonsun müəllifi, barəsində söz açdığımız Roberta Metsoladır. O, öz aləmində, guya, Prezident İlham Əliyevə cavab verdi, halbuki dedikləri cavabdan çox, kor inad mahiyyəti daşıdı: "Hesab edirəm ki, müəyyən fikir ayrılıqları ilə müşayiət olunan görüşlər həmişə faydalıdır. Amma dərhal cavab vermək və vurğulamaq istərdim ki, Avropa Parlamenti nümayəndələri müstəqil seçkilər vasitəsilə seçilən demokratik qurumdur və qətnamələri səs çoxluğu ilə qəbul edilir. Başa düşürəm ki, onların nəticələri bəziləri üçün xoşagəlməz ola bilər. Lakin biz heç vaxt iş prosesimizi dəyişməyəcəyik və tutduğumuz mövqeləri müdafiə edəcəyik".

Qeyd edək ki, Prezident İlham Əliyev "Avropa Siyasi Birliyi"nin 8-ci Zirvə toplantısındakı çıxışı zamanı Azərbaycan parlamentinin mayın 1-də Avropa Parlamenti ilə bütün sahələrdə əməkdaşlığı dayandırmaq, Avropa İttifaqı–Azərbaycan Parlament Əməkdaşlığı Komitəsinin işində iştirakına son qoymaq və Avronest Parlament Assambleyasında üzvlüyün dayandırılmasına aid prosedurlara başlamaqla bağlı rəsmi qərar qəbul etdiyini də vurğuladı: "Nəzərə alsaq ki, "Avropa Siyasi Birliyi"nin Zirvə görüşlərində biz öz fikirlərimizlə və narahatlıq doğuran məsələlərlə açıq şəkildə mübadilə edirik, mən, sadəcə, bu halda baş verənlər barədə həmkarlarımızı məlumatlandırmaq istədim ki, son qərarla bağlı səhv informasiya və manipulyasiya olmasın".

Ölkəmiz AP-nin qərəzinə adekvat reaksiya göstərməkdə israrlıdır, bu, öz yerində. R.Metsolanın Ermənistandakı demokratiya zəngulələrinə, rəhbərlik etdiyi qurum barədəki populist düşüncələrinə gəlincə, xanım parlamentarinin yadına çox da uzaq olmayan keçmişi salaq. Axı Metsola AP-yə qurum daxilində üzə çıxmış ən böyük korrupsiya qalmaqallarından birinin – "Qatargate"in baş verdiyi dönəmdə rəhbərlik edir.




* * *

Arayış üçün bildirək ki, "Qatargate" 2022-ci ilin sonunda ortaya çıxıb və AP deputatlarının xarici ölkələrdən rüşvət alması iddiaları ilə bağlıdır. Daha dolğun ifadə etsək, "Qatargate" xarici dövlətlərin Avropa siyasətinə rüşvətlə müdaxiləsi iddialarını üzə çıxaran böyük korrupsiya qalmaqalıdır. Məsələ ondadır ki, AP üzvləri və onlarla əlaqəli şəxslər Qətər, müəyyən hallarda Mərakeş və Mavritaniya tərəfindən pul, hədiyyə və digər imtiyazlar alaraq, təmsil etdikləri qurumda bu ölkələrin maraqlarını qoruyublar. Məqsəd, əsasən, 2022-ci ilin futbol üzrə dünya çempionatı ərəfəsində Qətərin imicini yaxşılaşdırmaq, insan haqları ilə bağlı tənqidlərin qarşısını almaq olub.

Onu da xatırladaq ki, qalmaqalda adı keçən "məşhurlar "Avropa Parlamentinin vitse-prezident Eva Kaili və deputat Antonio Panzeridir. Hər iki şəxsin 4 ay məhbus həyatı yaşadıqları da məlumdur. Hazırda onlar azadlığın məhdudlaşdırılması şərti ilə sərbəst buraxılsalar da, davam etməkdə olan "Qatargate" istintaqının başlıca fiqurlarıdır. Böhranın siyasi nəticələrinə gəldikdə, ciddi rezonans doğurmuş qalmaqal AP-nin nüfuzuna zərbə vurdu, qurumun lobbiçilik və maliyyə şəffaflığı qaydalarının zəifliyini ortaya çıxardı, yeni etik qaydaların hazırlanmasına səbəb oldu...

* * *

Diqqət yetirək, R.Metsola 2022-ci ilin yanvarında AP-yə rəhbərlik edib, "Qatargate" isə həmin ilin dekabrında yaşanıb. Amma maraqlıdır ki, xanım Roberta, sudan quru çıxmağı bacarıb. O, hətta özünü neqativ hallara qarşı "mübarizə qladiatoru" qismində göstərib. Amma, necə deyərlər, balıq başdan iylənir. O zaman ağzını köpükləndirib Azərbaycan Prezidentinə cavab verirmiş kimi rola girən Metsolaya daha bir xatırlatmamız var. Söhbət "Qatargate"də Avropadakı erməni diasporunun, xüsusən, Ədalət və Demokratiya üçün Avropa-Ermənistan Federasiyasının adının hallanmasından, təşkilatın tərəf olmasından gedir. Yəni yaxşı olar ki, AP sədri ucuz populizmi bir kənara qoyub dövlətimizin başçısının fikirləri barədə ciddi düşünsün və öz-özünə sual versin. Daha doğrusu, bu suala cavab tapsın: Necə olur ki, AP 2021-ci ilin mayından 2026-cı ilin aprelinədək Azərbaycanla bağlı 14 qətnamə qəbul edir?

Baxın, il ərzində AP-də təxminən 250-300 arası qətnamə çıxarılır. Nəzərə alsaq ki, qurum 5 ildə ölkəmizlə əlaqədar 14 belə sənəd qəbul edib, bu, ümumi müqayisə baxımından təxminən 1 faiz təşkil edir. Amma bir məsələ var. AP-nin qətnamələrinin yalnız 20-30 faizində ölkələr hədəf alınır. Duruma mövcud prizmadan yanaşsaq, ortaya sual çıxır: AP-nin Azərbaycanla əlaqədar qətnamə qəbulundan başqa işi yoxdur? Digər tərəfdən, AP-nin, ənənəvi olaraq, Rusiya, İran və Çin kimi ölkələri hədəfə almasını anladıq. Aydındır ki, qurum qlobal siyasi oyunlarda alətdir və mövcud trayektoriyada hansısa korrupsiya "qoxusu" istisnadır. Necə deyərlər, palaza bürün, elnən sürün. Onu da anlayırıq ki, Metsola yox, kim olursa-olsun, bu düzən dəyişməyəcək. Dünyadan ədalət gözləyəcək qədər sadəlövh deyilik. Amma Azərbaycanla bağlı ədalətsizliyin ənənə kimi qəbul edilən ümumi deyil, daha çox fərdi maraqlar naminə həyata keçirildiyinə dair təəssürat var. "Qatargate" böhranında Avropadakı erməni diasporunun adının hallandığını məhz buna görə vurğuladıq.

Əlbəttə, AP-nin deputatları həm də Fransanın buyruq qullarıdır. Əsas bildirmək istədiyimiz odur ki, bütün bunlardan sonra Metsola susmalıdır. O, susmaq istəmirsə və gönünün qalın yerinə salıb rəhbərlik etdiyi qurumun iş prosesini heç vaxt dəyişməyəcəyini, tutduğu mövqeləri müdafiə edəcəyini bildirirsə, deməli, AP-ni ikinci "Qatargate" gözləyir.

* * *

Sonda ümumiləşdirmə apararaq, belə qənaətə gələ bilərik ki, hazırkı amplua baxımından Metsola Eva Kaili və Antonio Panzerini kənarlaşdırıb, onların vaxtilə başında dayandıqları korrupsiya səltənətinə özü rəhbərlik edir. Deməli, onun bu səltənətə qarşı istənilən çıxışı süngü ilə qarşılamasında əcaib də olsa, məntiq var.

Məntiqi gücləndirən AP sədrinin heç bir fakt göstərmədən, yalnız cavab xətrinə cavab mahiyyətinə köklənməsi, "Avropa Siyasi Birliyi"nin Ermənistanda keçirilən 8-ci Zirvə toplantısını özünün müqavimət yönümlü platformasına çevirməsidir. Axı xanım sədr rəhbərlik etdiyi qurumun Prezident İlham Əliyev tərəfindən, sözün əsl mənasında, ifşa olunduğunu gördü. Onun tez-tələsik ortaya düşməsinin səbəbi məhz budur. Deyəsən, ikinci "Qatargate" çox da uzaqda deyil...

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Heydər Əliyev: liderliyin konseptual kodları



II MƏQALƏ

## Azərbaycançılıqda “xalq fəziləti”

Ulu öndər Heydər Əliyevin azərbaycançılıq məfkurəsi əsasında akademik İsa Həbibbəyli “Azərbaycan xalqı” anlayışını azərbaycançılığın əsas prinsiplərindən biri kimi təqdim edir. Heydər Əliyev liderliyinin konseptual kodlarının dərk edilməsi baxımından çox prinsipial yanaşmadır. Məsələ fundamental dəyər səviyyəsində, ümumiyyətlə, “xalq” məfhumunun bütövlükdə, türk qövmünün və xüsusi olaraq Azərbaycan toplumunun şüuru ilə həyat fəlsəfəsinin vəhdətində obrazlaşması və predmetləşməsi kontekstində çox dərindir! Diqqət yönəldilən həmin özəlliyin “konseptual dəyəri”nin nəzəri prinsip kimi məzmunlaşdırılması, əlbəttə, faydalı olduğu qədər də mürəkkəb idraki prosesdir.

Burada onu nəzərə almaq vacibdir ki, ümumiyyətlə, Heydər Əliyevin liderlik fəaliyyəti mahiyyətcə adekvat dərk edilməli kodlar üzərində qurulmuşdur. Bunun başlıca səbəblərinin həm liderliyin təbiəti, həm də Ulu öndərin Azərbaycan üçün yaranmış tarixi-siyasi və geosiyasi situasiyanın ciddi ziddiyyətliliyini çox dərindən dərk etməsi olduğunu düşünürük. Bu müddəaların fonunda “xalq” anlayışının azərbaycançılığın əsas prinsiplərindən biri olaraq aşağıdakı kimi mənalandırılması çox maraqlıdır:

“1. Azərbaycan xalqı müstəqil Azərbaycan dövlətinin yaradıcısı, sahibi, daşıyıcısı və qoruyucusudur.

2. Azərbaycan xalqı – tarixən və mənşə etibarilə Azərbaycanda yaşayıb formalaşan, ölkəni qoruyub saxlayan və inkişaf etdirən əsas hərəkətverici qüvvədir.

3. Sədaqətli olmaq, bütövlük, Vətən və torpaq sevgisi Azərbaycan xalqının xarakteridir”.

Bu üç aspektin ortaq semantik sahəsində əmələ gələn fəzilətli yeni mənanı müəyyənləşdirək.

Birinci müddəa (“Azərbaycan xalqı müstəqil Azərbaycan dövlətinin yaradıcısı, sahibi, daşıyıcısı və qoruyucusudur”) Azərbaycan Respublikasının 1995-ci il Konstitusiyasında hüquqi təsbit edilmişdir. Bu mənada, “xalq suverenliyi” anlayışının “dövlət suverenliyi” anlamının bünövrəsində durması konseptual aspektdə siyasi-hüquqi sərhədləri aşır. Məhz bu böyük məna genişlənməsinin mənbəyi Heydər Əliyevin azərbaycançılıq məfkurəsində “Azərbaycan xalqı” anlayışına verdiyi məzmundadır.

İkinci müddəa (“Azərbaycan xalqı – tarixən və mənşə etibarilə Azərbaycanda yaşayıb formalaşan, ölkəni qoruyub saxlayan və inkişaf etdirən əsas hərəkətverici qüvvədir”) tarixi-mədəni təşəkkül müstəvisində Azərbaycan xalqının mövcudolma və təkamületmə fəlsəfəsinin baza özəlliyini ifadə edir. Burada ayrıca, tarixi birgəyaşam və mədəniyyət təməlində ölkənin qoruyub saxlanılması və inkişaf etdirilməsinin əsas hərəkətverici qüvvəsinin xalq olmasının prinsip səviyyəsində anlamı olduqca aktual və önəmlidir.

Üçüncü müddəa Azərbaycan xalqının toplumsal mövcudluq forması kimi kollektiv dünyaduyumu və xarakterinin başlıca xüsusiyyətlərini ifadə edir – “sədaqətli olmaq, bütövlük, Vətən və torpaq sevgisi Azərbaycan xalqının xarakteridir”.

## Ortaq məntiqi və semantik kod

Bunlardan üç müddəanın azərbaycançılığın prinsiplərinin tezisləri qismində ortaq semantik mənzərəsi aydınlaşır: xalq hüquqi, siyasi, ideoloji və mənəvi-mədəni aspektlərdə azərbaycançılığa hər tarixi dönəmdə məzmun verən başlıca hərəkətverici qüvvədir. Bu anlamda azərbaycançılıq burada yaşayan hər bir etno-mədəni mənsubluğun ölkəni, cəmiyyəti və dövləti qorumalı olan ümumi ideyası, fəaliyyət prinsipi və məfkurəsidir! Çünki onların hər biri ayrılıqda və bir yerdə kollektiv mədəniyyətin, bütöv ölkənin, müstəqil dövlətin yaradıcısı, daşıyıcısı və sahibidirlər.

Buradan azərbaycançılığın prinsipial tərkib hissəsi anlamında xalq anlayışından Vətən anlayışına keçid əhəmiyyətlidir. Bütövlükdə, “xalq-Vətən” tandeminin azərbaycançılıq çərçivəsində dərki vacibdir. Çünki həmin anlam Ulu öndərin Vətən anlayışının konseptual bazasını təşkil edir. Onu vurğulayaq ki, istənilən qövm üçün xalqdan Vətənə məntiqi və semantik “keçid”in adekvat konseptual əxzi sadə iş deyildir. Bu anlayışların hər biri ayrılıqda kollektiv şüurun əsas atributları sırasındadır. Toplum öz “xalqlığı”nı doğru dərk etməyəndə mütləq yolundan sapır.

Vətən anlayışı isə özündə mədəniyyət, adət-ənənə, müəyyən coğrafi məkanda yaşama taleyi ilə yanaşı, dövlətçiliyi də ehtiva edir. “Vətən sağ olsun!” kəlamının mənası bu baxımdan çox dərin və əhatəlidir.

Demək mümkündürmü ki, “Vətəni xalq yaradır, lakin bundan öncə Vətən ola biləcək məkan xalqı yaradır?”. Heydər Əliyevin liderlik fəlsəfəsi prizmasında xalq-vətən birliyinin özəllikləri aydın görünür. Ulu öndərin fəaliyyətində Azərbaycan ziyalılığını, yazıçıları, şairləri, filosofları, mədəniyyət xadimlərini aktiv müdafiə etməsi, onları qoruması və himayə etməsi təsadüfi deyildi. Heydər Əliyev çox müxtəlif kontekstlərdə ifadə edirdi ki, Azərbaycan xalqının formalaşmasında yaradıcı (elmi, siyasi, mədəniyyət üzrə və s.) adamların töhfəsi böyükdür.

Bu anlamda xalqın həm özünə, həm də yaşadığı Vətənə münasibətinin formalaşmasında ziyalılıq aparıcı yer tutur. Vətəni xalq həmin üsulla öncə öz daxilində, mənəviyyatında, mədəniyyətində, Vətən duyumunda “yaradır”, sonra isə praktiki yaşam fəlsəfəsinə proyeksiyalayır. Azərbaycançılıq prizmasında Vətən anlayışı vətəndaşın yaşadığı ölkənin vahid coğrafi, mənəvi, mədəni, ideya obrazını formalaşdırması ilə sıx bağlıdır. Bu anlamda xalqın kollektiv mövcudat olaraq “Vətəni yaratması” ayrıca tədqiq edilməli məsələdir.

## Xalq-Vətən vəhdəti prinsip kimi

Heydər Əliyevin liderliyində xalq-vətən vəhdətinin azərbaycançılıq prinsiplərinin fonunda ortaq məntiqi və semantik kod qismində ayrıca əhəmiyyət kəsb etdiyi yuxarıda vurğuladığımız məqamlardan görünür. Bu, prinsip səviyyəsində isə akademik İ.Həbibbəylinin ifadə etdiyi istiqamətlərin semantik, məntiqi və praktiki-funksional aspektlərdə sintezində əksini tapa bilər. Konkret olaraq:

“1. Azərbaycançılıq – ölkədə hüquqi-demokratik dövlətin daşıyıcısı olan Azərbaycan xalqının dövlətçilik ideologiyasının ana xəttidir.

2. Azərbaycançılıq – Azərbaycanı özünə Vətən hesab edən bütün xalqları birləşdirən ideologiyadır.

3. Azərbaycançılıq – dünya azərbaycanlılarının milli-mənəvi birliyinin rəmzidir” müddəalarında xalq-vətən məntiqi və semantik keçidi ifadəsini tapmışdır. Buradan praktiki-funksional müstəvidə onların reallaşmasının elmi izahına keçmək mümkündür”.

***Birincisi,*** azərbaycançılıq Azərbaycan xalqının dövlətçilik ideologiyasının ana xətti kimi onun (xalqın) hüquqi-demokratik dövlətin daşıyıcısı olmasının mənəvi, əxlaqi, mədəni və ideya bünövrəsini təşkil edir.

***İkincisi,*** azərbaycançılığın hüquqi-demokratik dövlətin daşıyıcısı olması üçün fərdi və kollektiv səviyyələrdə “Vətən” anlayışının inklüzivliyi ilə legitimliyi bir-birini tamamlamalıdır. Yəni “Vətən” elə məzmunda dərk edilməlidir ki, toplumun hər bir fərdi və kəsimi üçün qəbul edilən olsun və eyni zamanda, bu ideyanın reallaşmasında kollektiv fəallıq təmin edilsin.

Bir nümunə göstərək. Türk qövmündə, o cümlədən Azərbaycan toplumunda “Torpaq uğrunda şəhid olan varsa, Vətəndir” deyimi mövcuddur. Bu ideya türklərin Vətəni anlayış olaraq ərazi, torpaq, coğrafi məfhum kimi anlamının semantik hüdudlarından çıxararaq, geniş mənəvi, əxlaqi, mədəni, ideoloji kontekstdə mənalandırmağa imkan yaradır.

Bu mənada, azərbaycançılığı yuxarıda vurğuladığımız kimi, həm də “dünya azərbaycanlılarının milli-mənəvi birliyinin rəmzi” kimi qavramağımız hər bir azərbaycanlının dünyanın hansı coğrafiyasında olmasından asılı olmayaraq “Azərbaycan Vətənimdir” ideyasını öz mənliyində, mənəviyyatında, əxlaqında, düşüncəsində və həyat tərzində saxlamalı olmasına səslənişdir. Burada Ulu öndərin bir fikrini xatırlamaq zəruridir.

Heydər Əliyev çıxışlarının birində vurğulamışdır ki, Azərbaycan xalqı ən çətin dönəmlərdə belə müstəqil Azərbaycan Respublikasının (Azərbaycan Demokratik Respublikası nəzərdə tutulur) üçrəngli bayrağını gizli surətdə saxlamış və onu qorumuşdur. O bayraq milyonların qəlbində saxlanmışdır. Halbuki siyasi olaraq, Azərbaycanın şimal hissəsi sovetlərin, cənubu isə İranın tərkibində idi. Deməli, Azərbaycançılıq prinsip səviyyəsində coğrafi, mənəvi, mədəni, əxlaqi və ideya aspektlərinin vəhdətində formalaşan çoxmənalı fenomendir.

Beləliklə, ulu öndər Heydər Əliyevin liderlik nümunəsində “Azərbaycan xalqı” anlayışı azərbaycançılığın təməl müəyyənedici məfhumlarından biri kimi yer tutur. Bu məqam azərbaycançılığın 7 prinsiplərindən 2-cisində vurğulanmış tezislərin semantikası və məzmunundan aydın görünür. Onların mənaca sintezi Ulu öndərin “Hamımızın bir Vətəni var. Bu, Azərbaycandır!” və “Vətən birdir, hamı Vətən uğrunda çalışmalıdır!” kəlamının dərk edilməsinə yardımçı ola bilər!

Buradan azərbaycançılıq prinsiplərindən biri kimi “Azərbaycan dövlətçiliyi” anlayışına məntiqi və semantik keçid edə bilərik.

## Azərbaycan dövlətçiliyi prinsipi

Azərbaycan dövlətçiliyinin azərbacançılığın prinsiplərindən biri kimi məzmunu və funksiyasının bünövrəsində ümummilli lider Heydər Əliyevin aşağıdakı məşhur kəlamı dayanır: “Müstəqil Azərbaycan dövlətinin ideya əsası Azərbaycançılıqdır!” Əslində bu qısa tezisdə Heydər Əliyev liderliyinin mühüm kodlarından biri ifadə olunmuşdur.

Onun başlıca mənası belədir: “Azərbaycan dövləti” ifadəsini ideya kimi adekvat dərk etmək üçün azərbaycançılığı xalq-Vətən vəhdəti fonunda ideya olaraq anlamaq və qəbul etmək gərəkdir. Burada “müstəqil Azərbaycan dövləti” tezisinin nə üçün azərbaycançılığın 7 əsas prinsiplərindən biri kimi müəyyən edilməsi məsələsi də aydınlaşır. Belə ki, Ulu öndərin liderliyində müstəqil və uğurlu Azərbaycan dövlətinin qurulması strateji mənası olan məqsəddir. Buna görə də Heydər Əliyevin liderliyinin kodları sırasında müstəqil Azərbaycan dövlətinin qurulması, gücləndirilməsi və onun əbədi olması fəaliyyətin başlanğıcı və strateji yekunu kimi xüsusi yer tutması təbiidir.

Aydındır ki, vurğulanan kontekstdə müstəqil dövlət quruculuğu çoxaspektli dinamik proses olaraq dərk edilməlidir. Lakin Azərbaycançılığın dövlət ideyasının əsası kimi çıxış etməsi “müstəqil dövlət” anlayışına xüsusi məna verir. Bu çox əhəmiyyətli məqamı tədqiq etmək bir zərurətdir. Çünki Heydər Əliyevin liderlik kodunda “müstəqillyin təmini–müstəqil dövlət-güclü dövlət” ümumi “triadası” yalnız konseptual əhəmiyyət daşımır, həm də praktiki reallaşma anlamına malikdir.

Son 300 ilin acı dövlətçilik təcrübəsini dərindən öyrənib, perspektivi olan nəticə çıxarmaq üçün bu, çox lazımdır. Nəzərə alaq ki, Heydər Əliyev daim ifadə etdiyi fikirləri həm də səsləniş olaraq bəyan edirdi, çünki həm dövlətçilik tariximizi incəliklərinə qədər dərin, həm də müasir mərhələdə davamlı müstəqil ola biləcək güclü dövləti necə qurmağın fəlsəfəsini, geosiyasətini, siyasətini və diplomatik üsullarını çox gözəl bilirdi.

Vurğulanan məqamların fonunda 3-cü prinsipin aşağıdakı alttezislərinin təhlili vacibdir. Orada yazılmışdır:

“1. Azərbaycan dövləti – Azərbaycan xalqının öz tarixi ərazisində çoxəsrlik ənənələri olan, ölkənin ərazi bütövlüyünü yaşadan və qoruyub möhkəmləndirən idarəetmə sistemidir.

2. Güclü dövlət, demokratik prinsiplər, milli sərvət, iqtisadi inkişaf və hərbi qüdrət Azərbaycan Respublikasının hərtərəfli inkişafının əsasıdır”.

*(ardı var)*

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Lənkəranda xatirə marafonu

## *Çayçılığa dəstək aksiyası el şənliyinə çevrilib*



**1930-cu illərin əvvəllərində respublikamızda ilk dəfə Lənkəran rayonunda çayın sənaye məqsədilə intensiv inkişafına başlanılıb. O illərdə İstisu qəsəbəsində 50 hektar sahədə plantasiya salınıb. Uzun illər yerli əhalinin əsas məşğuliyyəti çayçılıq olub.**

**Sahibkar Araz Yaqubov** 21 il əvvəl qəsəbədə “Yaşıl çay” fermer təsərrüfatı yaradıb. Təsərrüfatın 61 hektar çay plantasiyası, iki emal müəssisəsi, istirahət mərkəzi var. Müəssisədə müasir texnologiyaların tətbiqi ilə buraxılan “Lənkəran çayı” ölkəmizin hüdudlarından uzaqlarda da yüksək keyfiyyəti ilə fərqlənir. Təsərrüfat bölgə və respublika səviyyəli bir sıra tədbirlərə də ev sahibliyi edir. Xalqımızın ümummilli lideri Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü ərəfəsində paytaxt Bakı və respublikamızın bütün bölgələrini təmsil edən gənclərin iştirakı ilə “Çayımızın adı var!” adlı marafon keçirilib.

**Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsinin rəisi Teymur Babazadə** marafonun xalqımızın milli dəyərlərini, zəngin çayçılıq ənənələrini təbliğ etmək, regionun mədəni irsini gənclərə aşılamaq və çayçılıq şöhrətini artırmaq məqsədilə keçirildiyini bildirib.

Sahibkar Araz Yaqubov qonaqları təsərrüfatın çay plantasiyaları, emal sexləri, müxtəlif çeşiddə buraxılan məhsulları ilə tanış edib. Sonra mövsümün ilk yığımına start verilib. Gənclərin iştirakı ilə sahələrdən 61,3 kiloqram yaşıl çay dərilib.

Ucar Gənclər Evinin könüllüsü Nəzrin Baxışova birinci, Lənkəran Regional “ASAN xidmət” mərkəzinin könüllüsü Dinarə Məmmədova ikinci, Beyləqan Gənclər Evinin könüllüsü Elmira Qəhrəmanlı üçüncü yerə layiq görülüb. Qaliblərə təşəkkürnamə və hədiyyələr təqdim edilib.

Bakıdan gəlmiş incəsənət ustalarının, “Nənələr” folklor ansamblının üzvləri və nəvələrinin, Astara rayonunun “Əvəsor" xalq folklor və cənub bölgəsinin digər xalq yaradıcılığı kollektivlərinin ifasında musiqi nömrələri səslənib, rəqslər nümayiş olunub. Milli musiqimizin ahəngdar ritmləri çaysevərlərdə xoş ovqat, qəsəbədə bayram əhvali-ruhiyyəsi yaradıb.

***Əlisəfa HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

# Mərkəzi Bankın rüblük açıqlaması

**2026-cı ilin yanvar–aprel aylarında Azərbaycanın strateji valyuta ehtiyatları 3,4 faiz (2,9 milyard) artaraq 87,9 milyard ABŞ dollarına çatıb. Hesabat dövründə Azərbaycan Mərkəzi Bankının ehtiyatları isə 12,7 milyard dollar təşkil edib.**




Bu barədə Azərbaycan Mərkəzi Bankının (AMB) sədri Taleh Kazımov dünən faiz dəhlizinin parametrlərinə dair keçirilən mətbuat konfransında məlumat verib. Ölkənin strateji valyuta ehtiyatlarının 38 aylıq mal və xidmətlərin idxalına imkan verdiyini diqqətə çatdıran bank sədrinin sözlərinə görə, ehtiyatlar geniş manat kütləsini 3,7 dəfə üstələyir.

Qeyd olunub ki, bu il Azərbaycanın cari əməliyyatlar balansının profisitinin 5,5 milyard dollara çatacağı gözlənilir. 2027-ci ildə isə AMB cari əməliyyatlar balansının profisitinin 4,4 milyard dollar olacağını proqnozlaşdırıb. “Bunun əsas səbəbi AMB-nin neft və qaz qiymətləri üzrə yeni proqnozudur. Belə ki, Mərkəzi Bank neftin orta qiymətini 2026-cı il üzrə 84,5 dollar, 2027-ci il üzrə 74,5 dollar müəyyən edib. Qazın min kubmetrinin qiyməti 2026-cı il üzrə 324 dollar, 2027-ci il üzrə isə 290 dollar proqnozlaşdırılıb”, – deyə o bildirib.

T.Kazımov Azərbaycan Mərkəzi Bankının ölkəmizin növbəti 2 il üzrə iqtisadi artım proqnozu ilə bağlı da məlumat verib. Bildirilib ki, 2026-cı ildə ölkədə iqtisadi artımın 1,1 faiz olacağı gözlənilsə də, 2027-ci ildə bu rəqəmin 3,2 faiz təşkil edəcəyi proqnozlaşdırılıb. Bununla yanaşı, bank bu il ölkənin qeyri-neft sektorunda 3,2 faiz, gələn il isə 4,7 faiz artımın baş verəcəyi qənaətindədir.

Son iki ayda Mərkəzi Bankda valyuta hərracının keçirilmədiyini diqqətə çatdıran Taleh Kazımovun sözlərinə görə, hazırda bazarda valyuta təklifi tələbi kəskin üstələyib: “Buna görə də Azərbaycan Mərkəzi Bankı aprel ayında valyuta bazarına müdaxilə etdi və ehtiyatlar 12,7 milyard dollara çatdı. Bu prosesləri nağd bazarında da görürük. Burada da təklif tələbi üstələyir. Qarşıdakı 2-3 ayda valyuta bazarında cari vəziyyət davam edəcək. Ehtimal olunur ki, bank ilin sonunda yenidən valyuta bazarına müdaxilə etsin”.

Aprel ayının yekununda Azərbaycanda izafi likvidliyin 3,8 milyard manat təşkil etdiyini vurğulayan bank sədri ötən il isə bu rəqəmin 2,9 milyard manat olduğunu xatırladıb. Bank sədri deyib ki, Mərkəzi Bank monetar siyasətinin əməliyyat çərçivəsində olan alətlərdən istifadə edərək istinad faiz indeksini uçot dərəcəsinə yaxın bir tonda idarə etməyə nail olub. Onun sözlərinə görə, sterilizasiya əməliyyatlarının 89 faizi məhz bir həftəlik depozit hərracları vasitəsilə həyata keçirilib.

Sonda media təmsilçilərinin çoxsaylı suallarını cavablandırılıb.

***M.YAQUBZADƏ***
***XQ***

# Heydər Əliyev fenomeni: siyasi portretin miqyası və şəxsiyyətin missiyası

**Azərbaycan xalqının Ümummilli lideri, dünya siyasətinin əsas simalarından biri olmuş görkəmli dövlət xadimi Heydər Əliyev böyük siyasətin müstəqil dövlətçilik tariximizin, elm, ədəbiyyat və incəsənətin əbədi mövzusudur. Bu dahi şəxsiyyətin həyatı, mübarizəsi və idealları həm mənsub olduğu xalqın, ölkənin tarixində və taleyində, həm də geniş mənada dünyanın siyasi-tarixi gedişatında mühüm yer tutmuşdur.**



**Azərbaycan mənim həyatımın mənasıdır.**

***Heydər ƏLİYEV,***
***Azərbaycan xalqının ümummilli lideri***

XX əsrin ikinci yarısından sonrakı Azərbaycanın və SSRİ adlanan ölkənin siyasi-tarixi proseslərini Heydər Əliyev faktorundan bəhs etmədən obyektiv, tam halda izah və əhatə etmək mümkün deyildir. Həm Azərbaycan Respublikasının həm də Sovet İttifaqının dünyanın aparıcı dövlətləri, siyasi müttəfiqləri, qonşu dövlətlər, dost xalqlarla əlaqələrində görkəmli dövlət xadimi Heydər Əliyevin iştirakı, münasibəti, mövqeyi, əməli addımları, baxışları xüsusi yer tutmuşdur.

Beləliklə, ölkəsində milli iftixar mənbəyi və əsl xilaskar səviyyəsində ümumxalq ehtiramı qazanmış, Ulu öndər Heydər Əliyev SSRİ miqyasında görkəmli dövlət xadimi kimi etiraf olunan və beynəlxalq miqyasda böyük siyasətin qroyssmeystrlərindən biri olaraq qəbul edilən nəhəng simalardandır. SSRİ dağıldıqdan sonra sovet rəhbərlərinin, Siyasi Büro üzvlərinin əksəriyyətinin müstəqillik qazanmış Rusiya Federasiyasının və ya mənsub olduqları keçmiş müttəfiq respublikaların, yaxud beynəlxalq təşkilatların siyasətində, yaxud idarəetməsində nəzərəçarpacaq səviyyədə təmsil oluna bilməmələri çox keçməmiş onların təqaüdçü kimi unudulub getmələrinə səbəb olmuşdur.

Heydər Əliyev isə böyük çətinliklərdən, maneələrdən keçərək xalqın tələbi ilə yenidən böyük siyasətə qayıtmış, müstəqillik epoxasının da dünya miqyasında əsas simalarından biri olmuş, Azərbaycan xalqının Ümummilli lideri səviyyəsinə yüksəlmişdir. Haqlı olaraq Heydər Əliyev obrazlı şəkildə "Zəmanəmizin qəhrəmanı" adlandırılmışdır. Bununla da Heydər Əliyev ümumdünya tarixində, mənsub olduğu xalqın tarixində və yaddaşında qüdrətli dövlət xadimi kimi əbədi yaşamaq haqqı qazanmışdır. Bütün bunlara görə görkəmli dövlət xadimi və böyük siyasətçi Heydər Əliyevin müdrik siyasəti, zəngin təcrübəsi, dönməz iradəsi, böyük idealları və mübarizəsi dövlətçilik tarixinin sınaqlardan çıxmış dərslər kimi daim öyrəniləcək, tədqiq olunacaq, dövlətlərin, xalqların irəliyə doğru inkişafına işıq salacaqdır.

Görkəmli dövlət xadimi Heydər Əliyevin tərcümeyi-halı ilk növbədə mənsub olduğu xalqın tərcümeyi-halı, həm də XX əsrin ikinci yarısından XXI əsrin əvvəllərinə qədərki ümumdünya proseslərinin salnaməsidir. Heydər Əliyevin mənalı və keşməkeşli ömür yolu və müstəqil dövlətçilik idealları, mübarizəsi Azərbaycan xalqı üçün əsl milli dövlətçilik məktəbi, azərbaycançılıq dərsləridir.

Heydər Əlirza oğlu Əliyev 10 may 1923-cü ildə Naxçıvan şəhərində anadan olmuşdur. Atası Əlirza Kərbəlayi Cəfər oğlu Əliyev Bakıda və Naxçıvan şəhərində dəmiryol nəqliyyatında çalışmışdır. Anası İzzət xanım Əliyeva evdar qadın olmuş və böyük ailənin qayğısını çəkmişdir. Bu ailə Azərbaycan dövlətçiliyinə, elm, maarif və mədəniyyətimizə görkəmli simalar bəxş etmişdir. Əliyevlər ailəsini təmsil edən görkəmli elm xadimi, akademik Həsən Əliyev (1907-1993), Xalq rəssamı Hüseyn Əliyev (1911-1991), Əməkdar müəllim Şəfiqə Əliyeva (1930-2008), AMEA-nın müxbir üzvü Aqil Əliyev (1926-2006), akademik Cəlal Əliyev (1928-2016) və akademik Rəfiqə Əliyeva (1932-2017) Azərbaycanın ölkədə və onun hüdudlarından kənarda tanınan görkəmli şəxsiyyətlərindəndirlər.

Gələcəyin görkəmli dövlət xadimi Heydər Əliyevin orta məktəb dövrü haqqında az məlumat vardır. Lakin artıq məlumdur ki, Heydər Əliyev Naxçıvan şəhərindəki 1 saylı Beynəlmiləl orta məktəbdə oxumuş və burada yeddinci sinfi bitirənədək təhsil almışdır. Ulu öndərin orta məktəb illəri haqqında dediyi aşağıdakı fikirlər onun Naxçıvan şəhər 1 saylı Beynəlmiləl məktəbində aldığı təhsil və ona dərs demiş müəllimlər haqqında real təsəvvür yaradır: "Tez-tez məndən soruşurlar ki, gənc vaxtlarından ən çox hörmət etdiyiniz adamlar kimlərdir? Həmişə cavab vermişəm ki, orta məktəbdə mənə dərs deyən müəllimlər. Mənim müəllimlərim daha çox olubdur. Mənə çox müəllimlər, alimlər dərs deyibələr… Ancaq Naxçıvanda orta məktəbdə oxuyarkən müəllimlərimdən aldığım bilik, tərbiyə və təəssürat qəlbimdə daim yaşayır. O müəllimlərin hər birinin siması bu gün mənim gözümün qabağındadır".

"Hər birinin siması" onun üçün əziz olan orta məktəbin müəllimləri içərisindən Heydər Əliyev Naxçıvan şəhər 1 saylı Beynəlmiləl orta məktəbində ona Azərbaycan dili və ədəbiyyat fənnindən dərs demiş görkəmli romantik şair Hüseyn Cavidin böyük qardaşı Məhəmməd Rasizadənin xidmətlərini yüksək qiymətləndirmişdir: "Çox yaxşı müəllim idi. Son dərəcə tələbkar idi, bizi çox sıxışdırırdı, amma yaxşı da öyrədirdi. Bizə Azərbaycan dili və ədəbiyyatdan dərs deyirdi. Sonra iş elə gətirdi ki, mən uzun illər əsasən rus dilini işlətdim. Dövlət Təhlükəsizlik Komitəsində işləyəndə də, Mərkəzi Komitədə olanda da rus dili aparıcı idi. Moskvada yalnız rusca danışıb, rusca yazırdım. Əgər bütün bunlardan sonra mən Azərbaycan dilində səlis, rəvan danışmaq, yazmaq vərdişlərini yadırğamamışamsa, bunun səbəblərindən biri müəllimim Şeyx Məhəmməddən aldığım dil və ədəbiyyat tərbiyəsidir".

Heydər Əliyev 1936-1939-cu illərdə Naxçıvan Pedaqoji Məktəbində təhsil almışdır. Müəllimlik ixtisası qazanmaq üçün o, bütün fənləri dərindən öyrənmiş, müəllimlərinin və tələbə yoldaşlarının böyük rəğbətini qazanmışdır. Naxçıvan Pedaqoji Məktəbində Heydər Əliyev istedadı, mütaliəsi və bacarığı ilə tələbə yoldaşlarından fərqlənmişdir. Onunla eyni vaxtda Naxçıvan Pedaqoji Məktəbində təhsil almış Zərqələm Əliyevanın aşağıdakı sözləri Heydər Əliyevin gənclik illərindən müstəsna qabiliyyəti ilə diqqəti cəlb etdiyini göstərir: "Bizim hərbi rəhbərimiz Akim Abbasov (sonralar general-mayor oldu) … deyirdi ki, Heydər gələcəyin ən böyük hərbçisi, general, marşal olacaq. Lətif Hüseynzadə (Azərbaycan dili və ədəbiyyat müəllimi – İ.H.) isə deyirdi ki, Heydər, sən gələcəyin dahi şəxsiyyətlərindən olacaqsan, hamı səninlə fəxr edəcək. Yəni Heydər Əliyevin böyüklüyü, qeyri-adiliyi elə o vaxt da hamının diqqətini çəkirdi… Heydərdə bənzərsiz rəhbərlik, liderlik xüsusiyyəti var idi".

Naxçıvan Pedaqoji Məktəbində Heydər Əliyev müəllimlik peşəsinə yiyələnməklə bərabər, həm də dram və rəsm dərnəyində həvəslə iştirak edərək, bu sahələrdə də yüksək qabiliyyətə malik olduğunu nümayiş etdirmişdir. Onun çəkdiyi rəsmlərdən biri hazırda Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində mühafizə olunur. Naxçıvan Pedaqoji Məktəbində keçirilən rəsm müsabiqəsində Heydər Əliyev böyük rus şairi Aleksandr Puşkinin əsərlərinə çəkdiyi illüstrasiyalara görə birinci yeri tutmuşdur. Bundan başqa, Heydər Əliyev Naxçıvan Dram Teatrının rejissoru İbrahim Həmzəyevin rəhbərlik etdiyi dram dərnəyində tamaşaya qoyulmuş Xalq şairi Səməd Vurğunun "Vaqif" dramında Qacar rolunu məharətlə ifa etmişdir. Bütün bunlara görə, Ulu öndər özü də dünyagörüşünün formalaşmasında, gələcəyə baxışlarında Naxçıvan Pedaqoji Məktəbinin və orada dərs deyən müəllimlərin mühüm rol oynadığını həmişə minnətdarlıq hissi ilə qeyd etmişdir: "O dövrdə aldığım təhsil gələcək həyatının bütün mərhələlərində mənə yardım edibdir".

Heydər Əliyev Naxçıvan Pedaqoji Məktəbini fərqlənmə diplomu ilə bitirmişdir. O, Şahbuz rayonunun Qışlaq kənd məktəbinə təyinat almış, burada cəmi 2-3 ay müəllim kimi fəaliyyət göstərmişdir. Bundan sonra Heydər Əliyev 1939-cu ildə qəbul imtahanlarından əla qiymətlər alaraq, Azərbaycan Sənaye İnstitutunun (indiki Neft və Sənaye Akademiyasının – İ.H.) Memarlıq fakültəsinə daxil olmuş və ailəsinin maddi çətinliklərinə görə birinci kursu bitirib, lakin təhsilini davam etdirməyərək, Naxçıvana qayıtmışdır. O, Naxçıvan MSSR Daxili İşlər Xalq Komissarlığının 15 oktyabr 1941-ci il tarixli əmri ilə Naxçıvan Mərkəzi Dövlət Arxivinə elmi işçi vəzifəsində işə qəbul edilmişdir. Təxminən 7 aya yaxın bu vəzifədə işləyən Heydər Əliyevə Naxçıvan Mərkəzi Dövlət Arxivinin Məxfi şöbəsinin müdiri vəzifəsində işləmək etibar olunmuşdur. Az keçməmiş o, 14 iyul 1943-cü il tarixdən Naxçıvan MSRP Xalq Komissarları Sovetinin Ümumi şöbəsinin müdiri vəzifəsinə irəli çəkilmişdir.

Gənclik illərindən dövlət təhlükəsizlik orqanlarında işə başlayan Heydər Əliyev 1944-cü ilin may ayından etibarən rəsmi olaraq leytenant rütbəsi almaqla Naxçıvan MSSR Təhlükəsizlik Nazirliyində işə başlamışdır. Əməliyyat işçisi kimi o, muxtar respublikanın İranla sərhəd ərazilərinə nəzarət etmiş, həmin illərdə Cənubi Azərbaycanda gedən prosesləri izləmiş, bu sahə üzrə xüsusi tapşırıqları bacarıqla yerinə yetirmişdir. Göstərdiyi bacarıqlara görə Heydər Əliyev Naxçıvan MSSR Təhlükəsizlik Nazirliyinin şöbə rəisi vəzifəsinə təyinat almış, baş leytenant rütbəsi qazanmışdır. Peşə bacarığı və ictimai fəallığı nəzərə alınaraq, Heydər Əliyev 1945-ci ildə Kommunist Partiyası sıralarına daxil edilmişdir. O, SSRİ Dövlət Təhlükəsizliyi Nazirliyinin Leninqrad şəhərindəki Ali Əməliyyat İşçilərinin Hazırlıq Məktəbində ixtisas təhsili almış, 1950-ci ildə həmin məktəbi fərqlənmə diplomu ilə bitirmişdir. Təhsili başa çatdıran kimi Heydər Əliyev Naxçıvan MSSR Dövlət Təhlükəsizliyi Nazirliyinin 5-ci şöbəsinin rəisi olaraq fəaliyyətini davam etdirmişdir.

Xüsusi qabiliyyətləri ilə diqqəti cəlb edən Heydər Əliyev 1950-ci ilin avqust ayından etibarən mərkəzi təşkilata keçirilərək, Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Nazirliyində fəaliyyət göstərməyə başlamışdır. O, Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Nazirliyinin 2-ci şöbəsinin 6-cı bölməsinin rəisi kimi məsuliyyətli bir vəzifədə özünü əsl çekist kimi göstərmişdir. Heydər Əliyev eyni zamanda 1951-1957-ci illərdə Azərbaycan Dövlət Universitetində qiyabi yolla tarix ixtisası üzrə ali təhsil almış, universiteti fərqlənmə diplomu ilə bitirmişdir. Azərbaycan Dövlət Universitetində onunla eyni qrupda oxumuş Dövlət Məmmədovun xatirələrindən öyrənirik ki, Heydər Əliyev bu ali təhsil ocağında da "qrupun liderinə çevrilmiş, …bütün universitetdə nüfuz qazanmışdır".

Heydər Əliyev Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin məsul əməkdaşı kimi həm ölkə daxilində, həm də xarici ölkələrdə bir sıra dövlət əhəmiyyətli tapşırıqları yüksək peşəkarlıq səviyyəsində yerinə yetirmişdir. Ona görə də qısa müddətdən sonra irəli çəkilərək, 1958-ci ildə Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin Əks-kəşfiyyat şöbəsinin rəisi vəzifəsinə təyin edilmişdir. Heydər Əliyev Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsində əks-kəşfiyyat işi sahəsində mühüm dəyişiklərin edilməsinə nail olmuş, bir çox dövlət əhəmiyyətli tapşırıqları böyük bacarıqla həyata keçirərək, əsl peşəkar kadr kimi tanınmışdır. Bu məsuliyyətli sahədəki mühüm xidmətləri nəzərə alınmaqla o, 1959-cu ildə II dərəcəli "Nümunəvi xidmətə görə" medalı, 1960-cı ildə isə "DTX-nın Fəxri əməkdaşı" medalı ilə təltif olunmuşdur.

Bundan başqa, 26 may 1962-ci ildə "SSRİ-nin Dövlət təhlükəsizliyinin təmin edilməsində xidmətlərinə görə" dövrün mühüm təltiflərindən olan "Qırmızı Ulduz" ordeninə layiq görülməsi ilə onun artıq Dövlət Təhlükəsizlik Xidməti üzrə Sovetlər İttifaqı səviyyəsində yüksək professional qabiliyyətlərə malik kadr kimi qəbul olunduğunu nümayiş etdirirdi. Bunun ardınca cavan kəşfiyyatçının 1964-cı ildə Azərbaycan SSR Ali Sovetinin Fəxri Fərmanına layiq görülməsi də Heydər Əliyevin çətin və məsuliyyətli iş sahəsindəki mühüm xidmətlərinə verilən yüksək qiymətin ifadəsi olmaqla bərabər, həm də ona göstərilən etimadın ifadəsi idi.

Heydər Əlirza oğlu Əliyev 2 mart 1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini təyin olunmuşdur. Bununla Heydər Əliyev azərbaycanlıların da dövlət təhlükəsizliyi xidməti sahəsində yüksək vəzifə tutmasına yol açmışdır. O, 1964-1967-ci illərdə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin birinci müavini vəzifəsində çalışaraq, bu mühüm strukturda azərbaycanlıların şəbəkəsini genişləndirmiş və onların rolunu artırmışdır. Azərbaycan Dövlət Təhlükəsizliyi Komitəsi anti-Azərbaycan qüvvələrdən təmizlənmiş və əsl peşəkar kadrlarla möhkəmləndirilmişdir. Bu mənada, göstərdiyi xüsusi xidmətlərə görə 1964-cü ildə "Nümunəvi xidmətə görə" medalı, 1965-ci ildə isə "1941-1945-ci illər Böyük Vətən Müharibəsində qələbənin 20 illiyi" yubiley medalı ilə təltif olunması və polkovnik hərbi rütbəsi alması Heydər Əliyevin pillə-pillə yüksəlişində mühüm addımlara çevrilmişdir. SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin Moskvadakı F.Dzerjinski adına Ali Məktəbində 1966-cı ilin fevral-may aylarında rəhbər kadrların təkmilləşdirilməsi kursunda iştirak etməsi də onun daha yüksək nomenklatura üçün nəzərdə tutulduğunu büruzə verən əhəmiyyətli faktdır.

Bütün bunlardan sonra Heydər Əlirza oğlu Əliyevin 1967-ci ildə Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin sədri vəzifəsinə təyin edilməsi həm Sovet İttifaqı miqyasında və həm də respublikada onun böyük nüfuza malik olduğunu aşkar şəkildə nümayiş etdirmişdir. Xüsusən, nəzərə alsaq ki, sovet hakimiyyətinin qurulduğu dövr ərzində Heydər Əliyev Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsində sədr vəzifəsinə təyinat alan ilk azərbaycanlı idi, onda bu təcrübəli və bacarıqlı şəxsiyyətin nəyə nail olduğunu daha aydın şəkildə təsəvvür etmək olar. Heydər Əliyev Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin sədri vəzifəsinə yüksəlməsi ilə sovet hakimiyyəti illərində xalqımıza bəslənilən ehtiyatlı münasibəti aradan qaldırmağa, təhlükəsizlik xidmətinin SSRİ ilə yanaşı, respublikamızın və xalqımızın da mənafelərinə xidmət etməsinə nail olmuşdur.

Bununla Heydər Əliyevin həyatının yeni yüksəliş dövrü başlamışdır. Heydər Əliyev 1967-ci ilin mart ayında Naxçıvan MR Culfa rayonundan VII çağırış Azərbaycan SSR Ali Sovetinə deputat seçilmiş, 30 oktyabrda isə ona general-mayor rütbəsi verilmişdir. Ümumiyyətlə, 1967-ci il ərzində Heydər Əliyev "Sovet milisinin 50 illiyi" yubiley medalı, "SSRİ silahlı qüvvələrinin 50 illiyi" yubiley medalı və "DTK-nın 50 illiyi" nişanı ilə təltif olunmuşdur. Artıq Heydər Əliyev Sovet İttifaqı miqyasında xüsusi bacarıqlara malik olan siyasi-ideoloji cəhətdən möhkəm əqidəli rəhbər kadr olaraq tanınmış və yüksək dairələrdə qəbul edilmişdir.

Bütün bunlara görə, Heydər Əliyevin Azərbaycan Sovet Respublikasının rəhbərliyinə gətirilməsi həm Sovet İttifaqı miqyasında, həm də respublikada təbii şəkildə qarşılanmışdır. Məlum olduğu kimi, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 14 iyun 1969-cu il tarixdə keçirilmiş plenumunda Heydər Əlirza oğlu Əliyev Mərkəzi Komitənin birinci katibi seçilmişdir. Bununla həm Azərbaycan Sovet Sosialist Respublikasının inkişafında, həm də görkəmli dövlət xadimi olaraq Heydər Əliyevin həyatı və fəaliyyətində yeni bir mərhələ başlanmışdır. Bu, həqiqətən də "Azərbaycanın tarixində möhtəşəm bir səhifənin açılışı idi".

Azərbaycan Sovet Respublikasının rəhbəri olaraq Heydər Əliyev 5 avqust 1969-cu ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin plenumunda respublikada yaranmış problemlərə özünün sərt münasibətini bildirmiş, aydın və konkret proqramını elan etmişdir. Bu qətiyyətli mövqe nəinki SSRİ-də, geniş mənada Sovet İttifaqından kənarlarda da əks-səda doğurmuşdur.

Sovet Azərbaycanının rəhbəri Heydər Əliyev 1969-1982-ci illər ərzində respublikada siyasi-ideoloji, iqtisadi-mədəni, elmi-ədəbi sahələrdə genişmiqyaslı islahatlar həyata keçirmişdir. Nəticədə, Azərbaycanı Sovet İttifaqındakı 15 respublika arasında tutduğu axırıncı yerlərdən ən qabaqcıl respublikalardan biri səviyyəsinə çatdırmışdır. Azərbaycan geridə qalmış respublikadan beşilliklərin yekunlarına görə bir neçə dəfə Keçici Qırmızı Bayraqla təltif edilən müttəfiq respublika səviyyəsinə yüksəlmişdir. Bundan başqa, Azərbaycanda bir sıra sahələr üzrə, xüsusən kənd təsərrüfatı və sənaye sahələri istiqamətində böyük nailiyyətlər əldə olunmuşdur. Rəsmi statistikaya əsaslanan məlumatlarda da bu dövr Azərbaycanın iqtisadi cəhətdən yüksəliş və hərtərəfli inkişaf mərhələsi kimi səciyyələndirilir.

Geridə qalmış Azərbaycan məhz Heydər Əliyevin rəhbərliyinin birinci dövründə kənd təsərrüfatı sahəsindəki geriliyin aradan qaldırılması ilə bərabər, həm də əsl sənaye ölkəsinə çevrilmişdir. Tarixçilərin məlumatlarına və təhlillərinə əsasən, Heydər Əliyevin 1969-1982-ci illərdə respublikaya rəhbərliyi dövründə 250-dən çox zavod, fabrik, istehsal sexləri istifadəyə verilmiş, 690 mindən çox yeni iş yerləri yaradılmışdır. Mütərəqqi texnologiyalara əsaslanan sənaye sahələri inkişaf etməyə başlamışdır. Sənayenin maşınqayırma, kimya, neft-kimya, tikinti materialları, yeyinti sənayesi və başqa sahələrinin inkişaf imkanları çox olduğundan sərmayə qoyuluşunun 45 faizindən çoxu bu sahələrin inkişafı üçün istifadə edilmişdir.

Eyni zamanda, respublikada elm, təhsil və mədəniyyət də sürətlə inkişaf etdirilmişdir. Görkəmli dövlət xadimi Heydər Əliyevin iradəsi ilə 1978-ci ildə Azərbaycan dili Azərbaycan Sovet Respublikasının Konstitusiyasında ilk dəfə olaraq dövlət dili kimi qeyd edilmişdir. Bu, Sovet Azərbaycanının rəhbəri seçiləndən cəmi 3 ay sonra Heydər Əliyevin S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin 50 illiyinə həsr edilmiş təntənəli yığıncaqda doğma ana dilində nitq söylənməsi ilə başlanan azərbaycançılıq prosesinin uğurlu davamı idi.

Heydər Əliyev, eyni zamanda, Kreml və onun ətrafındakı siyasi qüvvələrin təzyiqlərini dəf edərək, 1982-ci ildə Nəriman Nərimanovun yalnız böyük yazıçı kimi deyil, həm də dövlət xadimi olaraq anadan olmasının 100 illik yubileyini keçirmiş, Bakıda ona əzəmətli heykəlin ucaldılmasına nail olmuşdur. Eyni zamanda, 1973-cü ildə böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 600 illiyinin ölkəmizdə geniş qeyd olunması və böyük sənətkarın 1980-ci ildə Bakı şəhərində heykəlinin ucaldılması ilə bu qüdrətli sənətkarın xalqımıza, xüsusən, yeni nəsillərə daha yaxından tanıdılması ilə bərabər, həm də uzaqdan-yaxından ona sahib çıxmaq istəyənlər birdəfəlik susdurulmuşdur.

Sovet Azərbaycanının rəhbəri Heydər Əliyev 1982-ci ildə sovet rejiminin çətin şəraitində Azərbaycan ədəbiyyatında romantizm ədəbi cərəyanının əsas yaradıcılarından biri olan, görkəmli romantik şair və dramaturq, qanlı repressiya dövründə millətçi damğası ilə Sibirə sürgün edilmiş və orada vəfat etmiş Hüseyn Cavidin nəşini Vətənə gətirməyi bacarmışdır. Bu, bütün SSRİ miqyasında Sibirin siyasi sürgünlərə aid qəbiristanlıqlarından çıxarılan ilk və son cənazə idi. Heydər Əliyev Hüseyn Cavidin vaxtilə yaşadığı Bakı şəhərindəki Azərbaycan Elmlər Akademiyası Əlyazmalar İnstitutunun binasında görkəmli sənətkarla ölkə ictimaiyyətinin, yazıçı və şairlərin, elm adamlarının vida mərasimini keçirmiş, həmin mərasimdə özü şəxsən iştirak etmişdir.

Bundan sonra Hüseyn Cavid doğulduğu Naxçıvan şəhərində torpağa tapşırılmışdır. Bu, Sovet İttifaqında baş vermiş möcüzə kimi qarşılanan hadisə idi. Həmin möcüzəni Heydər Əliyev kimi qətiyyətli, nüfuzlu, vətənpərvər və mütəfəkkir dövlət xadimi həyata keçirə bilərdi. Azərbaycan Dövlət Akademik Dram Teatrının 100 illiyinin (1973), "Azərbaycan qadını" jurnalının 50 illiyinin (1974), dahi bəstəkar Üzeyir Hacıbəyovun 90 illik yubileylərinin (1975), böyük Azərbaycan alimi və mütəfəkkiri Nəsrəddin Tusinin 780 illiyinin (1981) təntənəli şəkildə qeyd olunmaları, həmin tədbirlərdə Heydər Əliyevin hər dəfə parlaq nitq söyləməsi, ölkəmizdə azərbaycançılıq dünyagörüşünün formalaşmasına xidmət etmişdir.

*(ardı var )*

***İsa HƏBİBBƏYLİ,***
***AMEA-nın prezidenti, akademik***

# Azərbaycan–Aİ münasibətlərində iqtisadi inteqrasiya mərhələsi

**Azərbaycan ilə Avropa İttifaqı (Aİ) arasında münasibətlər strateji xarakter daşıyır. Bakı ilə Brüssel təhlükəsizlik, enerji və nəqliyyat sahələri də daxil olmaqla, siyasi dialoqun və praktiki əməkdaşlığın daha da dərinləşdirilməsinə xüsusi önəm verirlər.**



Dünya tarixin ən ciddi enerji böhranlarından biri ilə üzləşdiyi bir vaxtda Azərbaycan Aİ-nin diqqət mərkəzində daha geniş yer tutur. Son bir ay ərzində Latviya, Litva, Çexiya və İtaliya kimi üzv ölkələrin dövlət və hökumət başçılarının Bakıya səfərləri bu marağın artdığını göstərir. Görüşlər zamanı səsləndirilən bəyanatlarda Azərbaycanın Avropa üçün əhəmiyyəti xüsusi vurğulanıb.

Səfərlər yalnız üzv ölkələrin liderləri ilə məhdudlaşmayıb. Mayın 5-də Azərbaycan Prezidenti İlham Əliyev Avropa İttifaqının xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi, Avropa Komissiyasının vitse-prezidenti Kaya Kallasın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Görüş zamanı enerji, bağlantılar, təhlükəsizlik, ticarət və digər sahələrdə əməkdaşlığın perspektivləri müzakirə olunub. Tərəflər Azərbaycanın Aİ üçün mühüm tərəfdaş olduğunu vurğulayıblar.

Prezident İlham Əliyev görüşdə qeyd edib ki, Aİ Azərbaycanın əsas ticarət tərəfdaşlarından biridir və ölkəmiz Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında etibarlı tərəfdaş kimi çıxış edir. Bu kontekstdə bildirilib ki, son dövrlərdə Azərbaycan qazı Aİ-nin daha iki üzv ölkəsinə – Almaniya və Avstriyaya çatdırılıb.

Azərbaycanın Aİ-nin əsas ticarət tərəfdaşlarından biri olmasını rəqəmlərdə sübut edir. 2025-ci ildə isə Azərbaycan və Avropa İttifaqına üzv ölkələr arasında ticarət dövriyyəsinin həcmi 19,770 milyard ABŞ dolları olub. Bu, 2024-cü ildəki göstərici ilə müqayisədə 177,4 milyon ABŞ dolları və yaxud 0,9 faiz çoxdur. Hesabat ilində Azərbaycanın Aİ ölkələrinə ixracının dəyəri 0,8 faiz artaraq 16,9 milyard ABŞ dolları, idxalının dəyəri isə 1,6 faiz artaraq 2,826 milyard ABŞ dolları olub. Ötən il ərzində quruma üzv ölkələrin Azərbaycanın ümumi ixracında payı 67,66 faiz, idxalında payı isə 11,59 faiz olub.

Bu ilin I rübündə, yəni yanvar-mart aylarında Azərbaycan və Aİ-yə üzv ölkələr arasında ticarət dövriyyəsinin həcmi 4,104 milyard ABŞ dolları təşkil edib. Hesabat dövründə Azərbaycanın Aİ ölkələrinə ixracının dəyəri 3,540 milyard ABŞ dolları, idxalının dəyəri isə 564,023 milyon ABŞ dolları qeydə alınıb. Yanvar-mart aylarında Aİ ölkələrinin Azərbaycanın ümumi ixracında payı 65,53 faiz, idxalında payı isə 14,09 faiz olub.

Azərbaycanın Aİ ilə ticarət əlaqələrində enerji məhsulları həlledici yer tutur. Ölkənin Aİ-yə ixracının əsas hissəsini xam neft, təbii qaz və digər neft məhsulları təşkil edir. Bu isə Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı mühüm rolu bir daha ön plana çıxarır. Eyni zamanda, Aİ ölkələrindən Azərbaycana idxal olunan məhsulların strukturu daha çox sənaye və texnoloji xarakter daşıyır. Belə ki, idxalda maşın və avadanlıqlar, nəqliyyat vasitələri, kimya və farmasevtika məhsulları üstünlük təşkil edir.

Qeyd olunduğu kimi, energetika sahəsində əməkdaşlıq münasibətlərin əsasını təşkil edir. 2022-ci ildə Azərbaycan ilə Aİ arasında enerji sahəsində Strateji Tərəfdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb. Bu sənəd Azərbaycanın Avropanın enerji təchizatının şaxələndirilməsində oynadığı mühüm rolu bir daha təsdiqləyir. Xəzər dənizindən Avropaya uzanan Cənub Qaz Dəhlizi hazırda “qoca qitə” üçün strateji əhəmiyyət daşıyan əsas enerji marşrutlarından biri kimi çıxış edir.

Bununla yanaşı, “yaşıl enerji” sahəsində əməkdaşlıq da tərəflərin gündəliyində prioritet istiqamətlərdən biridir. Külək və günəş enerjisi də daxil olmaqla, bərpaolunan enerji mənbələri üzrə əməkdaşlığın genişləndirilməsi üçün ciddi potensial mövcuddur. Eyni zamanda, Qara dəniz sualtı kabeli layihəsi kimi elektrik enerjisi bağlantı təşəbbüsləri də strateji əhəmiyyət kəsb edir.

Bundan əlavə, Azərbaycanın Mərkəzi Asiya ilə Avropa arasında körpü rolunu oynayan əlverişli coğrafi mövqeyi ölkəni Aİ üçün xüsusilə cəlbedici edir. Son illərdə həyata keçirilən genişmiqyaslı nəqliyyat və infrastruktur layihələri bu üstünlüyü daha da möhkəmləndirib, ölkənin tranzit potensialını əhəmiyyətli dərəcədə artırıb. Xüsusilə Orta Dəhliz Avropanın Asiya bazarlarına çıxışında da mühüm alternativ yol kimi ön plana çıxır. Bu gün Avrasiyanın aparıcı nəqliyyat-tranzit qovşaqlarından birinə çevrilən Azərbaycan, eyni zamanda, Aİ-nin “Qlobal Qapılar” (Global Gateway) təşəbbüsündə də mühüm yer tutur.

Bu çərçivədə ölkənin regional bağlantılarının gücləndirilməsi və alternativ nəqliyyat marşrutlarının inkişafındakı rolu getdikcə daha da artır. “Qlobal Qapılar” Aİ-nin 2021-ci ildə irəli sürdüyü genişmiqyaslı investisiya və əməkdaşlıq təşəbbüsüdür. Məqsəd Avropa ilə dünya regionları arasında dayanıqlı, təhlükəsiz və müasir infrastruktur əlaqələri qurmaqdır.

Qeyd edək ki, “Qlobal Qapılar” təşəbbüsü çərçivəsində Azərbaycan ilə Avropa İttifaqı arasında iqtisadi əməkdaşlığın və sərmayələrin genişləndirilməsi məqsədilə İqtisadi Əməkdaşlıq üzrə Yüksəksəviyyəli İşçi Qrupunun yaradılması tərəflərin bu sahədə uzunmüddətli və strateji əməkdaşlığa sadiqliyini təsdiqləyir. Bu mexanizm investisiya mühitinin daha da yaxşılaşdırılmasına, eləcə də birgə əməkdaşlıq gündəliyinin sistemli və koordinasiyalı şəkildə idarə olunmasına xidmət edir.

Eyni zamanda, Azərbaycanın Naxçıvan bölgəsində dəmir yolu şəbəkəsinin modernləşdirilməsi istiqamətində göstərilən dəstək və Tramp marşrutu üzrə təşəbbüslərin icrası ilə bağlı əməkdaşlığa verilən önəm də məhz bu strateji yanaşmanın tərkib hissəsidir. Enerji sahəsində əməkdaşlıq “Global Gateway” çərçivəsində prioritet istiqamətlərdən biri kimi çıxış edir. İndiki mərhələdə Azərbaycanın rolu rəqəmsal bağlantıların gücləndirilməsi baxımından da xüsusi əhəmiyyət daşıyır. Fiber-optik infrastrukturun inkişafı, rəqəmsal şəbəkələrin genişləndirilməsi və regionlararası məlumat mübadiləsinin təşviqi Avropa ilə Asiya arasında dayanıqlı rəqəmsal körpünün formalaşmasına şərait yaradır.

***Musa BAĞIRLI***
***XQ***

### *Ekspert rəyi*



**Vüqar BAYRAMOV,**
**Milli Məclisin deputatı**

Avropa İttifaqı ilə Azərbaycan arasında iqtisadi əlaqələrin genişlənməsi, ticarət dövriyyəsinin artması da göstərir ki, tərəflər münasibətlərin daha da dərinləşməsində maraqlıdır. Nəzərə alsaq ki, Azərbaycanın təbii qaz ixrac etdiyi 16 ölkədən 10-u Avropa İttifaqına üzv dövlətlərdir, bu fakt ölkəmizin Avropanın enerji təhlükəsizliyində mühüm rol oynadığını təsdiqləyir. Çexiyanın da Azərbaycan qazının idxalına maraq göstərməsi bu istiqamətdə əməkdaşlığın coğrafiyasının genişləndiyini göstərir.

Hazırda bu sahədə aparılan danışıqlar onu deməyə əsas verir ki, yaxın dövrdə Avropa İttifaqına üzv olub Azərbaycan qazını almaqda maraqlı olan ölkələrin sayında artım müşahidə edilə bilər. Bu isə Azərbaycanın Avropa İttifaqı ilə iqtisadi və enerji tərəfdaşlığını daha da gücləndirən amillərdən biridir. Eyni zamanda, Azərbaycan hazırda Avropa İttifaqının mühüm enerji tərəfdaşlarından biri kimi çıxış edir.

Bu reallıq ölkənin Avropanın enerji təchizat zəncirində strateji mövqeyini daha da möhkəmləndirir. Hazırda Avropa Parlamentində fəaliyyət göstərən bəzi siyasi qrupların Azərbaycanla Avropa İttifaqı arasındakı münasibətlərə mənfi təsir göstərməyə çalışdığı da müşahidə olunur. Son dövrlərdə qəbul edilən qərəzli və reallığı əks etdirməyən qətnamələr də bunu göstərir. Lakin bütün bunlara baxmayaraq, Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlər inkişaf dinamikasını qoruyur.

Ermənistanda keçirilən “Avropa Siyasi” Birliyi Zirvəsindən sonra Kaya Kallasın Azərbaycana səfəri də münasibətlərin davamlı inkişafına verilən önəmin göstəricisidir. Son həftələrdə Avropa İttifaqına üzv bir neçə ölkənin yüksək vəzifəli rəsmilərinin Azərbaycana səfərləri də bu əlaqələrin həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə inkişaf etdiyini göstərir. Bu, xüsusilə strateji tərəfdaşlıq çərçivəsində münasibətlərin möhkəmlənməsi baxımından diqqət çəkir.

**Bakıda IV Türk Dünyası Beynəlxalq Mühəndislik Zirvəsi keçirilib. Məclis Türk dünyasında mühəndislik, texnologiya və innovasiya sahələrində əməkdaşlığın gücləndirilməsi məqsədilə təşkil olunub.**

# Bakıda Türk dünyası mühəndislik zirvəsi

## *Ortaq texnoloji hədəflər axtarışı*



TÜİB, TOBB, TÜRKSOY, TİKA, Türk Mühəndislər Dərnəyi və digər nüfuzlu qurumların tərəfdaşlığı ilə həyata keçirilən məclisdə Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Macarıstan və Şimali Kipr Türk Cümhuriyyətindən dövlət qurumlarının, akademik dairələrin və iş dünyasının nümayəndələri iştirak ediblər. Zirvədə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov, Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Konfederasiyasının prezidenti Məmməd Musayev, eləcə də Türkiyədən yüksək səviyyəli dövlət və iş dünyası nümayəndələri iştirak ediblər.

Türk Mühəndislər Dərnəyinin sədri Yaşar Yekebağcı nitqində tədbirin qısa tarixçəsinə toxunub: “İlk tədbir Ankarada baş tutub, ikincisi Türküstanda, üçüncüsü isə Kiprdə keçirilib. Dördüncü tədbirimizi bu gün Bakıda təşkil edirik. Məqsədimiz Türk dünyasına mühəndislik və texnologiya baxımından yeniliklər qazandırmaqdır. Bizim güclü bir keçmişimiz var və məhz bu gücdən ilham alaraq gələcəyə daha böyük inamla baxırıq. Türk dünyasını türk mühəndislərinin əli ilə qururuq.

Türk dünyasında mühəndislik təhsilinin vahid bir nöqtəyə gətirilməsini istəyirik. Yeni ixtisaslar üzrə əməkdaşlıq şəraitində tədrisin həyata keçirilməsini arzulayırıq. Mühəndislik sahəsi süni intellektlə birlikdə hazırda ən yüksək inkişaf mərhələlərindən birini yaşayır. Yeni istiqamətlər də məhz süni intellektin inkişafı ilə meydana çıxır. Türk dünyası olaraq bir-birimizlə əməkdaşlığa daha çox can atmalıyıq. Türk dünyasında ən vacib məsələlərdən biri elmi araşdırmaların aparılmasıdır. Genişmiqyaslı tədqiqatların həyata keçirilməsi inkişafı daha da sürətləndirir”.

Daha sonra Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov məclis iştirakçılarına KOBİA-nın fəaliyyət istiqamətləri, investorlar üçün imkan və perspektivlər haqqında məlumat veriblər, Türk dünyasında inteqrasiyanın dərinləşməsindən söz açıb: “Türk dünyasında iqtisadi inteqrasiyanın dərinləşməsi fonunda mühəndislik modelinin formalaşması və yeni texnologiyaların inkişafı üçün vaxt və münbit zəmin yaranmışdır. Məhz bu gün burada güclü iqtisadi platforma çərçivəsində bir araya gəlmişik. Ölkəmizdə yaradılan sənaye mərkəzləri və məhəllələri beynəlxalq investorların sayının artmasına təkan vermişdir. Bu müəssisələr çevik yanaşma və operativ həll mexanizmləri ilə iqtisadi sahədə mühüm rol oynayır.

Türkiyə ilə iqtisadi əməkdaşlığımız xüsusi əhəmiyyət daşıyır. Logistika və biznes nümayəndə heyətlərinin qarşılıqlı səfərləri əlaqələrimizin yeni mərhələyə yüksəlməsini təmin etmişdir. KOBİA-nın təşəbbüsü ilə Qars və Naxçıvanda Azərbaycan və Türkiyə iş adamlarının iştirakı ilə biznes forumlar keçirilmişdir. KOBİA-nın Türkiyənin tərəfdaş qurumları ilə 15 müqaviləsi və 2 niyyət protokolu mövcuddur”.

Toplantı çərçivəsində mühəndislik təhsili, müdafiə sənayesi, enerji və dayanıqlılıq, kibertəhlükəsizlik və süni intellekt mövzularında panel müzakirələri keçirildi, eyni zamanda B2B görüşlər təşkil olunub. Zirvə çərçivəsində natiqlər təşkilatçılar tərəfindən mükafatlandırılıblar.

***N.ABDALOV***
***XQ***

# Dövlət əyar nəzarəti gücləndirilir

**Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi tərəfindən dövlət əyar nəzarətinin həyata keçirilməsi ilə əlaqədar növbəti addım atılıb. Bu çərçivədə qiymətli metallardan və qiymətli daşlardan hazırlanmış zərgərlik və digər məişət məmulatlarının qanunvericiliyin tələblərinə uyğun ekspertizası, diaqnostikası, əyarlanması və damğalanması məqsədilə laboratoriya xidmətlərinin göstərilməsinə başlanılıb.**



Laboratoriyada göstərilən xidmətlər qiymətli metallardan və qiymətli daşlardan hazırlanmış zərgərlik və digər məişət məmulatlarının idxalçıları, istehsalçıları və istehlakçılarının hüquqlarının qorunmasına, habelə dövlət maraqlarının müdafiəsinə xidmət edir.

İstehsalçılar, idxalçılar, satıcılar, istehlakçılar və digər maraqlı tərəflər qiymətli metallardan və qiymətli daşlardan hazırlanmış zərgərlik və digər məişət məmulatların qanunvericiliyin tələblərinə uyğun əyarlanması və damğalanması üçün agentliyin tabeliyindəki İstehlak Mallarının Ekspertizası Mərkəzinə müraciət edə bilərlər.

Qeyd edək ki, dövlət əyar nəzarətinin həyata keçirilməsi istiqamətində laboratoriya infrastrukturunun təkmilləşdirilməsi, eləcə də yeni laboratoriyaların qurulması sahəsində agentlik tərəfindən ardıcıl olaraq işlər davam etdirilir.

***XQ***

# Xəzər sahillərində qlobal aqrobiznes müzakirələri

**Dünən Bakıda “Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) və Asiya İnkişaf Bankının (AİB) birgə təşkilatçılığı ilə 5-ci Aqrobiznesin İnkişafı Forumu keçirilib.**




Ərzaq təhlükəsizliyinin təmin edilməsi, iqtisadiyyatın şaxələndirilməsi və dayanıqlı inkişafın təşviqi istiqamətində milli aqroərzaq sistemlərinin gücləndirilməsinə dair strateji yanaşmaların müzakirəsi məqsədilə nazirlər və yüksəksəviyyəli rəsmilər üçün mühüm platforma təqdim edən toplantı çərçivəsində rəqabətqabiliyyətliliyin artırılması, ixrac imkanlarının genişləndirilməsi, habelə iqlim dəyişiklikləri və qlobal bazarlardakı dəyişkənlik fonunda dayanıqlılığın gücləndirilməsi məsələlərinə xüsusi diqqət yetirilib.

Forumda Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri Məcnun Məmmədov çıxış edərək toplantının ilk dəfə olaraq 19-cu Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı Sərgisi çərçivəsində keçirilməsinin xüsusi əhəmiyyət daşıdığını vurğulayıb. Qeyd olunub ki, regionun ən nüfuzlu aqrar sərgilərindən biri olan “Caspian Agro Expo” kimi tanınan bu genişmiqyaslı platforma artıq təkcə texnologiyaların nümayişi deyil, həm də strateji dialoq və tərəfdaşlıq üçün mühüm beynəlxalq mərkəzə çevrilib.

M.Məmmədov bildirib ki, aqrobiznesin inkişafı ölkənin aqrar siyasətinin əsas sütunlarından biri olmaqla davamlı iqtisadi artımın və kənd yerlərinin dayanıqlı inkişafının təmin edilməsində strateji rol oynayır. “Bu istiqamətdə həyata keçirilən islahatlar və dəstək mexanizmləri artıq konkret nəticələr verməkdədir. Təkcə 2025-ci ildə fermerlərə 280 milyon manatdan çox əkin subsidiyası ödənilib, on minlərlə istehsalçı dövlət dəstəyi ilə əhatə olunub. Eyni zamanda, güzəştli kredit və lizinq mexanizmləri vasitəsilə aqrar sahəyə 100 milyon manatdan artıq maliyyə resursu yönəldilib, minlərlə fermerlərin, aqrar sahibkarların fəaliyyəti dəstəklənib”.

Ölkəmizin kənd təsərrüfatında rəqəmsallaşmanın və innovasiyaların prioritet istiqamət kimi inkişaf etdirildiyini vurğulayan nazir elektron xidmətlərin genişləndirilməsi, məlumatlara əsaslanan qərarvermə sistemlərinin tətbiqi, eləcə də süni intellekt əsaslı həllərin inkişafı istiqamətində görülən işlərin əhəmiyyətini vurğulayıb.

Azərbaycan Respublikası Prezidentinin İqlim məsələləri üzrə nümayəndəsi Muxtar Babayev qeyd edib ki, hazırda kənd təsərrüfatı yalnız iqtisadi fəaliyyət sahəsi deyil, ərzaq təhlükəsizliyi və iqtisadi sabitlik üçün strateji əhəmiyyət daşıyan əsas sahələrdən biridir. Son illər dünyada iqlim və hava hadisələrinin xarakterinin dəyişdiyini diqqətə çatdıran M.Babayevin sözlərinə görə, əvvəllər bu hadisələr, əsasən, lokal və mövsümi xarakter daşıyırdısa, bu gün isə vəziyyət dəyişib və iqlim hadisələri daha tez-tez baş verir, daha güclü olur və daha geniş əraziləri əhatə edir.

Qeyd olunub ki, son 50 ildə qlobal miqyasda hava və iqlimlə bağlı fəlakətlərin sayı, təxminən, 5 dəfə artıb, sel hadisələri ən çox geniş yayılmış və ən çox təsir göstərən təbii fəlakətlərdən birinə çevrilib. Son onilliklərdə, ümumilikdə, 168 ölkədə baş vermiş 4 min 700-dən çox sel hadisəsinin 3,2 milyarddan çox insanı əhatə etdiyi, ümumi iqtisadi zərərin isə 1,3 trilyon dollara çatdığı diqqətə çatdırılıb.

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Azərbaycandakı Tərəfdaşlıq və Əlaqələndirmə Ofisinin rəhbəri Nasar Hayat hazırda dünyanın rəqəmsal inqilab dövründə olduğunu, texnoloji həllərin kənd təsərrüfatının üzləşdiyi çətinliklərin həllində mühüm amilə çevrildiyini diqqətə çatdırıb. FAO rəsmisi daha az resursla daha çox məhsul istehsal etməyin mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Asiya İnkişaf Bankının kənd təsərrüfatı, qida, təbiət və kənd yerlərinin inkişafı sektoru ofisinin direktoru Jiangfeng Zhang isə aqro-ərzaq sisteminin iqtisadi baxımdan şaxələndirilməsi, rəqabətə davamlı və inklüziv kənd təsərrüfatının inkişafını müasir dövrün əsas tələblərindən biri olduğunu vurğulayıb. O, aqrar sahənin müasir innovasiya yönümlü sahə və bu sektorda davamlı zəruri tədbirlərin həyata keçirilməsinin vacibliyinə diqqət çəkib.

Forumda Milli Məclisin deputatı və Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev, Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini Azər Bayramov, Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Samir Məmmədov, Azərbaycan Respublikası Mərkəzi Bankının sədr müavini Toğrul Əliyev və başqaları çıxış ediblər.

Rəsmi çıxışlardan sonra forum öz işini panel və dəyirmi masa müzakirələri ilə davam etdirib.

Forum çərçivəsində, həmçinin aqrar sektorda ən uğurlu bank və lizinq təşkilatları mükafatlandırılıb.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

*Biz deməsək...*

# "Azercell"in icbari "paket" xidmətləri

## *Yaxud "bülbül, üstündə də fil..."*

**Azərbaycanın aparıcı mobil rabitə operatorlarından olan "Azercell" yeni ödəmə kartı şərtləri və internet paketlərinin qiymət artımı ilə bağlı 1 iyul 2025-ci il tarixdən etibarən dəyişikliklərə başlayıb. Bu yeniliyin tətbiqi ilə həmin vaxtdan müştərilər arasında ciddi narazılıq yaranıb. Ekspertlərin fikrincə, belə bir qiymət islahatı ilə "Azercell" yeni qiymət tətbiqində balanssız nömrələrin qarşısını almaq, daha aktiv istifadəçi davranışı gerçəkləşdirmək və daha çox kontur yükləmə stimulu yaratmaq niyyəti güdüb. Yəni "pul, balans var, deməli, nömrə bəlli müddətə aktiv olacaq, əks halda, nömrə bağlanacaq" prinsipini üstün tutub.**




"Azercell"in Səbail müştəri xidmətindən bildirildiyinə görə, nömrənin aktivləşdirilməsi bir neçə mərhələdə həyata keçirilir. Birincisi, nömrə ödəniş edilmədiyi və ya uzun müddət istifadə olunmadığı üçün bağlanıbsa, yəni deaktiv vəziyyətə gətirilibsə, bu, əsasən, balansı artırdıqdan sonra xəttin açılması ilə gerçəkləşdirilir. Yəni nömrənin bərpası məqsədilə balansa ən azı 8 manat və ya daha yüksək məbləğ yüklənilir. Bu məbləğ yalnız seçilmiş tarifin aktiv edilməsi üçün istifadə olunur.

Məlumatda bu fikir bir qədər də aydınlaşdırılaraq vurğulanır ki, yuxarıda göstərilən tarixdən tətbiq olunan yeni qaydalara əsasən, yüklənilən məbləğ nömrənin aktivlik müddətinə birbaşa təsir edir, məsələn, 1 manat yükləndikdə nömrə cəmi 1 gün aktiv qalır. Buna görə də nömrənin uzunmüddətli açıq qalması üçün daha yüksək məbləğ yükləmək tövsiyə olunur.

Nömrənin SimSim xəttinin bərpasına gəldikdə isə vurğulanır ki, 1 iyul 2025-ci ildən etibarən fakturasız nömrələr, yəni SimSim yeni şərtlərin tətbiqi ilə bərpa olunur. Belə ki, SimSim xətt nömrələrinin bərpası zamanı balansa ən azı 8 AZN yüklənilməsi tələb edilir. Yüklənilən bu məbləğ seçilən tarif planının, məsələn, "Sərbəst" və ya "GəncOl" aktiv edilməsi üçün istifadə olunur. Yəni nömrənin açılması üçün tarif seçimi məcburidir, lakin əlavə internet və ya SMS paketlərini almaq da müştərinin seçimi sayılır. Tətbiq olunan mövcud qaydalara əsasən yüklənən məbləğ nömrənin aktiv qalma müddətini müəyyən edir, məsələn, 1-2 manat yüklədikdə yuxarıda xatırladıldığı kimi, nömrə cəmi 1-2 gün aktiv qalır.

Yeri gəlmişkən, "Azercell"in saytında da bu barədə məlumat yerləşdirilib. Lakin mətni oxuyan müştəri elə ilk andaca informasiyanın həddindən artıq mürəkkəb dildə hazırlandığından nömrənin hansı prinsiplər əsasında aktivləşəcəyini anlamaqda çətinlik çəkir. Müştəri xidmətlərində də bu dəyişiklik başadüşülən səviyyədə izah olunmadığından və diqqətə çatdırılan şərtlər qaneedici sayılmadığından, başqa sözlə, sosial vəziyyətə uyğun gəlmədiyindən nömrənin aktivləşdirilməsi fikrindən daşınılır.

Yeri gəlmişkən, **Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov** mobil operatorların fəaliyyəti ilə bağlı mediaya açıqlamasında bu xidmətlərlə hər hansı bir şikayətin araşdırılması zamanı qarşıya çıxan əsas çətinliklər sırasında qarşı tərəfdən eşidilən "arqumentlərin" anlaşılmadığını, ölkədə bu sahədə normal mühəndisin yoxluğunu bildirir.

E.Hüseynov daha sonra deyir: "İndiyədək istehlakçıya dəyən zərəri geri qaytarmağa nail ola bilməmişik… Müvafiq dövlət orqanına göndərdiyimiz şikayətlər oradan müvafiq mobil operatora ünvünlanıb, operator isə yenə də özünün mürəkkəb dilində cavab verib. Dövlət orqanı isə həmin cavabı "copy paste" edərək istehlakçıya göndərib və sonda da "get məhkəməyə müraciət et" deyib. Məhkəmənin özü də o dolaşıq texniki dildən baş açmayıb".

Bu məqamda müqayisə məqsədilə yeni tariflərin tətbiqindən əvvəlki vəziyyəti də xatırlatmaq yerinə düşər. Belə ki, o zaman müştəri, sadəcə, 1-2 manat balans yükləməklə bir müddət nömrəsini açıq saxlaya bilirdi. Bu isə azgəlirli, eləcə də yalnız əlaqə üçün mobil telefondan istifadə edən uşaqlı ailələr, yaşlı istifadəçilər və kənd yerlərində yaşayanlar üçün müəyyən rahatlığın gerçəkləşdirilməsi demək idi. Başqa sözlə, 5 manat ödəyib 1 ay aktiv nömrə işlətmək, yəni kiməsə zəng etməklə danışmaq müştəri məmnunluğuna real əsas yaradırdı.

Hazırda təklif olunan qaydalara görə ödənilən 5 manatla vətəndaşın nömrəsi yalnız 5 gün aktivliyini saxlayır. Balansda pul olsa belə, kiməsə zəng edib danışmaq mümkün olmur. Tarifə qoşulan müştəri isə daha ağır vəziyyətlə üzləşir. Məsələn, vətəndaş tarifə tam haqq, məsələn, 10 manat yüklədikdə, nömrə 30 gün açıq qalır. Balans 1 və ya 2 manat yükləndikdə isə heç bir resurs aktivləşilmir, nömrə də cəmi 1-2 gün açıq qalır. Tarif mövcud kimi nəzərə çarpır, gerçəklikdə isə istifadə etməyə icazə verilmir.

Beləliklə, "Azercell" tarif qaydalarını bu yöndə dəyişməklə, əgər belə demək mümkünsə, "1 manat – 1 gün" prinsipi əsasında fəaliyyət göstərməklə müştəri mənafeyinə qarşı sərt tarif siyasəti yürüdür.

Bu məqamda xatırladaq ki, "Azercell" fəaliyyətinin müxtəlif dövrlərində tarif və aktivlik qaydalarında dəyişikliklər edib. Telekom sektorunda belə dəyişikliklər şəbəkə xərclərinin artması, investisiya proqramlarının genişlənməsi, abonent başına orta gəlirin artırılması siyasətinin həyata keçirilməsi, "passiv" və ya "balanssız" nömrələrin azaldılması kimi səbəblərlə bağlı olub.

İndiki halda isə ekspertlər tərəfindən aktivlik müddətinin balans məbləğinə bağlanılmasının bazar mexanizmi baxımından qeyri-adi təcrübə olmadığı bildirilir. Eyni zamanda, "1 manat – 1 gün", yaxud "5 manat - 5 gün" aktivlik mexanizminin tətbiq olunması klassik "balansdan asılı aktivlik müddəti" modeli adlandırılır. Bu modelin bir çox ölkələrdə əvvəlcədən ödənişli (prepaid) sistemlərdə mövcudluğu vurğulanır.

Göründüyü kimi, "Azercell"in tətbiq etdiyi "balans – aktivlik" modeli abunəçinin müəyyən məbləğdə vəsait yükləməsi müqabilində nömrəsinin müəyyən gün sayı qədər aktiv qalması anlamına gəlir. Bu model operatorlara passiv nömrələrin sayını azaltmağa, "ölü nömrələr" probleminin həllini gerçəkləşdirməyə, şəbəkə resurslarını optimallaşdırmağa, abunəçi başına orta gəliri artırmağa imkan verir. Eyni zamanda, xidmət portfelini paket əsaslı sistemə yönəldir.

Burada, ilk baxışda, sözügedən mexanizmdə qeyri-adi bir vəziyyət nəzərə çarpmır. Narahatlıq doğuran məqam isə, əslində, tətbiqin sərtlik dərəcəsidir. Başqa sözlə, sosial həssas qruplar üçün təsir gücünün nəzərə alınmamasıdır. Çünki əvvəlki modeldə minimum balans yükləməklə nömrəni daha uzun müddət açıq saxlamaq mümkün idi. Bu, xüsusilə yuxarıda vurğuladığımız kimi, azgəlirli ailələr, yalnız əlaqə üçün nömrə saxlayan istifadəçilər, yaşlı şəxslər, kənd yerlərində yaşayan abonentlər üçün əlverişli mexanizm sayılırdı.

Yeni qaydalar isə daha aktiv istifadə və ya aylıq paketə tam qoşulma modelini təşviq edir. Əgər kiçik məbləğli yükləmələr, əslində, istifadə hüququ yaratmırsa, bu, sosial ədalət və rəqəmsal inklüzivlik baxımından suallar doğurur. Bu baxımdan, dəyişiklik kommersiya baxımından izaholunandır. Lakin unutmayaq ki, bazar iqtisadiyyatında reputasiya və müştəri məmnunluğu da uzunmüddətli kapital hesab olunur. Amma əgər tarif dəyişiklikləri müqavilə şərtlərinə uyğundursa, əvvəlcədən ictimaiyyətə elan olunubsa, istehlakçı hüquqlarını pozmursa, o zaman hüquqi problem yaranmır. Lakin sosial rezonans indiki kimi genişdirsə, bu, sektor üzrə daha balanslı tənzimləmə mexanizminə ehtiyac duyulduğunu aydın nəzərə çarpdırır.

Bəs bu vəziyyətdə kompromis mümkündürmü? Sualın cavabı ilə bağlı ekspertlər qeyd edirlər ki, burada əsas məsələ bazar mexanizmi ilə sosial məsuliyyət arasında tarazlığın tapılmasıdır. Mümkün həll variantları isə sosial həssas qruplar üçün minimum aktivlik paketinin hazırlanması, aşağı məbləğli yükləmələrə daha uzun passiv aktivlik müddəti müəyyənləşdirilməsi, alternativ "yalnız qəbul üçün açıq nömrə" modelinə üstünlük verilməsi, tarif dəyişiklikləri ilə bağlı daha şəffaf kommunikasiya qurulmasıdır.

Ekspertlər bildirirlər ki, rəqəmsal iqtisadiyyatın inkişaf etdiyi indiki şəraitdə telekommunikasiya şirkətlərinin strateji yanaşması gəlir əldə etməklə bərabər, eyni zamanda, sosial etimad üzərində qurulmalıdır. Əks halda, qısamüddətli maliyyə qazancı uzunmüddətli reputasiya itkisinə çevrilə bilər. Lakin burada iki mühüm məsələ var. Birincisi, əgər balansda pul olduğu halda zəng etmək mümkün deyilsə, bu, artıq "aktivlik"lə "istifadə hüququnun" texniki ayrılması deməkdir. İkincisi, əgər tarif yalnız tam aylıq ödənişlə işlək olursa, qismən balans isə faktiki hüquq yaratmırsa, bu, istehlakçı baxımından sərt model sayılır.

Fikrimizcə, vurğulanan sonuncu tarif siyasəti sosial-iqtisadi cəhətdən inkişaf etmiş dövlətlərdə bəlkə də məqbul sayılır. Lakin əhalinin böyük bir hissəsini sosial həssas qruplar təşkil edən Azərbaycan kimi ölkələrdə bu prinsip, yəni tətbiq mexanizminin sərtliyi ədalətsiz yanaşma kimi dəyərləndirilir. Başqa sözlə, belə bir tarif siyasətinin əhalinin həssas təbəqəsi üçün nə demək olduğu yaxşı bilinir. Çünki bu qrup insanların nömrənin internetdən daha çox yalnız əlaqə üçün saxlanıldığını "Azərsell" də yaxşı bilir. Axı adıçəkilən şirkətin tətbiq etdiyi bu yeni model minimum yükləmə ilə nömrəni uzun müddət açıq saxlamağa imkan vermirsə, bu, həqiqətən də, sosial baxımdan ciddi narahatlıq doğurur. Həm də "Azərsell"in özünü sosial infrastruktur saydığı bir halda, belə bir siyasəti heç cür başa düşmək, anlamaq mümkün olmur.

Lakin bu məqamda bəzi ekspertlərin "Azərsell" təkcə müştərini deyil, özünü də düşünür", başqa sözlə, "şirkət kommersiyayönlü qurumdur və burada əsas məqsəd mənfəətdir" fikri ilə razılaşmırıq. Lakin o da həqiqətdir ki, uzunmüddətli bazar strategiyası hər zaman müştəri məmnunluğu ilə balanslaşdırılır. Amma sözügedən dəyişiklik ciddi narazılıq doğurursa, təbii ki, yuxarıda vurğuladığımız kimi bu, reputasiya riski də yaradır.

**Nəhayət, bütün bunlar sovet dövrünün bir tele-yumor səhnəciyini yada salır. Zoomağazada oğlunun ad gününə bülbül hədiyyə etmək istəyənə quşun üstündə fil, arvadına pişik almaq istəyənə əlavə olaraq gürzə, dostuna it bağışlamaq arzusunda olana həm də dəvə almaq təklif edilir. Mübahisələr başlanılsa da, qayda dəyişmir. İndi ay ərzində 1-2 manatlıq danışığa imkanı çatan pensiyaçıya 12-15 manatlıq "paket" təklifi həmin yumor səhnəsini yada salır.**

***Vaqif BAYRAMOV***
***XQ***

# Monqolustanın baş prokuroru Azərbaycanda

**Monqolustanın baş prokuroru Jarqalsaikxan Banzraqın rəhbərlik etdiyi nümayəndə heyəti Kamran Əliyevin dəvəti ilə ölkəmizdə rəsmi səfərdədir.**

Baş prokuror Kamran Əliyevlə monqolustanlı həmkarı arasında baş tutan görüş zamanı qonaqlara ölkəmizin prokurorluq orqanlarının fəaliyyətinin rəqəmsallaşdırılması və yeni hüquq institutlarının tətbiqi istiqamətində görülən işlər barədə ətraflı məlumat verilib.

Görüşdə cinayətkarlığa qarşı mübarizə sahəsində əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılıb, ekstradisiya, hüquqi yardım, prokurorların təlimi və digər istiqamətlər üzrə əlaqələrin davam etdirilməsi barədə razılıq əldə olunub. Bundan başqa, görüş zamanı iki ölkənin prokurorluqları arasında hüquqi əməkdaşlığın möhkəmləndirilməsi, mövcud əlaqələrin gələcəkdə daha da intensivləşdirilməsi məqsədilə Anlaşma Memorandumu imzalanıb.



Görüş zamanı Jarqalsaikxan Banzraqa iki ölkənin prokurorluq orqanları arasında əməkdaşlığın inkişafına verdiyi töhfəyə görə təltif olunduğu "Azərbaycan Prokurorluğunun 100 illiyi" Azərbaycan Respublikasının yubiley medalı təqdim edilib.

***XQ***

## *XQ-yə yazırlar*

**Hörmətli oxucular! Son günlər redaksiyamıza ünvanladığınız məktub və şifahi müraciətlər əsasında "XQ-yə yazırlar" rubrikasını bərpa etmək qərarına gəlmişik. Sizin irad, təklif və şikayətlərinizi dərc etməkdə məqsədimiz problemləri ictimailəşdirməklə onların müsbət həllinə nail olmaqdır.**



Ötən əsrin sonlarına qədər oxuculardan redaksiyanın poçtuna qalaq-qalaq məktublar daxil olardı. Etiraf edirik ki, indi onların sayı kəskin azalıb. Amma ara-sıra oxucular onları narahat edən bir çox məsələlərlə bağlı irad və təkliflərini yazılı surətdə bildirirlər.

Yeri gəlmişkən, bəzi vətəndaşlar üzləşdikləri problemlərlə bağlı gileylərini redaksiyamıza "Votsap", eləcə də digər sosial şəbəkələr vasitəsilə ünvanlayırlar. Bütün hallarda mahiyyət dəyişmir. Siz istər məktublar, istərsə də onlayn yolla bizə müraciət edə bilərsiniz. Bu gün isə bu müraciətlərdən 3-nü dərc edirik.

### Şəhər ümumi evimizdir...

**Bu günlərdə yolum Dənizkənarı bulvara düşmüşdü. Xəzərin qucağına sığınan bu əsrarəngiz məkanı gəzdikcə-gəzir, gah dənizə, gah da İçərişəhərə tərəf boylanıb buradakı gözəlliklərdən zövq alırdım.**

Həqiqətən, bizim bulvar çox gözəldir. Son illər burada tər çiçəklərlə dolu çoxlu güllüklər salınıb, bəzi yerlərdə rəngarəng dibçək gülləri düzülüb. Al, bəyaz, sarı, çəhrayı güllər bulvara xüsusi təravət bəxş edir.

İnsafən, kommunal xidmətin əməkdaşları ərazini təmiz saxlamağa çalışırlar. Amma di gəl ki, bəzi sakinlər, elə bil, buradakı səliqə-sahmana qənim kəsiliblər. Əvvəlcə 2-3 nəfər cavan oğlanın bulvar boyu gəzərək əllərindəki kiçik paketlərdəki tumu çırtlayıb qabığını yerə tullamasını görəndə təəccüb etdim. Sonra gördüm ki, tum çırtlayıb yerə atanlar çoxdur. Ən pisi isə odur ki, tum çırtlayanlar təkcə uşaq, yeniyetmə və gənclər deyillər. Onların arasında, hətta orta və ahıl yaşda olan adamlara da təsadüf olunur.

Bu, ən azı insafsızlıqdır! Cənablar, tumu bir qaba yığıb zibil qutusuna atın! Bulvarın hər yerində kifayət qədər zibil qabları var. Biz şəhərimizi təmiz saxlamasaq, əcnəbi qonaqlar barəmizdə nə düşünərlər? Təmizik axı həm də sağlamlıq deməkdir.

*Amaliya ZALIQIZI,*
*şəhər sakini*

### Siz ey diqqətli cavanlar...

**Mən pensiyaçıyam. 70-dən artıq yaşım var. Avtobusdan həftədə 2-3 dəfə istifadə etməli oluram. Qeyd etmək lazımdır ki, avtobuslar üçün xüsusi hərəkət zolaqlarının yaradılması nəqliyyatın işini xeyli yaxşılaşdırıb.**

Amma bir çox yeniyetmə və cavanların avtobusda ayaq üstə qalan yaşlı adamlara yer verməmələri məni narahat edir. Bəzilərinin başı guya telefondakı oyunlara qarışır, bir başqaları isə özlərini görməzliyə vururlar. Hətta az-az hallarda olsa da, başlarının üstündə dayanan qocaları hirsli baxışları ilə qəzəblə süzənlər də tapılır.

Belə hallarda yadıma 20-25 il əvvəlki dönəmlər düşür. O vaxtlar cavanlar avtobus salonlarında qocaları görəndə dərhal yerlərindən sıçrayıb onlara lütfkarcasına yer verərdilər. İndi belələrinin sayı, təəssüf ki, durmadan azalır.

Bu məsələni televizya verilişlərində də tez-tez müzakirə etmək lazımdır. Hətta ara-sıra reydlər keçirib tənqidi süjetlər də göstərmək olar. Unutmaq olmaz ki, bizim xalq hər zaman böyük-kiçiyə diqqət göstərib. Bu gözəl ənənəni davam etdirmək çox vacibdir.

*Məmmədəli HÜSEYNOV,*
*təqaüdçü*

### Sumqayıtın şəfqətli həkimləri

**Hörmətli redaksiya! Mən İkinci Qarabağ müharibəsinin 3-cü qrup qazisi Emin Səfərovun həyat yoldaşıyam. Özüm də bir neçə il əvvəl beyin infarktı keçirdiyim üçün II qrup əliləm. İki övladımız var. Qızım Aygül artıq 2-ci ildir ki, Bakıxanov qəsəbəsində yerləşən Bakı Neft-Qaz Kollecində istilik mühəndisliyi ixtisası üzrə təhsil alır. Oğlum Adəmin isə 9 yaşı var.**

Bu məktubu yazmaqda məqsədim var. Mən özümün və ailə üzvlərimin səhhətində yaranan problemlərlə bağlı Sumqayıt şəhərindəki Şəfəq qəsəbəsində yerləşən 3 saylı tibb məntəqəsinə tez-tez müraciət etməli oluram. Hər dəfə də məntəqənin baş həkimi Leyla Məmmədovanın özündən və burada çalışan həkimlər – Yasin Quluzadə, Ülvi Umudlu, Rasimə Baxışova, Dürdanə Mürsəliyevadan, eləcə də tibb bacıları Şuşa İmayılova, Əfsanə Cəfərova, Lalə Həsənova və feldşer Ramin Abdullayevdən böyük diqqət və qayğı görürəm. Bu insanların bizə şəfqətli münasibəti səhhətimizə acı həblərdən heç də az kömək etmir. Sağ olsunlar!

Qeyd edim ki, təkcə bizim ailə deyil, qəsəbədə yaşayan, demək olar ki, bütün sakinlər 3 saylı məntəqənin fədakar tibb heyətindən yerdən-göyə qədər razıdırlar. Allah şahiddir ki, onlar bütün pasiyentlərə, xüsusilə də həssas təbəqədən olan insanlara – qazilərə və şəhid ailələrinə öz doğma bacı-qardaşları kimi sayğı göstərirlər.

*Pərvanə SƏFƏROVA,*
*Sumqayıt sakini*

***Çapa hazırladı:***
***Məsaim ABDULLAYEV***
***XQ***

*Təqvim yada salır*

# Şuşa, biz səni mədəniyyət paytaxtımıza çevirmişik

*Bu şəhərin yaşatdığı dəyərlər Türk-islam dünyası üçün də üstün önəm daşıyır*

**Azərbaycanın şanlı zəfəri, ərazi bütövlüyünün tam bərpası çoxəsrlik dövlətçilik tariximizin ən parlaq və qürurverici hadisələrindən biri kimi yaddaşlara həkk olundu. 2020-ci ildə Müzəffər Ali Baş Komandan İlham Əliyevin dəmir iradəsi, qətiyyətli liderliyi və rəşadətli Azərbaycan Ordusunun misilsiz qəhrəmanlığı ilə qazanılan bu tarixi qələbə milli ləyaqətimizin, dövlət suverenliyimizin və ədalətin təntənəsidir. Azərbaycan haqq savaşında qalib çıxaraq illərin həsrətinə son verdi. Yurd yerlərimizə həyat, nur və şəfəq qayıtdı.**



O yurdlar ki, illərlə erməni vandalizminə məruz qalmış, şəhərləri dağıdılmış, kəndləri viran edilmişdi. Bu gün həmin torpaqlarda yenidən həyat canlanır, şəhər və kəndlərdə yeni infrastrukturlar qurulur, Böyük Qayıdışla canlanan torpaqlar doğma sakinlərinə qucaq açır. Tarixi zəfərimizin ən unudulmaz anı isə Şuşanın işğaldan azad olunması və 2021-ci il mayın 7-də Prezident İlham Əliyevin Sərəncamı ilə Azərbaycanın mədəniyyət paytaxtı elan edilməsidir.

Təbiəti, coğrafi mövqeyi, yerüstü maddi-mənənəvi dəyərləri ilə bütöv bir abidəyə, nadir memarlıq qoruğuna, ümummilli sərvətə çevrilmiş bu şəhərin işğal günündən 29 il, azad edilməsindən isə 5 ay keçmiş imzalanmış bu tarixi sənədlə tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi dolğun mədəni həyatına qovuşması, eləcə də Azərbaycanın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin parlaq incisi kimi beynəlxalq aləmdə təbliği məqsədilə Qarabağ feodal dövlətinin paytaxtı olmuş Şuşa müstəqil Azərbaycanın mədəniyyət paytaxtı elan edildi.

Bu qərar Şuşaya verilən tarixi, mənəvi və mədəni dəyərin bariz nümunəsidir. Əsrlər boyu Azərbaycanın musiqi, ədəbiyyat, incəsənət və xalçaçılıq beşiyi adlandırılan Şuşa "Kiçik Paris", "Qafqazın sənət məbədi", "Şərqin konservatoriyası" kimi adından söz etdirmiş və Bülbül, Üzeyir Hacıbəyli, Xurşidbanu Natəvan, Xan Şuşinski kimi korifeylər yetişdirmişdir. Şuşa milli ruhun və sənət yaddaşının məbədi, incəsənət tariximizin salnaməsidir.

Əsası Pənahəli xan Sarıcalı-Cavanşir tərəfindən qoyulan Şuşa şəhəri Azərbaycanın qədim və strateji əhəmiyyətli bölgələrindəndir. Şəhərin ilk adı xanın şərəfinə "Pənahabad" qoyulsa da, bəzi mənbələrə əsasən, qayalıqların dik və iti olması səbəbindən "Şişə", daha sonra "Şuşa" adlandırılıb. Digər versiyaya görə isə şəhərin adı "şüşə" sözündən yaranıb. Belə ki, Şuşa bulaqlarının suyu o qədər şəffaf və təmiz olub ki, sakinlər onu şüşə ilə müqayisə ediblər.

1795-ci ildə Şuşa Ağa Məhəmməd şah Qacarın hücumuna məruz qalıb, o, şəhəri mühasirəyə alaraq İbrahimxəlil xanın təslim olmasını tələb edib. Şəhərin adının "şüşə" anlamı burada da bədiilik qazanıb. Belə ki, Qacara saray şairi tərəfindən yazılan məktubda belə bir beyt var idi: "Fələyin mancanağından bəla daşları yağır, sən isə əbləhcəsinə şüşə içərisində oturmusan?" Misraların qarşılığında yazılan məktub isə Şuşanın müqavimət ruhunun əksi idi. Qarabağ xanının vəziri Molla Pənah Vaqif cavab məktubunda yazırdı: "Əgər məni qoruyan mənim tanıdığımdırsa, şüşəni daş içərisində də salamat saxlayar". Vaqifin beyti Ağa Məhəmməd şahı qəzəbləndirir və o, top atəşlərini davam etdirmək əmrini verir. Lakin yenə heç nə alınmır. Şuşanın 33 günlük mühasirəsi qalanın müdafiəçilərini sarsıtmır və şah məcbur olub mühasirəni dayandıraraq, Gürcüstana yola düşür.

Molla Pənah Vaqifin misralarında Şuşa sərt qaya içində parlayan inci, ləl-cəvahirat kimi də təqdim olunur:

***"Məkan tutdisə Vaqif, yox əcəb,***
***bu Şişə dağında,***
***Məqami ləli-gülrəngin***
***miyani-səngi-xaradır"***

Zamanın sərt sınaqlarından, siyasətin təlatümündən və mühasirələrdən salamat çıxan şəhərdə XVIII-XIX əsrlərdə 300 tarixi, o cümlədən respublika və beynəlxalq miqyaslı 23 abidə, 550 qədim yaşayış binası, 870 metr uzunluğunda bərpa edilmiş qala divarı mövcud idi. Şuşanın cənubundakı Cıdır düzü isə həm təbiət möcüzəsi, həm də ictimai-mədəni hadisələrin mərkəzi kimi tanınırdı.

Qafqazın ən böyük xalçaçılıq mərkəzi burada yerləşirdi və sənət sahəsində əldə edilən nailiyyətlər şəhərin ticarət və sənaye potensialını artırırdı. Şəhər zəngin təbii ehtiyatlarla – üzlük daş yataqları, Keçəldağ gil ehtiyatları, şirin su mənbələri, eləcə də Şirlan və Turşsu kimi müalicəvi mineral sularla da seçilirdi. 450 hektar ərazini əhatə edən Daşaltı Dövlət Təbiət Yasaqlığı 1988-ci ildə yaradılmış və bu ərazi Şuşa ilə Əsgəran bölgələrindəki nadir təbiət komplekslərini qorumaq məqsədi daşıyırdı.

Şuşa təmiz havası, müalicəvi iqlimi və unikal florası ilə kurort şəhərləri sırasında özünəməxsus yerə malik idi. Yalnız burada bitən Xarıbülbül çiçəyi formasına görə bağrı yarılmış bülbül siluetini xatırladırdı. Turşsu, Səkili, İsa və Şamil bulaqları, eləcə də Cıdır düzü həm yerli əhalinin, həm də gələn qonaqların ən çox üz tutduğu istirahət məkanları idi. Şuşanın 40 kilometrliyində, Laçın yolu üzərində yerləşən və sanatoriya zonasını təşkil edən Turşsu profilaktik və müalicəvi vannaları ilə şöhrət qazanmışdı. Cıdır düzünün qərb hissəsində isə, sanki, torpağa sancılmış mıxları xatırladan üç təpədən ibarət Üçmıx dağı ucalırdı. Şuşaya gələn turistlər bu yerlərə seyrə çıxar, təbiətin bu bölgəyə bəxş etdiyi gözəlliklərə valeh olardılar. Hər il may ayında Cıdır düzündə keçirilən Xarıbülbül festivalı isə bu füsunkar mənzərəni mədəniyyətin ahəngdar sədaları ilə tamamlayırdı.

Dahi Azərbaycan şairi Səməd Vurğun və görkəmli rus şairi Sergey Yeseninin Şuşa haqqında oxşar fikirləri var. Səməd Vurğun yazırdı ki, Azərbaycanın tanınmış müğənni və musiqiçilərinin çoxu Şuşadan çıxıb. Yesenin yazırdı: "Əgər oxumursansa, deməli, şuşalı deyilsən". Bəlkə də buna görə deyiblər ki, Şuşada körpələr beşikdə belə muğam üstündə ağlayır .

Şuşada çoxsaylı ədəbi və musiqi məclisləri fəaliyyət göstərmişdir. Şair, rəssam və musiqişünas Mir Möhsün Nəvvab (1833–1918) Şuşada anadan olmuş, ömrünü bu şəhərdə keçirmiş və burada da dünyasını dəyişmişdir. O, Azərbaycan ədəbiyyatı, elmi və incəsənətinə dəyərli töhfələr vermiş, Gövhərağa məscidinin divar naxışlarının işlənməsində böyük zəhmət sərf etmişdir.

XIX əsrin ikinci yarısından etibarən Şuşada musiqi məclislərinin təşkili geniş vüsət almışdır. Xurşidbanu Natəvanın rəhbərlik etdiyi "Məclisi-üns" ("Dostluq məclisi") və Mir Möhsün Nəvvabın təşkil etdiyi "Məclisi-fəramuşan" ("Unudulmuşlar məclisi") xüsusi şöhrət qazanmışdır. Klassik Şərq musiqisinin görkəmli nümayəndəsi Xarrat Qulu Məhəmməd oğlunun Şuşada yaratdığı musiqi məclisi haqda maraqlı məlumatlar günümüzədək gəlib çatmışdır. Şəhərdə Şuşa Dövlət Dram Teatrı, Azərbaycan Dövlət Qarabağ Tarixi Muzeyi, Şuşa Tarix Muzeyi, həmçinin Üzeyir Hacıbəylinin, Bülbülün və Mir Möhsün Nəvvabın ev-muzeyləri, Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinin Şuşa filialı, Dövlət Rəssamlıq Qalereyası, musiqi məktəbləri və kitabxanalar fəaliyyət göstərmişdir.

XVIII əsrin ikinci yarısından Şuşa musiqi mərkəzinə çevrilmişdir. Məlahətli səsi və böyük sənəti ilə Yaxın Şərqdə məşhur olan xanəndələrdən Hacı Hüsü, Məşədi İsi, Keştazlı Həşim, Əbdülbaği Zülalov (Bülbülcan), Cabbar Qaryağdıoğlu, Məşədi Məmməd Fərzəliyev, Keçəçioğlu Məhəmməd, Segah İslam, Zabul Qasım, Malıbəyli Həmid, Musa Şuşinski, Məcid Behbudov, Mütəllim Mütəllimov və başqaları Şuşanın yetirdiyi məşhur sənətkarlardır. Azərbaycan peşəkar musiqisinin banisi, dahi bəstəkar Üzeyir bəy Hacıbəyli (1885-1948) Şuşanın dünya şöhrətli yetirmələrindəndir. O, Azərbaycan opera musiqisinin banisi kimi tanınmaqla yanaşı, görkəmli dramaturq, pedaqoq, musiqişünas kimi də ad qazanıb.

Şuşada gözəl tar, kamança və qarmon çalanlar da yetişib. Tanınmış tarzən Sadıqcan, Məşədi Zeynal, Məşədi Cəmil Əmirov, Qurban Pirimov və başqaları əvəzsiz sənətkarlar kimi tanınıb. Mədəniyyət beşiyi olan bu şəhərin ab-havası məşhur yazıçı Aleksandr Dümanın "Qafqaz səfəri" əsərində də öz əksini tapıb. Kitabda bu yerlərin gözəlliyindən, xalqımızın qonaqpərvərliyindən, Qarabağ xanlığından, o dövrün tanınmış şairəsi Natəvandan bəhs edilir. Şuşanın abidələr şəhəri olduğunu söyləyən ulu öndər Heydər Əliyev bu ecazkar məkanın Azərbaycan üçün müstəsna əhəmiyyətini yüksək qiymətləndirərək bildirmişdir: "Şuşasız Qarabağ, Qarabağsız isə Azərbaycan yoxdur".

28 il ərzində Şuşa dağlarının başı dumanlı, doğma sakinlərin qəlbi yaralı idi. Sarı bülbülün səsi kəsilmiş, xarıbülbülün boynu bükülmüşdü. Cıdır düzü düşmən tapdağı altında inləyirdi. Bülbülün, Üzeyirin, Natəvanın güllələnmiş heykəlləri öz xilaskarını gözləyirdi. Nəhayət, o müqəddəs gün gəldi. 2020-ci ilin rəşadətli zəfəri ilə bütün ərazilərimiz kimi Şuşa da əsarətdən qurtuldu. Azərbaycan əsgərinin mərdliyi, xalqın iradəsi və Ali Baş Komandanın qətiyyəti sayəsində noyabrın 8-də Şuşa işğaldan azad edildi.

Bu gün Şuşa məscidlərində azan səsləri ucalır, Cıdır düzündə Qarabağ atlarının nərıltisi eşidilir. Sarı bülbül azadlığın nəğməsini, qayıdışın sevincini oxuyur. Xarıbülbül isə çiçək açır.

***Fidan ƏLİYEVA***
***XQ***

# Ulu öndər və milli elmin tərəqqisi

**Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü münasibətilə AMEA-nın Gəncə Bölməsində "Azərbaycan elminin beynəlxalq müstəvidə tanıdılması: Yeni çağırışlar və strateji istiqamətlər" mövzusunda elmi-praktik seminar keçirilib.**





Elmi məclisdə açılış nitqi ilə çıxış edən bölmə sədri, akademik Fuad Əliyev mövzunun əhəmiyyətini vurğulayaraq bildirib ki, belə müzakirələr ölkədə elmin inkişafına və beynəlxalq elmi mühitə inteqrasiyanın gücləndirilməsinə xidmət edir. O bildirib ki, elm adamlarının indiki əlamətdar tarixdə – ümummilli lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü ərəfəsində keçirilir. Ulu öndərin Azərbaycanın davamlı inkişafı üçün müəyyənləşdirdiyi strategiyanın tərkib hissəsi kimi, bugünkü seminar elmimizin tərəqqisinə yeni töhfə vermək məqsədi daşıyır.

Seminarda müxtəlif məruzələr dinlənilib. Xəyalə Məmmədova elmi nəşrlərin beynəlxalq standartlara uyğunlaşdırılması və indeksləşmə strategiyaları barədə geniş məlumat verib. O, "Redaktorluq məktəbi" layihəsinin elmi jurnalların keyfiyyətinin artırılmasında mühüm rol oynadığını qeyd edib. Müzakirəyə onlayn qoşulan türkiyəli ekspert Gökmen Kılıçoğlu isə elmi jurnalların idarə olunması və nəşr menecmenti sahəsində beynəlxalq təcrübədən bəhs edib.

Seminar çərçivəsində AMEA nəşrlərinin beynəlxalq elmmetrik bazalara inteqrasiyası istiqamətində görülən işlər barədə də məlumat verilib. Qeyd olunub ki, elmi məqalələrə DOI identifikatorlarının verilməsi, eləcə də beynəlxalq platformalarla əməkdaşlıq bu sahədə mühüm irəliləyişlərə səbəb olub.

***Hamlet QASIMOV,***
***XQ-nin Gəncəbasar müxbiri***

*Unutsaq, unudularıq*

# Zamanın yaddaşından boylanan ziyalı

**Bəzən zaman susur, illər ötür, yollar dəyişir, amma əməlləri ilə adını tarixə yazdıranlar unudulmurlar. Onlar yaddaşın ən dərin qatlarında kök atır, xatirələrdə boy verir, nəsillərin yaddaşında yaşayırlar. Yurdsevər müəllim və tanınmış ədəbiyyatşünas alim Əliyar Məhəmməd oğlu Qarabağlı da belə simalardan biridir. O, bir məktəb, bir düşüncə, bir işıq idi.**




Onun adı çəkiləndə təkcə bir alim deyil, sinif otağında səssizcə lövhəyə yazı yazan müəllim, kənd uşaqlarının gözündə ümid yandıran maarifçi, auditoriyada tələbələrə düşünməyi öyrədən bir ustad canlanır. Xəzər Universitetində alimin 125 illiyinə həsr olunmuş məruzələrdə də bu barədə danışıldı.

Hər şey bir kənddən – Lejbədin kəndindən, dağların qoynunda, küləklərin pıçıldadığı, çayların öz nəğməsini oxuduğu bir yurdda başladı 1921-ci ilin sərt, sarsıntılı günlərində, həyatın qarışıq və qeyri-müəyyən olduğu bir zamanda 20 yaşlı bir gənc bu kənddə bir çıraq yandırdı. Bu, bir məktəb, əslində, bir ümid idi.

Kəndin bir küncündə yerləşən sadə bir binada, bəzən torpaq döşəmədə, bəzən soyuq divarlar arasında uşaqlar ilk dəfə hərflərlə tanış olurdu. Əliyar müəllim onların qarşısında dayananda, sadəcə, dərs demirdi, həm də uşaqların gələcəyini qururdu.



Təhsilini Qazax seminariyasında davam etdirən Əliyar Qarabağlı məktəb mühitində yeni bir nəfəs, yeni bir canlanma yaradırdı. O, kənd uşaqlarının gözündə məktəbi təkcə oxu-yazı yeri deyil, gələcəyə açılan bir qapı kimi canlandırmağa çalışırdı. Hər dərsində bir işıq vardı, hər sözündə bir ümid. O işıq tədricən uşaqların baxışına da hopur, onların dünyasını dəyişirdi.

Daha sonra Bakıya yol alan Əliyar Qarabağlı pedaqoji təmayüllü məktəbi və texnikumu bitirir, təhsilini Azərbaycan Pedaqoji İnstitutunda davam etdirir. Tozlu küçələr, dar otaqlar, yorğun gecələr, ağır gündüzlər… Şəhərin nəfəsi sərt idi, həyat isə daha sərt.

Yataqxana yox idi, pul çatmırdı, amma içində oxumaq, öyrənmək, yetişmək, yaratmaq yanğısı vardı. O, gündüzlər işləyir, gecələr isə kitabların işığında özünü axtarırdı. Bəzən bir tikə çörəyə möhtac qalırdı. Çox ağır dövr idi. Atası Məhəmməd kişi qolçomaq kimi həbs edilmiş, sonra güllələnmişdi. Amma Əliyar Qarabağlı ruhdan düşmədi. Oxudu, çətinliklərə dözdü. Bəlkə də elə buna görə sonralar deyirdi ki, müəllimlik kitabdan yox, həyatdan başlayır. Çünki o, həyatı acı ilə, çətinliklə yaşamışdı.

Nəhayət, çox çətinliklə iki aylıq məzuniyyətə getmiş bir müəllimin yerinə işə düzəlməsi onun üçün həm xilas, həm də yeni başlanğıc oldu.

O, sonralar müəllimlik fəaliyyətinin ilk günlərini təbəssümlə xatırlayırdı. Amma o təbəssümün arxasında çox şey gizlənirdi:

– Uşaqlarla xoş rəftar edirdim, gördüm alınmır… şuluqluq edirdilər… dərs pozulurdu… başladım şeşələnməyə…

Bu sadə sözlərin içində bir gəncin müəllimə çevrilmə prosesi gizlənmişdi. O, çətinlikdən qaçmamışdı, bu çətinliyin içindən keçmişdi.

Çətinliklər bir-bir gəlib keçsə də, Əliyar Qarabağlı bir yerdə dayanmadı. O, Bakı məktəblərində dərs deyə-deyə oxudu, gecələrin yorğunluğunu səhərin ümidi ilə əvəz etdi və nəhayət, Pedaqoji İnstitutu fərqlənmə ilə başa vurdu. O, sadəcə, tələbə deyildi, həm də bir müəllim idi.

Təhsilini başa vurduqdan sonra Əliyar Qarabağlı elmi və publisistik fəaliyyət yoluna qədəm qoydu. Bu dövr onun düşüncə dünyasının formalaşdığı, sözə məsuliyyətlə yanaşmağın mənasını dərk etdiyi illər idi. Gənc Əliyar üçün yazı artıq, sadəcə, fikir ifadəsi deyil, bir mövqe, bir möhkəm dayaq idi.

Elə həmin illərdə Azərbaycan mədəni mühitində ciddi bir müzakirə gedirdi. Musiqi aləmində tarın "köhnəlmiş alət" olduğu, onun sədalarının guya "ağlamaq motivləri" daşıdığı iddia edilərək bu alətin ləğvi məsələsi gündəmə gətirilmişdi. Bu fikir ətrafında cəmiyyət iki yerə bölünmüşdü. Bir tərəf tarın keçmişdən gələn yük olduğunu deyir, digər tərəf isə onu milli ruhun səsi kimi müdafiə edirdi.

Məhz belə bir gərgin və həssas zamanda Bakı qəzetlərinin birində "Tar ağlamayacaq" adlı məqalə işıq üzü görür. Bu yazı gənc Əliyar Qarabağlının qələmindən çıxmışdı. O, hələ yolun başlanğıcında olsa da, sözündə bir cəsarət, bir qətiyyət vardı. Məqalə həm üsyan idi, həm də müdafiə, həm musiqiyə, həm də milli yaddaşa ünvanlanan bir səsləniş.

Bu onun ilk ciddi publisistik işi sayılırdı. Ondan əvvəl də mətbuatda xırda yazıları, xəbər xarakterli qeydləri çap olunurdu, lakin "Tar ağlamayacaq" artıq başqa bir səviyyənin başlanğıcı idi. Bu, düşünülmüş mövqe, aydın ideya və içdən gələn bir inam idi.

Əliyar Qarabağlı bu yazısında təkcə bir musiqi alətini müdafiə etmirdi. O, əslində bir xalqın yaddaşını, onun səsini, onun ruhunu qorumağa çalışırdı. Tar onun üçün, sadəcə, simli alət deyildi, o, bir mədəniyyətin nəfəsi, bir tarix yaddaşı idi. Onu "ağlayan səs" kimi təqdim etmək isə həmin yaddaşa kölgə salmaq idi.

Bu məqalə bir gəncin qələmi ilə yazılsa da, içində böyük bir cəsarət vardı. Onun üçün söz yalnız ifadə vasitəsi deyil, həm də məsuliyyət idi. Əliyar Qarabağlı bu yazısı ilə həm də öz yolunu müəyyənləşdirirdi: o yol elmin, ədəbiyyatın və milli düşüncənin yoluydu.

1933-cü ildə F.Qasımzadə və Ə.Qarabağlının birgə tərtib etdikləri və "Azərnəşr" tərəfindən çap olunmuş "4-cü təhsil ili üçün ədəbiyyat müntəxəbatı" dərsliyi də dövründə maraqla qarşılanmışdır.

Görkəmli pedaqoq 1939-cu ilə qədər Bakının 1 saylı məktəbində ədəbiyyat müəllimi kimi fəaliyyət göstərdi. Şagirdləri arasında Azərbaycan teatr rejissoru, aktyoru və pedaqoqu Mehdi Məmmədov, ilk azərbaycanlı qadın rəssam, qrafika ustası Maral Rəhmanzadə, Azərbaycan rəssamlıq məktəbinin ən görkəmli nümayəndələrindən biri Bəhlul Səttarzadə də vardı.

Bu illər onun pedaqoji dünyasının formalaşdığını, müəllimlik sənətinin, sadəcə, peşə deyil, bir missiya olduğunu dərk etdirdi. Onun üçün lövhədə yazılan hər cümlə, oxunan hər bədii parça, sadəcə, məlumat yox, düşüncəyə açılan bir pəncərə idi. Yaxşı anlayırdı ki, əzbərlənmiş bilik zamanla unudulur, lakin düşüncə ilə qazanılmış bilik insanın daxilində kök atır və onu dəyişdirir. Buna görə tələbələrinə hazır cavablar deyil, sual verməyi, düşünməyi öyrədirdi. Hələ ötən əsrin 60-cı illərində söylədiyi fikirlər bu gün də aktuallığını saxlayır: "Bizə, sadəcə, əsərləri tanıyan yox, düşünən, analiz edən, öz fikrini ifadə edən insanlar lazımdır". Bu fikir onun pedaqoji dünyagörüşünü ifadə edirdi. Onun üçün müəllimlik şagirdə informasiya ötürmək deyil, düşüncəyə istiqamət vermək idi.

Əliyar Qarabağlı sonradan Azərbaycan Dövlət Universitetində (ADU) pedaqogika kafedrasının professoru kimi fəaliyyət göstərdi. O dövrdə ədəbiyyatın tədrisi metodikası tam formalaşmamışdı və o, bu sahədə elm ilə məktəb arasında körpü yaratmışdı.

Onun pedaqoji irsində ibtidai siniflər üçün hazırladığı "Ana dili" (2-ci sinif qiraət kitabı) xüsusi yer tutur. Bu kitab uşağın dünyagörüşünü formalaşdıran mühüm tərbiyə vasitəsi idi. O hesab edirdi ki, ibtidai təhsildə məqsəd təkcə oxumağı öyrətmək deyil, uşağı düşünməyə, dərk etməyə yönəltməkdir.

Əliyar Qarabağlı həm də ədəbiyyatşünas alim kimi Azərbaycan ədəbiyyatı və folklorunun tədrisi ilə bağlı çoxsaylı məqalələr yazmış, folkloru məktəb tədrisində elmi-tədqiqat obyektinə çevirmiş ilk tədqiqatçılardan idi. Tez-tez ekspedisiyalara çıxırdı. 1949-cu ildə yazdığı "Orta məktəbin ədəbiyyat kursunda Azərbaycan folklorunun yeri və tədris üsulu" adlı dissertasiya işi bu sahədə ilk sistemli araşdırmalardan sayılır və onun elmi düşüncəsinin genişliyini göstərir. Bu gün onun adı çəkiləndə təkcə bir alim deyil, bütöv bir pedaqoji məktəb xatırlanır. O, yaddaşlarda yaşayan müəllimlərdəndir.

Görkəmli ədəbiyyatşünas Abbas Zamanov onu "öz sənətini qəlbən sevən müəllim və alim" kimi dəyərləndirir, Xalq yazıçısı Mirzə İbrahimov isə "maarif fədaisi" adlandırırdı. Onun gərəkli irsi bu gün də Azərbaycan pedaqogikası və ədəbiyyatı tarixində, nurlu xatirəsi isə tanıyanların qəlbində yaşayır.

***P.ƏFƏNDİYEV***
***XQ***

*Ümumdünya Şəhərsalma Forumu – 13*

# Qlobal memarlıq çağırışları Bakıda cavablandırılacaq

**Bir neçə gündən sonra paytaxt Bakı dünyanın şəhərsalma sahəsində ən nüfuzlu tədbirlərindən olan Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasına (WUF13) ev sahibliyi edəcək. Bu forumun Bakıda keçirilməsi Azərbaycanın nüfuzunun göstəricisi və urbanizasiya sahəsində qazandığı uğurların beynəlxalq miqyasda tanınmasının daha bir sübutudur.**

WUF 2001-ci ildə Birləşmiş Millətlər Təşkilatı tərəfindən dünyanın üzləşdiyi ən aktual problemlərdən olan sürətli urbanizasiya və onun şəhərlərə, iqtisadiyyatlara və iqlim dəyişikliyinə təsirini tənzimləmək məqsədilə təsis olunub. Forum ilk dəfə 2002-ci ildə Keniyanın Nayrobi şəhərində keçirilib və sonrakı illərdə Braziliya, İspaniya, Çin, Kolumbiya, Malayziya və digər ölkələr ev sahibliyi edib. Bu təşəbbüs memarlıq və tikinti sahəsinə diqqətin artırılması ilə yanaşı, urbanizasiya proseslərinin müasir çağırışlara uyğun şəkildə tənzimlənməsi baxımından strateji əhəmiyyət daşıyır.



Eyni zamanda, bu ilin Azərbaycanda "Şəhərsalma və Memarlıq İli" elan edilməsi də ölkənin sosial-iqtisadi inkişaf strategiyasının tərkib hissəsidir. 2022-ci ildən etibarən Azərbaycanda Milli Şəhərsalma Forumunun keçirilməsinə başlanılıb və bu təşəbbüs də müasir şəhərsalma siyasətinin öyrənilməsi, yerli təcrübənin xarici mütəxəssislərlə bölüşdürülməsi baxımından ilkin zəmin rolunu oynayır.

Böyük şəhərsalma layihələri çərçivəsində müasir binalar, ofislər, parklar və piyada zonaları yaradılır, "ağıllı şəhər" prinsipləri tətbiq olunur, yaşıllıq və parkların əhatə dairəsi genişləndirilir. Bu layihələr, sözsüz ki, Bakının daha rahat yaşayış mühiti olan ekoloji şəhərə çevrilməsi məqsədini gücləndirir, müasir, funksional şəhərsalma sahəsində bir çox layihələrin həyata keçirilməsinə təkan verir. Paytaxtda bu istiqamətdə görülən işlər kifayət qədər genişdir və bir neçə əsas istiqaməti əhatə edir.

**Professor, tanınmış memar Cahid Həsənov** sözügedən mövzu ilə bağlı XQ-yə açıqlamasında bildirdi ki, Bakıda WUF13-ün keçirilməsi təsadüfi deyil və bu, Azərbaycanın urban inkişafda yeni mərhələyə keçidə hazır olduğunu göstərir. Müasir çağırışlar fonunda şəhərsalma və memarlıq sahəsində yanaşmalar köklü şəkildə dəyişir, xüsusilə iqlim dəyişiklikləri və urban sıxlıq kimi amillər yeni standartlar formalaşdırır. Həmçinin Prezident İlham Əliyevin sərəncamı ilə 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi mühüm əhəmiyyət daşıyır. Bu, bir daha memarlıq baxımından yeni dövr üçün işlərin görülməsinə böyük töhfədir. Azərbaycan yeganə ölkədir ki, dünyanın memarlıq və şəhərsalma ilə üzləşdiyi qlobal problemin həlli istiqamətində müəyyən addımlar atır.

Cahid Həsənov daha sonra qeyd etdi ki, əvvəllər insanlar hansısa bir mənzərəli yerdə rahatlığı üçün bir ev tikirdi. Şübhəsiz ki, 10 milyondan çox insanın çayqırağı və yaxud dəniz qırağında məskunlaşması təbii ki, qeyri-mümkündür. Amma Azərbaycanda görülən işlər, bundan sonrakı dövr üçün biz memarlar yeni layihələndirmə işlərinə başlamışıq ki, hər bir Azərbaycan vətəndaşı yaşadığı ərazidə komfort həyat tərzi ilə üzləşsin. 10-20 il əvvəl, hətta Sovetlər Birliyi dövründə insanlar rayonlardan Bakıya gəlirdilər ki, yay günlərini park-bulvarda səmərəli keçirsinlər. Eləcə də paytaxt sakinləri asudə vaxtlarında dənizkənarı bulvara üz tuturdular. Sonralar gördük ki, artıq Bakının hər bir rayonunda, eləcə də regionlarda əlavə parklar yarandı. Yəni insanlar bir daha şəhər mərkəzinə uzun məsafə qət etməməklə öz rayon ərazilərində yaşıl parklarda, yaşıl şəhərdə dincəlib istirahət edirlər.

Azərbaycanda memarlar yeni dövr layihə işləyirlər ki, bu da binaların seyrək, MTK-lar tərəfindən tikililərin təbii işıqlandırılmasının təmini, havalandırma sisteminin yaxşı olmasıdır. Dövlət tikililəri ilə paralel özəl sektora da qaydalar tətbiq olunub ki, insan amili rahat yaşayış tərzinə dəlalət etsin.

Memarın fikrincə, daha bir uğurumuz Prezident İlham Əliyevin qətiyyəti ilə 20 faiz torpaqlarımızın 44 gün müddətində tam azad olunması idi. 30 illik işğal nəticəsində darmadağın olunmuş torpaqlarda şəhərsalma tam sıfırdan başlayıb: "Biz bunu neçə ildir görürük və bundan sonrakı dövrdə də bu, öz əksini tapacaq. Bir daha sübut edəcəyik ki, 5-10 il içində yeni şəhərlər necə salınır. Həmçinin bu ərazilərdə seyrangahlar, müxtəlif təyinatlı, statuslu parklar, xiyabanlar, yolkənarı yaşayış məskənlərində, məhəllələrdə, binaların da ərazisində yaşıllıq zolaqları salınır. Son illər xüsusilə azad edilmiş ərazilərdə aparılan bərpa və yenidənqurma işləri göstərir ki, dövlət şəhərsalmanı uzunmüddətli baxışla, müasir memarlıq yanaşmaları və milli kimlik arasında balans əsasında qurmaq niyyətindədir".

Memar onu da vurğuladı ki, memarlıq və şəhərsalma ilə bağlı beynəlxalq forumun keçirilməsinin üstün cəhəti ondan ibarətdir ki, Azərbaycan bu işlərə tədbirdən qat-qat əvvəl başlayıb. Növbəti dövr üçün dünya memarları, ekoloqları, mühəndisləri Azərbaycan memarlığına körpü salınmasına böyük təkan verəcəklər. Bununla da WUF13 tədbirində yerli və xarici memarların birgə fəaliyyət dövrü başlayacaq. Söhbət onların bura gəlib hansısa görəcəkləri işlərdən getmir. C.Həsənovun sözlərinə görə, artıq bu mərhələdən sonra layihələrimizi qiymətləndirməklə bizi öz ölkələrinə dəvət edəcəklər ki, gəlin, o layihələrdən bizim ölkələrimizə də tətbiq edin. Əlaqələr, yeni layihələr bu müstəvidə onilliklərlə davam edəcək. Bu kontekstdə respublikamıza turist axınının sayı da çoxalacaq.

Sonda memar bildirdi ki, memarlıq və şəhərsalma insanların yaşayış tərzini quran bünövrədir. Bu tədbirdə əsas amillərdən biri də növbəti onilliklərdə əlaqələrin genişləndirilməsinə zəmin yaradılması olacaqdır.

Beləliklə, 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan olunması və WUF13 kimi mötəbər forumun Bakıda keçirilməsi Azərbaycanın bu sahədə apardığı məqsədyönlü siyasətin məntiqi nəticəsidir. Bu proseslər ölkəmizin şəhərsalma tarixində yeni səhifə açmaqla yanaşı, gələcək nəsillər üçün daha yaşanıqlı, müasir və milli dəyərlərə söykənən şəhər mühitinin formalaşmasına xidmət edəcək. Əsas hədəf yalnız müasir tikinti deyil, şəhər mühitinin funksionallığı, estetik görünüşü və ekoloji dayanıqlılığının təmin olunmasıdır.

***Müşfiq MİRZƏ***
***XQ***

*Maraqlı görüşlər*

# 10 yaşlı nəşriyyatın yaradıcılıq hesabatı

**"İnci Şirkətlər Qrupu"nun pedaqoji yönümlü kitablar və məktəbli vəsaitləri buraxan "İZƏ" nəşriyyatı 10 yaşını Bakı və Sumqayıt şəhərlərində bu qurumla sıx əlaqə saxlayan, onun buraxdığı çap məhsullarından yararlanan müəllimlərlə birgə qeyd edib.**







Paytaxtın "Coffeerabb" restoranında keçirilən mərasimdə şirkətin idarə heyətinin sədri Mikayıl Yusifov rəhbərlik etdiyi qurumun 31 illik fəaliyyətində məktəbli və dəftərxana ləvazimatları, dərs vəsaitlərinin hazırlanması, idxalı və satışının önəmli yer tutduğunu söyləyib: "Məqsədimiz  sağlamlığa və zehni inkişafa, ekoloji tarazlığa və sağlam həyat tərzinə fayda verə bilən məhsullarla insanların gündəlik ehtiyaclarını ödəməkdir. İstehsal və xidmət öhdəliyimiz istifadəçilərin daim yeniləşən ehtiyaclarını öyrənmək, onlar üçün əlçatan etməkdir".

Bildirilib ki, çoxsaylı nəşrləri ilə ölkə məktəblərində populyarlıq qazanan, şagirdlərin sevimlisinə çevrilən "İZƏ" nəşriyyatının 10 illik yubileyi ilə bağlı təşkil edilən silsilə görüşlərin məqsədi müəllimlərlə canlı ünsiyyət yaratmaq və onları yeni nəşr olunan dərs vəsaitləri barədə məlumatlandırmadır. Tədris prosesində "İZƏ" nəşrlərindən əlavə vəsait və pedaqoji təşviq materialları kimi istifadəyə üstünlük verən müəllimlərin rəy, təklif və təşəbbüslərini öyrənmək gələcək inkişaf üçün mənəvi dəstəkdir.

Görüşdə "İZƏ" nəşriyyatının 10 illik fəaliyyəti barədə videçarx nümayiş etdirilib, burada buraxılan yeni nəşrlər təqdim olunub. Çıxış edən müəllimlər qurumun çap məhsullarının tədrisdə əyanilik və təsirlilik baxımından üstünlüyünü vurğulayıblar. Onlar kollektivin ünvanına xoş sözlər, səmimi təbriklər səsləndirib, nəşriyyata yeni uğurlar diləyiblər.

"İZƏ" nəşriyyatının hazırladığı "Yay tapşırıqları-1" barədə məlumat verən şirkət təmsilçisi Ramizə Yusifova qeyd edib ki, 6 bölmə və 12 həftəlik proqram əsasında tərtib olunmuş vəsait Azərbaycan dili, riyaziyyat, məntiq, oxuyub-anlama, həyat bilgisi və ingilis dilini əhatə edir. Əyləncəli və interaktiv tapşırıqlar uşaqlarda diqqət, məntiqi düşüncə və vizual qavrama bacarıqlarını inkişaf etdirir. Fərqli çalışmalar, rəngləmə səhifələri uşaqları yaradıcılığa həvəsləndirir, öyrənmə prosesini daha maraqlı edir.

Mərasimin davamında milli təhsilin inkişafı, şagirdlərin çağdaş mənəvi və ekoloji tərbiyəsi, onlara sağlam həyat tərzi vərdişlərinin aşılanması kimi məsələlər müzakirə olunub. Geniş fikir mübadiləsində söylənən mülahizələr növbəti fəaliyyət üçün əsas  kimi qeydə alınıb.

Görüşlərin fəxri iştirakçısı, Ana Təbiət Natural Gigiyena Mərkəzinin rəhbəri, sağlam həyat tərzi ilə ölkəmizdə uzunömürlülük örnəyi yaradan 92 yaşlı yazıçı-jurnalist Ərşad Əzimzadə "İZƏ" nəşriyyatı ilə sıx əməkdaşlığının bu yaxınlarda onun şirkətdə daimi işə qəbul edilməsi ilə nəticələndiyini söylədi. O, sağlam həyat tərzini təşviq edən kitablarında əksini tapmış şəfa qaydalarının və gümrahlıq üsullarının "İZƏ" nəşriyyatında uşaqlar üçün uyğunlaşdırılmış nəşrlərinin çap edilməsinə görə təşəkkürünü bildirib.

Görüşlərin sonunda yazıçı-jurnalist müəllimlər üçün kitablarını imzalayıb. Yeni vəsaitlər iştirakçılara hədiyyə edilib.

***Tahir AYDINOĞLU***
***XQ***

# Borçalı Zəlimxan Yaqubu unutmur



**Bugünlərdə Marneulidə Gürcüstan Azərbaycanlılarının İnteqrasiya Mərkəzinin (GAİM) və "Azərbaycan Evi"nin birgə təşkilatçılığı, Gürcüstandakı Azərbaycandilli Məktəblər Birliyinin təşəbbüsü ilə Xalq şairi Zəlimxan Yaqubun xatirəsinə həsr olunmuş "Özün basdırdığın ağaca söykən" adlı tədbir keçirilib.**

Tədbirdə Azərbaycanın Gürcüstandakı səfirliyinin nümayəndəsi Cavid Məhərrəmov, TİKA-nın Gürcüstan nümayəndəliyinin rəhbəri Salih Özer, Dmanisi merinin müavini Arif Süleymanov, Gürcüstan Azərbaycalıları Konqresinin sədri Hüseyn Yusibov, professor Şürəddin Məmmədli, ictimaiyyət nümayəndələri, ziyalılar və məktəblilər iştirak ediblər.

Tədbiri giriş sözü ilə "Azərbaycan Evi"nin və GAİM-in direktoru Məhəbbət İmanov açaraq şairin həyatı və yaradıcılığı haqqında danışıb. Bildirib ki, Zəlimxan Yaqubun zəngin irsinin təbliği istiqamətində Borçalıda mütəmadi olaraq tədbirlər keçirilir.

Daha sonra çıxış edən səfirliyin nümayəndəsi Cavid Məhərrəmov qeyd edib ki, Azərbaycan dövləti hər zaman Xalq şairinin xatirəsini uca tutub və onun ədəbi irsinin gələcək nəsillərə çatdırılması istiqamətində mühüm işlər görür.

Dmanisi merinin müavini Arif Süleymanov, Gürcüstan Azərbaycanlıları Konqresinin sədri Hüseyn Yusibov, professor Şürəddin Məmmədli, Zəlimxan Yaqubun yaxın dostu olmuş Ramiz Bəkirov, Dmanisi Təhsil və Tədris Mərkəzinin rəhbəri Kamran Xıdırov və başqaları şairin yaradıcılığı, ümumtürk ədəbi prosesindəki mövqeyi və ədəbiyyata verdiyi töhfələrdən bəhs ediblər.

Tədbirin bədii hissəsində Esmira Ələkbərlinin müəllifi olduğu tamaşa məktəblilər tərəfindən səhnələşdirilərək təqdim olunub.

Sonda şairin ailəsi adından çıxış edən qardaşı Çingiz Yaqubov tədbirin yüksək səviyyədə təşkilinə görə təşəkkürünü bildirib.

***Paşa ƏMİRCANOV***
***XQ***


## "Gəncə Şərab-1 " ASC səhmdarlarının nəzərinə!

25 iyun 2026-cı il saat 15.00-da "Gəncə Şərab-1 " ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Ümumi yığıncağın gündəliyi:

1. 2025-ci ilin yekunları üzrə cəmiyyətin maliyyə-təsərrüfat fəaliyyəti barədə təftiş komissiyasının hesabatı.
2. Cəmiyyətin illik balansının (hesabatının) müzakirəsi və təsdiqi (baş direktorun hesabatı).
3. Digər məsələlər.

Ünvan: Gəncə şəhəri, Z.Hacıyev küçəsi 56.

***Direktorlar şurası***

## "Alatava – Avtonəqliyyat 2" ASC səhmdarlarının nəzərinə!

30 iyun 2026-cı il saat 16.00-da "Alatava – Avtonəqliyyat 2" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. Cəmiyyətin 2025-ci il üçün maliyyə-təsərrüfat fəaliyyəti barədə idarə heyətinin hesabatı.
2. Digər məsələlər.

***İdarə heyəti***

## Azərbaycan Dövlət Aqrar Universiteti

*aşağıdakı vəzifələri tutmaq üçün müsabiqə elan edir*

| | |
|---|---|
| Biologiya | kafedra müdiri 1 yer, dosent 2 yer |
| Aqrar sahənin iqtisadiyyatı | professor 1 yer, 0,5 şt.v. baş müəllim 1 yer |
| Meliorasiya və hidrotexniki qurğular | dosent 1 yer |
| Bağçılıq | dosent 1 yer |
| Bitkiçilik | dosent 1 yer |
| Anatomiya və yoluxmayan daxili xəstəliklər | dosent 2 yer |
| İctimai fənlər | dosent 1 yer |
| Maliyyə və mühasibat uçotu | dosent 2 yer, 0,5 şt.v. dosent 1yer |
| Dillər tədris mərkəzi | dosent 1 yer, baş müəllim 3 yer |
| Kimya | dosent 1 yer, baş müəllim 1 yer |
| Ekologiya və meşəçilik | dosent 1 yer, baş müəllim 1 yer |
| Əczaçılıq | dosent 1 yer, baş müəllim 1 yer |
| Ümumi və xüsusi zootexniya | dosent 1 yer, baş müəllim 1 yer |
| Bitki mühafizəsi | baş müəllim 1 yer |
| Qida mühəndisliyi və şərabçılıq | baş müəllim 1 yer |
| İnformasiya texnologiyaları | baş müəllim 1 yer |
| Epizootologiya, mikrobiologiya və parazitologiya | baş müəllim 2 yer |
| Aqrobiznes, menecment və marketinq | baş müəllim 3 yer, 0,5 şt.v. baş müəllim 2 yer |
| Gigiyena və qida təhlükəsizliyi | baş müəllim 1 yer |
| Ümumi əkinçilik, genetika və seleksiya | baş müəllim 1 yer |
| Yerquruluşu | baş müəllim 1 yer |

Müsabiqədə iştirak etmək üçün sənədlər Təhsil Nazirliyi Kollegiyasının 15 noyabr 2017-ci il tarixli 5/5 nömrəli qərarı ilə təsdiq olunmuş "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları" və 401 saylı 7 avqust 1996-cı il tarixli əmri ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrində professor-müəllim və kafedra müdiri vəzifələrinin tutulması Qaydaları haqqında Əsasnamə"-nin tələblərinə uyğun olaraq ərizələrin qəbulu elanın nəşr olunduğu gündən 1 ay müddətində qəbul edilir. Gəncə şəhəri, Atatürk prospekti.450, telefon: (022) 266-00-56,266-89-57, tedris@adau.edu.az.

***REKTORLUQ***
***Rektor Zəfər Qurbanov***

## Odlar Yurdu Universiteti

*"Humanitar, təhsil və dillər", "Təbiət və texnologiya", "İqtisadiyyat və idarəetmə" fakültələrinin dekanları vəzifəsinə*

**VAKANSİYALAR ELAN EDİR**

Namizədlərə aid tələblər:
• Profilə uyğun ali təhsil, elmi dərəcə və elmi ad.
• Ali təhsil müəssisəsində minimum 5 il elmi-pedaqoji təcrübə.
• Rəhbər vəzifədə iş təcrübəsi.
• Akademik və inzibati idarəetmə bacarığı.
• Kollektivlə işləmə və qərarvermə qabiliyyəti.

Tələb olunan sənədlər:
• Şəxsiyyət vəsiqəsinin surəti.
• Ali təhsil, elmi dərəcə və elmi ad haqqında sənədlərin surətləri.
• Elmi və elmi-metodiki işlərin siyahısı.
• Kadrlar uçotunun şəxsi vərəqəsi.
• Tərcümeyi-hal.
• Fakültə dekanının müvafiq struktur bölmənin inkişafı ilə bağlı platforması.

Müraciət qaydası:

Namizədlər sənədlərini Odlar Yurdu Universitetinin rektorunun adına yazılmış ərizə ilə birlikdə info@oyu.edu.az elektron poçt ünvanına göndərə və ya universitetin inzibati binasında (Bakı, Koroğlu Rəhimov küçəsi13) İnsan Resursları departamentinə təqdim edə bilərlər.

Son müraciət tarixi - elanın yerləşdirildiyi tarixdən etibarən 30 gündür.

## "Dərnəgülsənayetikinti" ASC səhmdarlarının nəzərinə!

30 iyun  2026-cı il saat 11.00-da "Dərnəgülsənayetikinti" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

İclasın gündəliyi:

1. Səhmdar cəmiyyətin idarə heyətinin 2025-ci ilin yekunları ilə əlaqədar təsərrüfat fəaliyyətinin hesabatı və hesabatın təsdiqi.
2. Sair məsələlər.

Ümumi yığıncaqda bütün səhmdarların iştiraki vacibdir.

Əlaqə telefonu: (012)514-34-37.

Ünvan: Bakı şəhəri, Z.Bünyadov prospekti, 20/61-ci məhəllə, 118 nömrəli bina.

***İdarə heyəti***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 79 (31048) 7 may 2026-cı il, cümə axşamı

## İDMAN

### Boksçularımızın komanda qələbəsi




**Bakıda "Heydər Əliyev kuboku-2026" beynəlxalq turnirdə yeniyetmə qız boksçuların mübarizəsinə yekun vurulub. 8 ölkənin qatıldığı yarışda Azərbaycan millisi 17 medal qazanıb.**

İlkin Ağayevin baş məşqçisi olduğu U-17 komandamızın heyətində Aysel Fərəcova (46 kq), Aydan İsmayıllı (48 kq) və Səma Abbasova (66 kq) turnirin qalibi olublar.

Yeganə Rəhimova (48 kq), Fatimə Məmmədli (50 kq), Cəmilə Muradlı (57 kq), Rəmziyə Mirzəyeva (70 kq) gümüş, Nəsrin Abdullazadə, Aysan Miriyeva (hər ikisi 46 kq), Nurgül Ocaqova (48 kq), Tunca Mürşüdova, Sima İsmayılova (hər ikisi 50 kq), Alsu Yafarova (52 kq), Nərmin Abdullazadə, Ayan Novruzlu (hər ikisi 54 kq), Emiliya Beydullayeva (57 kq) və Aynur Vəlizadə (63 kq) bürünc medal qazanıblar.

Beləliklə, 3 qızıl, 4 gümüş və 10 bürünc medal qazanan Azərbaycan millisi qız boksçuların yarışında komanda hesabında 1-ci yeri tutub. İkinci yeri Gürcüstan (3-1-1), 3-cü pilləni neytral idmançılardan ibarət komanda (AİN, 1-2-1) tutub.

### Beynəlxalq Şahmat Festivalı başa çatıb



**"Baku Open 2026" Beynəlxalq Şahmat Festivalının bağlanış mərasimi keçirilib.**

AŞF prezidenti Mahir Məmmədov qalib gələn iştirakçıları təbrik edib. O, "Baku Open"in ənənəvi olaraq 2023-cü ildən təşkil olunduğunu xatırladıb:

"Bağlanış mərasimində iştirak edən hər kəsi, o cümlədən fəxri qonaqlarımızı salamlayıram. Bu festival münasibətilə şahmatsevərləri təbrik edirəm. Burada hər yaş qrupundan şahmatçı iştirak etdi. Turnirə rekord sayda iştirakçı qatılmışdı".

Ardınca son 3 ildə baş tutan "Baku Open" turnirlərində ən yaddaqalan anları özündə birləşdirən videoçarx nümayiş olunub.

Sonra çıxış üçün gənclər və idman naziri Fərid Qayıbov bütün yarış iştirakçılarını təbrik edərək bildirib ki, Prezident İlham Əliyevin idmana diqqət və qayğısını hər zaman hiss edirik. Bu səbəbdən ölkəmizdə keçirilən yarışlar hər zaman yüksək səviyyədə keçir.

Sonda yer turan idmançılar fəxri fərman, medal və hədiyyələrlə təltif olunublar.

### UEFA Çempionlar Liqasının ilk finalçısı



**Mayın 6-da gecə yarısı UEFA Çempionlar Liqasının ilk finalçısı müəyyənləşib.**

Yarımfinal mərhələsinin cavab oyununda İngiltərənin "Arsenal" komandası İspaniyanın "Atletiko"sunu qəbul edib. "Emireyts" stadionunda start götürən qarşılaşma ingilislərin qələbəsi ilə başa çatıb–1:0.

Xatırladaq ki, ilk görüşdə qalib müəyyənləşməyib – 1:1. Beləliklə, iki oyunun nəticəsinə əsasən "Arsenal" finala vəsiqə qazanıb.

Qeyd edək ki, digər finalçı dünən axşam bəlli olub. Almaniyanın "Bavariya" klubu Fransanın PSJ komandası ilə üz-üzə gəlib.

Xatırladaq ki, yarımfinalın ilk qarşılaşmasında PSJ minimal hesabla qalib gəlib – 5:4.

*Qabil YUSİFOĞLU*
*XQ*

*Elimizdən-obamızdan*

# Bizim dağlar yerindədir



**Kəndə çatdığım andan duyğularım dağlara sarı qanad çalır. Ürəyim də, gözüm də özümdən qabaq dağlara çatır. Gözəldağın gözəlliyi göz oxşayır. Dağlar qoynundakı səngərli, ləngərli Faxralı kəndi elə vüqarlı görünür ki!.. Deyirəm nə yaxşı, bizim dağlar yerindədir.**

Amma düz ilqarlı, məğrur kəndimin köksündə vüqarlı həsrət də, könül göynədən pərişanlıq da yox deyildir. Çox da ki, otu bitir, suyu axır. Otbiçən oğullar şəhərdədir, ya hardadır? Ağsaqqalların, ağbirçəklərin isə gözləri yollarda, könülləri intizardadır.

*Kim gözlədi, kim unutdu,*
*Kim bu dərdi xəbər aldı?*
*Oğulları dava uddu,*
*Nəvələri şəhər aldı.*
*Ağ saçları dərd eləmə*
*Yaşıl-yaşıl otlar varsa,*
*Göyü tutub dövrələmə.*
*Ağlayan buludlar varsa,*
*Ağlama, Bənövşə nənə.*
*Yazırsan, gözüm yoldadı,*
*Yazırsan boynum bükülü.*
*Ot biçən əllər hardadı,*
*Otlar saralır, tökülür...*

Ana kəndimin çağdaş mənzərəsinin gerçək görüntüsü bu şeirdəki kimidir. Kənddə güzəranını mal-qaranın ağartısı ilə quranlar yaylaqlarda, ruzisini torpağı əkib-becərməkdə tapanlar isə aranda olur. Kənd adamının əli işdən, ayağı yerişdən qalmır. Əgər belə olmasa, aranda tutdan, dağda qurutdan olar.

Şairin sözünə qüvvət, torpaqla ortaq olan zəhmət adamları ilə görüşəndə əli əl isidir, qanı qan çəkir. Torpaq adamının içi qabar, üstü damar əllərindən əlimi çəkəndə qabarsız əllərimdən utandım. Əmimoğlu, uşaqlıq dostum Qara sovetlər dövründə Faxralı sovxozunun aparıcı mütəxəssislərindən olub. Sovxoz dağıldıqdan sonra nə doğma el-obadan, nə də torpaqdan ayrılıb. Öz alın təri ilə qazandığı halal nemətlə yaşayır. Kərənti götürüb ot biçir, torpaqda əkdiyini əkir, becərir, sahələri suvarır. Mexanizator Əhməd də öz dəmir atını kənddə qoyub şəhərə üz tutmayıb. Bir ayağı dağda, biri arandadır. Dağı arana, aranı dağa daşıyır. Durnaları yola salandan sonra dağdan arana köçür. Elə onun aran köçü, dağ köçü də durna qatarına bənzəyir.

Kəndin cavan icra nümayəndəsi Novruz Ayvazov el-obasının qayğılarının içində sözünü-söhbətini nikbin notlar üzərində kökləyir. Kənd üçün gözəl təşəbbüslərlə çıxış edib və ümidləri doğruldub. Onun atası, rəhmətlik Şərif həkimin yüksək insani keyfiyyətlərinə hələ uşaqlıq illərindən bələd idim. Novruz da Şərif həkimin öyüd-nəsihətləri ilə böyüyüb. El üçün çalışdığı hər halından bəllidir.

Kəndin işığı, qazı, fasiləsiz gələn içməli suyu var. Amma kəndin sabahı naminə onu düşündürən incə mətləb və zərif məqamların ortağı, dayağı da lazımdır. Kəndin taleyi ilə bağlı məsələlərdə, xüsusilə Rusiyada yaşayan və işləyən eloğlular xüsusi həssaslıq göstərirlər. Bu kəndin çörəyi, suyu ilə böyüyüb kənddən qıraqda yaşayan digər maddi imkan sahibləri də bir az el-oba qayğıları ilə yaşasalar, yaxşı olar. İmkanları özlərinə qismət olsun. Gərək imkanlıdan imkansıza da pay düşsün.

Kəndə yol saldıran, su çəkdirən, körpü tikdirən kişilərin ad-sanını tarix yaşadır. İnsan özünün qurub yaratdığı işlərində yaşayır. Belə insanların ürəklərdə xatirəyə dönən əməlləri gələcək nəsilləri də daim xeyirxahlığa səsləyir. Ürəyində Vətən, yurd, el-oba sevgisi olan digər yurddaşlarımızın da yeni təşəbbüsdə bulunacağına, kəndin qayğılarına daha da həssaslıqla yanaşacaqlarına çox inanıram.

Qismətimizdə ana kəndimizin həsrəti ilə yaşamaq da varmış. Gürcüstanla sərhəddə quru yolların bağlanması həsrətimizi bir az da artırıb. Beş-altı ildir bu həsrət bizi izləyir. Ümid edirik ki, çox çəkməz, quru yollar açılar, ürəyimizdəki həsrətin alovu da öləziyər. Məlum həsrətə görə, məni kəndimizdən dadlı xatirələr ayırır.

Bir neçə il bundan əvvəl uşaqlıq dostum Qara Gülməmmədov məni başı dumanlı, səfalı dağlarımıza qonaq aparmışdı. Yaylaq yerlərimizin gözü sayılan, dumanlı dağlarımızın başı üstündə qartal kimi qıy vuran Xramı sanki ilk dəfə görürdüm. Heç mahir rəssamların fırçası da bu sehri yarada bilməz. Ömrümdə bu boyda gül dənizi görməmişdim.

Xram Ehramın təhrifə uğramış adıdır. Gül Ehramı, çiçək Ehramı! Gözümüzü, könlümüzü nura bələyən ahəng, ülviyyət. Güllər adamın, adam da güllərin üzündən öpür.

Bizim dağların sehrindən sirri dərindir. Bilən varmı divsizin dağları nəvaxtdan doğram-doğram olub, yastıq-yastıq çınqıla dönüb?! Təbiət alimlərinin güzarını burdan salması doğrudanmı hünər istəyir?! Hansı memar daşlara bu cür can verə bilər? Hansı fotoda danışan daşların ruhunu beləcə hiss etmək olar? Mümkünsüzdür!

Daşların sinəsindən cənnət çiçəklərinin cığır açdığını heç yerdə görməmişdim. Beş addım o yanda dizə çıxan tala-tala qar idi. Beş addım bu yanda dağ çiçəkləri ilə bəzənmiş bahar idi. Gözüdolusu görsün, dostum Qara Gülməmmədov. Könlümün, gözümün sevinməsinə vəsilə oldu. O, kəndimizin dəyərli oğludur. Bolnisi rayonunda böyük nüfuz sahibidir. Bizim dağların hər qarışına bələddir. Məni yaylaq adamlarının binələrinə qonaq apardı. Çobanların dəyəsində gecələyəndə onların dağlar qoynundakı eşqi sönməz həyatına heyran oldum.

Qaranın rəhmətlik atası Yasin Qara oğlu nə az, nə çox, düz 60 il o dağların Xançobanı olub. Elimizin şair oğlu Məmmədəli Yusif də o dağ qartalının şərəfinə qələm götürüb belə yazıb:

*Salam dağlar oğlu Yasin lələmə,*
*Mərd Şeşəpapaqlar Faxralıdadır.*
*Yeyək çoban dəyəsində dələmə,*
*Gülüzlü qaymaqlar Faxralıdadır.*

Yasin Qara oğlundan sonra onun oylaqlarında Çoban Camal və Almaz kimi dağlara keşik çəkən qurd ürəkli oğullar var:

*Güləndə dağların günəş camalı,*
*Yayılır yamaca sürüsü, malı.*
*Dağlar balasıdır Veylər Camalı,*
*Tərlanlar oylağı Faxralıdadır.*

...Quzu mələrtisi dağları başına götürmüşdü. Qoyun quzuya qarışanda çoban Almaz kiçik yaşlı oğlanları Ayvazı və Niyazalını səslədi. Bir göz qırpımında qoyunu quzudan ayırdılar. Tuncay və Gəncay kimi kişiqırıqları da dağda-daşda nəğmə oxuya-oxuya kəklik kimi səkirdilər. Onların səsi, nəğməsi quşların səsinə qarışmışdı. Elə bil, könülləri şikəstə üstündə köklənmişdi. O səs hələ də qulaqlarımdadır...

*Həzi HƏSƏNLİ,*
*şair-publisist*

# Bakı SportAccord təntənəsinə hazırdır

**Bakıda keçiriləcək SportAccord Konvensiyasının yeni tarixi açıqlanıb.**




Bakı Şəhər Halqası Əməliyyat Şirkətindən verilən məlumata görə, tarixlərdə edilmiş dəyişikliklərə uyğun olaraq, SportAccord və Azərbaycandakı tərəfdaşlar tədbirin bütün iştirakçılar üçün ən yüksək səviyyədə təşkil olunması məqsədilə yeni tarixlərin müəyyənləşdirilməsi istiqamətində sıx əməkdaşlıq ediblər.

Beləliklə, tədbir 2027-ci il 9-13 may aralığında təşkil olunacaq.

SportAccordun prezidenti Uğur Erdener Bakının onun üçün xüsusi əhəmiyyət daşıdığını bildirib: – Əminəm ki, bu şəhər konvensiyamızın növbəti tədbirini ən yüksək səviyyədə təşkil edəcək. Bu proses ərzində azərbaycanlı tərəfdaşlarımızın nümayiş etdirdiyi əməkdaşlıq xüsusi qeyd olunmalıdır. Biz konvensiyanın qlobal idman hərəkatı üçün rolunu və əhəmiyyətini daha da inkişaf etdirməyə davam edirik. Bu baxımdan tədbir SportAccord üçün də mühüm mərhələ olacaq.

Gənclər və idman naziri Fərid Qayıbov "Dünya İdman Paytaxtı" olan Bakının bu mötəbər tədbirə hazır olduğunu vurğulayıb: Azərbaycan beynəlxalq idman ictimaiyyətini qarşılamağı və SportAccord ilə davamlı tərəfdaşlığını əks etdirən bu tədbirə ev sahibliyi etməyi səbirsizliklə gözləyir. Əminik ki, 9–13 may 2027-ci il tarixləri beynəlxalq idmanın gələcəyi üçün mühüm mərhələ kimi yadda qalacaq.

Xatırladaq ki, daha əvvəl tədbirin bu il mayın 24-28-i aralığında keçiriləcəyi gözlənilirdi.

*XQ*

## HAVA

### Paytaxtda yağmursuz, rayonlarda yağış, dolu, dağlarda qar...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Şimal-qərb küləyi gündüz cənub-şərq küləyi ilə əvəzlənəcək.**



Havanın temperaturu gecə 11-14, gündüz 18-23 dərəcə isti olacaq. Atmosfer təzyiqi 763 millimetr civə sütunu, nisbi rütubət isə 65-75 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Ayrı-ayrı yerlərdə arabir duman müşahidə ediləcək. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 10-14, gündüz 18-23, dağlarda gecə 2-7, gündüz 7-12, bəzi yerlərdə 16 dərəcə isti olacaq.

*Q.ƏLİYEV*
*XQ*

✓ *Sumqayıt şəhər "Molokan ruhani-xristian" dini icmasına Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən verilmiş 100109A2-66 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.*

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3160
SİFARİŞ 570
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mehparə ƏLİYEVA
Çapa imzalanmışdır 00:00